*Adnan Oktar* *Harun Yəhya*



# ROHİNCALAR GÖZƏLDİR

HARUN YƏHYA (ADNAN OKTAR)

# ROHİNCALAR GÖZƏLDİR

*Myanmadakı Rohinca faciəsi, Arakan torpaqlarındaki soyqırım və dünya sükutu — bütün bu zülmlərin həlli: sevgi, birlik və İslam qardaşlığı.*

— 27 fəsil —

# Mündəricat


1 Oxucuya 5

2 Yazıçı və əsərləri haqqında 7

3 Giriş: Köç dalğası ölkələrin sahillərinə çatmağa başlayanda 10

4 Birma (Myanma) rəhbərliyinə açıq məktub 14

5 Myanmada yaşananlar insanlıq cinayətidir 21

6 Rohinca xalqından BMT-nə kömək fəryadı 28

7 Myanmadakı zülmün pərdə arxası 38

8 Myanma radikalizə diqqət etməlidir 45

9 Yenə Rohinca, yenə insanlıq faciəsi 54

10 Myanma dövlətinin yox saydığı Rohinca xalqı 62

11 Dünya uşaqların fəryadlarını niyə duymur? 68

12 Rohinca xalqı vətənsiz qalmağa məhkumdurmu? 73

13 Rohinca müsəlmanları öz yurdlarından sürgün edilir 82

14 Fərqliliklər zənginlik halına gətirilə bilər 89

15 Ya bu dünyada yaşayacaq bir qarış torpağınız olmasaydı? 94

16 Rohinca böhranı deyil, insanlıq böhranı 102

17 Arakanlılar sığındıqları ölkələrdə əziyyət görməyə məhkumdurlarmı? 109

18 Myanmada müsəlman bir qadın olmaq 117

19 Ya Arakanlı olsaydınız? 123

20 Zülmü dayandırmaqda sosial mediyanın rolu 129

21 Dünyanı sarsan mühacir böhranının tək həlli 139

22 Seçki zəfəri Rohinca xalqına nə gətirəcək? 146

23 Myanma müsəlmanları üçün bütün dünyanın hərəkətə keçmə vaxtı 152

24 İnsan hüquqları bəyannamədə var, amma həyatda yoxdur 158

25 Unutdurulan Rohinca müsəlmanları kömək gözləyir 173

26 Nəticə: Müsəlmanların birliyi ən vacib mövzudur 181

27 Əlavə bölmə: Təkamül yalanı 190

FƏSİL

# Oxucuya

Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm, 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu ortaya çıxarmaq əhəmiyyətli imani vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Buna görə də, hər kitabımızda bu mövzuya qısaca da olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd ediləcək başqa bir məqam isə, bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar “bir nəfəsə oxunan kitablar” ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə, bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə

əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salan tərəfi son dərəcə güclüdür. Buna görə də, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxuyacağına ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin qaynağın mövcud olduğuna şahid olacaq.

Bu əsərlərdə, digər yerlərdə görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, dini mentalitetə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

FƏSİL

# Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Quranın Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s) Xatəmül-Ənbiya olduğunun rəmzidir. Yazıçı bütün əsərlərində Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu şəkildə inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün əsərlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniyaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, indoneziya, malay, benqal, serb, bolqar, çin, danimarka və isveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər, xarici ölkələrdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanı dərk edər. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın fikir və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq duyğusal inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan qaldırılmışdır. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə alındıqda insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aradan qaldırmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarmaqarışıqlığın, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və xaos mühitini diqqətə aldıqda bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaqdır.

FƏSİL

# Giriş: Köç dalğası ölkələrin sahillərinə çatmağa başlayanda



Məktubun göndərildiyi yerlərdən bəziləri ◦ Birləşmiş Millətlər Sədri: Pan Gi Mun ◦ Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı sədri: Antoniu Quterreş ◦ Birləşmiş Millətlər İnsan Hüquqları Ali Komissiyası sədri (OHCHR): Ms. Navanethem Pillay ◦ United Nations Sülh İnşası Komissiyası səfiri: Vladimir Drobnjak ◦ Vaşinqton, Nyu-York, Əfqanıstan, Avstriya, İsrail, Cənubi Avropa, Küveyt, Malayziya, Fas, Myanma, İsveç, Polşa, Səudiyyə Ərəbistanı, Rusiya Federasiyası BMT İnsan Hüquqları Nümayəndəlikləri ◦ Birləşmiş Millətlər İnsan Hüquqları Ali Komissiyası sədri: Navi Pillay ◦ Avropa İnsan Hüquqları Məhkəməsi sədri: Dean Spiielmann ◦ Dövrün İngiltərə Xarici İşləri Naziri: William Hague ◦ T. C. Baş naziri Hörmətli Əhməd Davutoğlu



Andaman Adası sahillərində vertolyotdan atılan yeməkləri yığmağa çalışan Rohincalı immiqrantlar böyük çətinlik içərisində həyatda qalma mübarizəsi verirlər.

Berlin divarı yıxılıb Sovet İttifaqı dağıldığında, insanlar savaşların və acıların daha az yaşanacağı bir dünya arzulamağa başlamışdılar. Kommunizmin süqutundan sonra əsən qloballaşma külləkləri bu xülyanı daha da böyütdü.

Artıq sərmayə dövriyyəsi daha asan olacaq, zənginlik hər yerə yayılacaqdı. Ünsiyyət inkişaf edəcək, insanlar yaşanan hadisələrdən dərhal xəbərdar olacaq, bu isə diktator dövlətləri məhdudlaşdıracaqdı. Hətta sərhədlər ləğv olacaq, dünya sanki bir şəhər kimi olacaq və hər kəs istədiyi yerə səyahət edə biləcəkdi.

Tunisdə Ərəb baharı başlayıb yayıldığında bəziləri; “Budur Orta Şərqdəki avtoritar rejimlər süqut edir. Artıq dünya demokratiyanın qədrini bilir, yaxında bütün ölkələr demokratiya ilə idarə olunacaq” şəklindəki sözləri

ilə qloballaşma mövzusunda bir addım daha atıldığını ifadə etdilər. Ancaq daha sonra yaşananlar, hadisələrin heç də gözlənildiyi kimi inkişaf etmədiyini göstərdi.

Nəhəng bir qarşıdurma sahəsinə çevrilən Orta Şərqdə yaşayan insanlar canlarını qurtarmaq üçün, daha etibarlı və iqtisadi imkanları daha çox olan Avropaya doğru köç dalğası başlatdı. Avropa ölkələri vəziyyətə əvvəlcə əhəmiyyət vermədi, Aralıq dənizini keçməyə çalışan immiqrantlar, ancaq İtaliyanın problemi olaraq görüldü. Suriyadan qaçanlar üçün isə "Türkiyə qucaq açır" deyə düşünüldü.

Fransa, Almaniya, İngiltərə və digər şimali Avropa ölkələri üçün narahatlıq yaradacaq bir şey yox idi. Lakin immiqrant dalğası Yunanıstan üzərindən Balkanlara, oradan Avropanın içlərinə çatmağa başlayanda bu kimi qiymətləndirmələr də dəyişdi.

Avropa Birliyi ölkələri bir anda həyəcan vəziyyətinə keçdi. Almaniya Baş naziri Merkel, köçün qarşısını almaq üçün kilid ölkə olaraq gördüyü Türkiyəyə getməkdə tərəddüd etmədi. Türkiyənin Avropaya edilən köçün qarşısını almaq üçün görəcəyi tədbirləri qarşılığında Türkiyəyə mənfəət verilməsi, Avropa Birliyi ilə müzakirə müddətinin canlandırılması kimi vədlər gündəmə gəldi.

Bu gün Avropanı narahat edən immiqrant dalğasının bənzəri dünyanın başqa yerində yaşanır. Ancaq orada Türkiyə kimi immiqrantlara qucaq açan, öz büdcəsindən milyardlarla dollar xərcləyəcək ölkə yoxdur. Halbuki onların da həyatları ən az Orta Şərq və Şimali Afrikadan köçənlər qədər təhdid altındadır.

Bu ölümcül köç hərəkəti Avropadan çox uzaqda, dünyanın o biri ucunda, Hind Okeanının şərqində yaşanır. Köç dalğasının əsas mərkəzi, əvvəlki adı "Birma" olan Myanmadır. Köç edənlər isə Myanmanın Arakan

bölgəsində yaşayan müsəlmanlardır. Myanmada 1978-dən bəri Arakanlı müsəlmanlara qarşı insanlıq cinayətləri işlənilir. Öz ölkələrində ağır işgəncələrə məruz qalır, təcavüzə məruz qalır ibadətlərinə icazə verilmir, evlənə bilmirlər, hətta bir çoxuna şəxsiyyət vərəqəsi belə verilmir. Buna görə Arakanlılar ölkələrini tərk etmək məcburiyyətində qalır.

Təhlükəsizlik, qida və sığınacaq imkanlarından kənar, ayaqlarını basa biləcəkləri bir torpaq parçası belə onlar üçün tapılması çətin olan bir nemətdir. Çünki Arakan müsəlmanları sığındıqları ölkələrdə də problemlərlə qarşılaşır və şişmə qayıqlara mindirilib açıq dənizlərdə tərk edilirlər. Arakan müsəlmanlarının yaşadığı bu dram ancaq Avropa mətbuatında deyil, bir çox müsəlman ölkədə belə sahilə çıxan delfinlər ya da balinalar qədər maraq doğurmur.

Məhz bu kitabda Arakan müsəlmanlarının çətin həyat mübarizələri haqqında, bir ehtimalla böyük media orqanlarında yer almayan xəbərlərə və məlumatlara rast gələcəksiniz. Bütün bu həqiqətləri gündəmə gətirməkdə məqsəd isə, uşaqları belə gəmilərə doldurub açıq dənizdə ölümə tərk edəcək qədər vicdanların korlaşmasına səbəb olan ideologiyaların, ehtirasların səhvini izah etməkdir. Eyni zamanda beynəlxalq ictimaiyyətə, daha çox günahsız insanın ölməməsi üçün, Myanmada baş verənlərin adi hadisə olmadığını xatırlatmaqdır.

Kitabda Hörmətli Adnan Oktara aid dünya mətbuatında dərc edilən və Rohinca xalqının çətinliklərlə dolu həyatını, yaşadıqları sıxıntıları izah edən məqalələr yer almaqdadır. Məqalələr keçmişdən bu günümüzə qədər tarix sırasına görə nizamlanmışdır.

FƏSİL

# Birma (Myanma) rəhbərliyinə açıq məktub




İslam aləmi Myanmada və hələ bir çox yerdə acı çəkən, çətinlik içində yaşayan müsəlmanları xilas etmək üçün birlik olmaq məcburiyyətindədir.



Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər (İnsan surəsi, 8)



“969 Hərəkatı” adlı buddist milliyyətçi təşkilat müsəlmanlara qarşı şiddət və ayrı-seçkiliyi təşviq edən, müsəlmanların ev və məscidlərini yandıran, ölkəni müsəlmanlardan öz ağıllarına görə “təmizləmək” məqsədi ilə Hitler taktikaları istifadə edən bir qrupdur.



Həqiqətən, göylərin və yerin mülkü Allaha məxsusdur. O həm diriltdir, həm də öldürür. Sizin Allahdan başqa nə bir himayədarınız, nə də bir köməkçiniz vardır. (Tövbə surəsi, 116)




Müsəlmanlara istiqamətli zülmün baş dəstəkçisi olaraq görülən Myanma Dövlət başçısı Theyn Seyn.

**Hörmətli Adnan Oktarın qələmə aldığı və Birma rəhbərliyinə göndərilən açıq məktub, 27 iyul 2010-cu il tarixində ölkə daxilində və xaricində mövzu ilə əlaqədar bir çox təşkilata və səlahiyyətli şəxslərə göndərilib.**

Myanma əhalisinin təxminən 15%-ni meydana gətirən müsəlmanlardır, Birma dövləti üçün bir gözəllik və bir nemətdir. Quran əxlaqının gərəyi olan çalışqanlıq, fədakarlıq, hörmət, itaət,

təvazökarlıq, sülhsevərlik, sadəlik, mehribanlıq kimi yüksək əxlaqi dəyərlərə sahib olan bu müsəlman qardaş və bacılarımız, Myanmanın rifahı, inkişaf etməsi, nizamı və sabitliyi üçün əhəmiyyətli qatqıları olmaqda və ölkələrinin parlaq gələcəyi üçün cəhd göstərməkdədirlər. Vətənlərinə sevgi ilə bağlı, hökumətə qarşı hörmətli və sülhsevər olan bu bacı və qardaşlarımıza, Myanma rəhbərliyi tərəfindən ehtiyac duyduqları güvən, hüzur, ədalət və azadlığın təmin edilməsi son dərəcə əhəmiyyətlidir.

Lakin, bölgədən gələn xəbərlər bu torpaqlarda yaşayan müsəlman bacı və qardaşlarımızın layiq olduğu hörməti, sevgini, etibarı və hüzuru tapa bilmədiklərini göstərir. Ölkədə çoxluq təşkil edən Arakan bölgəsində yaşayan müsəlmanlar, bir çox beynəlxalq təşkilatın hazırladığı hesabatlarda da görüldüyü kimi, ağır təzyiq altındadırlar. 20-cı əsrdə sürətlə artan müsəlman əleyhinə kampaniya 100.000 müsəlmanın həyatını itirməsinə səbəb olmuş; ancaq 1942-dəki Arakan qırğınında yüz minlərlə insan ya şikəst qalmış ya da torpaqlarından köç etmək məcburiyyətində buraxılmışdır.

1962-ci ildə, dəyişən rəhbərlik tərəfindən hazırlanan “Birma sosialist partiya proqramı”, müsəlmanların dini hüquq və azadlıqlarını demək olar ki, tamamilə əllərindən almış, dinlərini istədikləri kimi yaşama hüquqları ləğv edilmişdir. Bu vəziyyət bütün İslami təhsil təşkilatlarının və məscidlərin bağlanılması ilə nəticələnmiş, həccə getmək, qurban kəsmək, toplu namaz qılmaq və digər ibadətlər qadağan edilmişdir. Həm də qanunlara və insan hüquqlarına zidd olaraq edilən həbslər və bu əsnada edilən (beynəlxalq təşkilatlar tərəfindən də təsbit edilib, isbat edilmiş olan) işgəncələr müsəlmanları Myanmanı tərk etməyə məcbur etmişdir.

İnsan hüquqları təşkilatlarının vermiş olduğu hesabatlara görə, 1962-1984-cü illər arasında 20.000 Arakan müsəlmanı şəhid edilmişdir. Yüzlərlə

qadına təcavüz edilmiş və müsəlmanların demək olar ki, bütün mal varlıqlarına əl qoyulmuşdur.

Yanvar 1992-də Myanmada yaşayan müsəlman azlığa mənsub 700 nəfər insanın Banqladeş sərhədi yaxınlığında boğularaq öldürüldüyü ortaya çıxmışdır. 1994-cü ildə isə 1000-dən çox müsəlman mühakiməsiz edam üsulu ilə şəhid edilmişdir.

Bu haqsız və şiddətə söykənən tətbiqlər 1990-cı illərdən sonra da davam etmiş və həyatlarını qurtarmaq istəyən 200.000 müsəlman 1992-ci ildə Banqladeşə sığınmaq məcburiyyətində qalmışdır. Çox kasıb bir İslam ölkəsi olan Banqladeş, Birmalı mühacirləri torpaqlarında qonaq etməkdə, ancaq yemək və sığınacaq mövzusunda etdiyi köməklər yetərsiz qalmaqdadır.

Kommunikasiya imkanlarının məhdud olması, internetin möhkəm yoxlama altında tutulması və bölgəyə girməyi bacara bilən Aparıcıların belə xəbər almalarının və xəbər yaymalarının qadağan edilməsinə görə, Myanmada yaşayan müsəlman bacı və qardaşlarımız dünyaya səslərini eşitdirməkdə çətinlik çəkməkdədirlər. Nadir hallarda da olsa əldə edilən xəbərlər və şəkillər isə yaşanan zülmün və haqsızlığın ölçülərini gözlər önünə sərməkdədir.

Myanma rəhbərliyi, xalqını və müsəlman vətəndaşlarını təzyiq altında tutmaqla çox səhv siyasət izləməkdədir. Təzyiq və şiddət heç bir zaman hüzur və sabitlik təmin etməz. Myanma rəhbərliyi, ölkəsinin 21-ci əsrin müasir dövlətləri arasında iştirak etməsini istəyir; inkişafı, irəliləyişi və inkişafı hədəfləyirsə əvvəlcə öz vətəndaşlarına qarşı sevgi ilə, şəfqətlə və anlayışla yaxınlaşmaq məcburiyyətindədir. Bu, böyük bir dövlət olmanın gərəyidir.

Məzlum, heç bir gücü olmayan, heç kimə zərəri toxunmayan, tam tərsinə etidallı, istiqrarlı, çalışqan, fədakar, vətəninə və millətinə bağlı Myanma müsəlmanlarını əzməklə, təzyiq altında tutmaqla, bu insanların dinlərini yaşamalarına maneə törətməklə Myanmanın böyük bir dövlət ola bilməyəcəyi açıqdır. Müsəlmanların rəhbərliyə qarşı bir itaətsizlikləri və hörmətsizlikləri mümkün deyil. Myanma rəhbərliyinin müsəlmanlardan narahat olmasını gərəkdirən bir vəziyyət də yoxdur. İslam sülh və sevgi dinidir. Myanmalı müsəlman bacı və qardaşlarımızın dindarlıqları, Qurana bağlılıqları, Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə olan sədaqətləri Myanma üçün nemət və gözəllikdir.

Myanma rəhbərliyinin bu neməti ən yaxşı şəkildə qiymətləndirə bilməsi üçün müsəlmanların üzərindəki təzyiqi qaldırması əsas şərtdir. Myanma rəhbərliyi zənginlik, güc və rifah istəyirsə bunu ancaq vətəndaşlarının təhlükəsizliyini tam təmin edərək, onları azad buraxaraq, düşüncə və ibadət azadlığına zəmanət verərək, onlara insanca yaşaya biləcəkləri mühit təqdim edərək əldə edə bilər.

Myanma rəhbərliyinin, bu açıq həqiqəti görməzlikdən gəlməsi, beynəlxalq cəmiyyətin insan haqları və hüququn təmin edilməsi üçün dilə gətirdiyi tələbləri göz ardı etməsi, təzyiqə və şiddətə davam etməsi vəziyyətində isə, bundan ən çox zərər görən yenə özü olacaq.

Xahişimiz, Myanma rəhbərliyinin bu tətbiqlərindən qısa zamanda imtina etməsi, torpaqlarında yaşayan müsəlmanlar, xristianlar, buddistlər daxil bütün vətəndaşlarına gözəl və keyfiyyətli həyat təqdim etməsidir. Myanma rəhbərliyi bunu təmin etdiyində 21-ci əsrin mədəni dövlətləri arasında layiq olduğu yeri alacaqdır.

FƏSİL

# Myanmada yaşananlar insanlıq cinayətidir



Betondan ev tikmə icazələri olmayan Rohincalıların yaşadıqları evlər hər hansı bir təbii fəlakətdə asanlıqla dağıla biləcək quruluşdadır.

Bu məqalə, "Harakah Daily"də, 4 yanvar 2014-cü il tarixində eyni zamanda "Burma Times"da, 5 yanvar 2014-cü ildə dərc edildi.

Myanmanın Arakan əyalətindəki Rohinca müsəlmanlarına qarşı icra edilən mərhəmətsiz etnik təmizlik zamanı yaşanan qırğın, zülm, işgəncə və vəhşiliyin ölçüləri təxəyyülün sərhədlərini aşacaq xüsusiyyətdədir.

1942-ci ildən bəri icra edilən sistemli təmizləmə siyasəti istiqamətində edilən qırğın və sürgünlər nəticəsində, regiondakı 4 milyon müsəlman

əhalidən geriyə hal-hazırda sadəcə 700 mini qalıb. Bu günə qədər 3 milyon müsəlman qonşu ölkələrə köçməyə məcbur edilib, yüz minlərlə müsəlman şəhid edilib, on minlərlə məskunlaşma mərkəzi yandırılaraq yox edilib, on minlərlə qadın təcavüzə uğrayıb, yüzlərlə məscid və mədrəsə dağılıb, yerlə-yeksan edilmişdir. Hal-hazırda həbs edilmiş və işgəncə görən minlərlə müsəlman olduğu bilinməkdədir, ancaq bu kəslərin aqibətləri naməlumdur.

Son illərdə Banqladeş hökuməti də sərhədlərini mühacirlərə bağladığı üçün qaçaq olaraq bu ölkəyə sığınmaq istəyən yüzlərlə müsəlman sərhəddəki çay və dənizlərdə boğularaq həyatını itirməkdədir. Bu da ölkəni tamamilə Müsəlmanlardan təmizləmək istəyən Myanma rəhbərliyinin maraqlarına uyğun gəlməkdədir.

Keçdiyimiz il iyun ayında yenidən alovlanan hücumlarda 330-dan çox müsəlman kəndi, məscid və mədrəsələr də daxil, atəşə verilərək müsəlman bacı və qardaşlarımız evlərində diri-diri yandırılmışdır. Müstəqil insan hüquqları təşkilatlarına görə, ancaq 2012-ci il iyun ayında bu regionda 1000 müsəlman mərhəmətsizcə şəhid edilmiş və 125 min adam evlərindən və kəndlərindən sürgün edilərək meşələrdə yaşamaq məcburiyyətində buraxılmışdır.

## İnsan hüquqları izləmə təşkilatı hesabatlarında Rohincalılar

İnsan hüquqları izləmə təşkilatı, keçdiyimiz aylarda Arakan müsəlmanlarına qarşı törədilən insanlıq cinayətləri ilə bağlı 153 səhifəlik hesabat yayımlamışdır. Hesabatda Myanmalı səlahiyyətli şəxslər Arakan əyalətində Rohinca müsəlmanlarına qarşı etnik təmizlik etməklə günahlandırılıb. BMT-nin etdiyi şərhə görə isə, Arakan müsəlmanları dünyanın ən çox zülmə məruz qalan birliyidir.

Myanma rəhbərliyi, hər nə qədər özünü şiddət və terror hadisələrinin xaricində göstərmək istəsə də hücumlara göz yumaraq, müsəlmanlara kömək çatdırılmasına maneə törədərək, səyahət və insan kimi yaşama azadlıqlarını məhdudlaşdıraraq və şiddəti qoruyaraq bu soyqırıma dəstək verməkdədir.

Bununla bərabər, dövlətin müsəlmanlara gətirdiyi tətbiq və sanksiyalar tam mənası ilə insanlıqdan kənardır:

Rohinca müsəlmanlarının vətəndaşlıq hüquqları yoxdur və dövlətin heç bir imkanlarından faydalana bilməzlər.

Pasport ala bilməz və xəstələndiklərində dövlət xəstəxanalarına qəbul edilməzlər.

Dövlət və ya xüsusi təşkilatlarda ödənişsiz işlədilərlər.



Qorxu içindəki Rohinca xalqının özlərini qorumaq adına nə sığına biləcəkləri bir təşkilat nə vətəndaşlıq haqları nə də hüquqi haqları var.

Dövlət məmuru olma və liseydən sonra təhsilə davam etmə hüquqları yoxdur.

Müsəlmanlar, bir kənddən başqa kəndə getmək üçün belə dövlətə vergi vermək məcburiyyətindədirlər.

Saat 21.00-dan sonra küçəyə çıxmaları, polisdən icazə almadan qohum və ya qonşu ziyarəti etmələri qadağandır.

Müsəlmanların beton ev tikmələri də qadağandır; ancaq taxta ev tikə bilərlər. Bu evlərin mülkiyyəti də dövlətə aiddir.

Sabit telefon, cib telefonu ya da motorlu nəqliyyat vasitəsi sahibi olmaları qadağandır.



Beynəlxalq cəmiyyətin səssizliyi, Rohincalılara edilən zülmlərin davam etməsinə səbəb olur.

Bir cinayət isnad edildiyində, özlərini müdafiə etmə hüquqları yoxdur, dərhal həbs edilirlər.

Polis ya da əsgər, səbəb göstərmədən evlərinə basqın edə bilər. İstəyəndə əyləncə üçün də həbs oluna bilərlər.

1962-2011-ci illər arasında kommunist hərbi rəhbərliklə idarə olunan Myanmada müsəlmanların yox edilməsi sanki dövlət siyasəti halına gətirilmişdir. Arxasından geniş ölçüdə üsulsuzluqların yaşandığı siyasi seçkilər nəticəsində yenə kommunist hərbi xunta idarəsində sözdə demokratik rəhbərliyə keçilmişdir. Nəticədə bu gün yenə kommunist hərbi xunta, eyni siyasəti kukla hökumət üzərindən davam etdirməkdədir. Məqsəd, yox edərək ya da sürgün edərək müsəlman əhalisini sıfıra endirməkdir.

Arakanda davam edən müsəlman zülmü, bu günə qədər həmişə radikal buddistlərə aid edilərək etnik savaş kimi göstərilməyə çalışılmışdır. Halbuki hər kəsin bildiyi kimi buddistlər, inancları gərəyi insan öldürməkdən şiddətlə uzaq olan itaətli və sülhsevər insanlardır. Həqiqətdə bunu edənlərin isə özünü buddist olaraq göstərən, kommunist dərin dövlətə bağlı quldur dəstələri və terror təşkilatları olduğu artıq bilinməkdədir. Daha əvvəlki şiddət və qırğınları “Lion Thein” adlı terror təşkilatı etməkdə ikən, yaxın dövrdə başlayan yeni dalğa şiddət hadisələrini “969 hərəkatı” boynuna götürməyə başlamışdır.



Potensial Strateji Neft Ehtiyatı Evi Arakandakı müsəlman əleyhdarlığının əhəmiyyətli səbəblərindən biri, Arakan bölgəsinin enerji yolu üzərində olmasıdır. Bu bölgə, Çinin neft və təbii qaz idxalı üçün ideal bir liman mövqeyindədir.

Bu quldur dəstəsi üzvləri ümumiyyətlə Tailand və Çində kommunist partizan təhsili alaraq Myanmaya gələn militanlardan meydana gəlməkdədir. Şərqi Türküstandakı müsəlmanlara qarşı icra etdiyi bənzər etnik təmizlik addımı, Kommunist Çinin çox yaxın dostu və müttəfiqi olan Myanmadakı hadisələrin də pərdə arxasında olduğu ehtimalını ağla gətirməkdədir. Çünki, zəngin yeraltı qaynaqları, neft ehtiyatları və enerji qaynaqlarına sahib olan və Orta Şərq neft və qazının keçid nöqtəsində yer alan Myanma, Çinin strateji olaraq ən əhəmiyyət verdiyi ortaqlarından biridir. Belə bir ölkədə müsəlmanların söz sahibi olması isə, kommunist Çin dövlətinin ən son istəyəcəyi vəziyyətdir.

Dünyanın dörd bir tərəfində müsəlmanların başına gələn zülm, şiddət və qırğınlara dünyanın bir çox ölkəsi necə hər zaman tamaşaçı qalırsa, Arakan üçün də dəyişən bir vəziyyət yoxdur. Məhz bu on illərdir

dəyişməyən mənzərənin, bu acıların, müsəlmanlar bu iki ayənin hökmünü yerinə yetirib birlik olmadıqca, sona çatmayacağı çox açıqdır.

> *“Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər.”*
>
> **(Ənfal surəsi, 73)**

> *“O kəslər üçün ki, haqsızlığa məruz qaldıqda intiqam alırlar.”*
>
> **(Şura surəsi, 39)**

Müsəlmanların bir araya gəlib tək bir bədən olaraq hərəkət etmələrini istəməyən, lazımsız görən ya da passiv və bitərəf qalan kəslər isə, çəkilən bu acıların, yaşanan bu zülmlərin, tökülən müsəlman qanlarının vicdanı məsuliyyətini boynuna götürmək məcburiyyətində qalacaqlarını unutmamalıdırlar.

5 FƏSİL

# Rohinca xalqından BMT-nə kömək fəryadı

## Rohinca xalqından Birləşmiş Millətlər Təşkilatına kömək fəryadı



Yanqonda olan 19-cu əsrə aid müstəmləkəçi İngilis tacir evi

Bu məqalə, “Harakah Daily”de, 27 yanvar 2014-cü il tarixində dərc edildi.

Cənub-Şərqi Asiyanın Hind-Çin zonasının ən böyük ölkəsi olan Myanmada 70 milyonun, sadəcə 3 milyonu müsəlman əhali meydana gətirir. Ancaq buna baxmayaraq müsəlmanlara qarşı ciddi vəhşilik tətbiq olunur. Bu vəhşiliyin əsas səbəbi isə etnik və dini ayrı-seçkilikdir.

Ölkədə yaşayan təxminən 800.000-ə yaxın Rohinca müsəlmanı vətəndaşlığa qəbul edilmir. Bu insanlar, qonşu ölkə Banqladeşdən gələn “qaçaq immiqrantlar” olaraq görülür. Digər tərəfdən sərhəddəki sahil xəttində yaşayan Rohincalıları Banqladeş rəhbərliyi də ölkəsinə qəbul etmir.

İki ölkənin də önəmsəmədiyi Rohinca insanları, bu torpaqlarda “ölkəsiz insanlar” olaraq həyat mübarizəsi verirlər. Şəxsiyyət vəsiqəsinə, bu səbəbdən hər hansı bir vətəndaşlıq hüququna belə sahib deyildirlər. Varlıqları isbat edilə bilmədiyi kimi, yoxluqları da isbat edilə bilmir.

Təhsil, sağlamlıq kimi ictimai hüquqlardan və ictimai xidmətlərindən faydalana bilmirlər, xəstəxanalara qəbul edilmirlər, dövlət dairələrində işləyə bilmirlər. Təhsil imkanları olmadığı üçün oxuma yazma bilməyənlərin nisbəti 80%-dir. Uşaqlarına doğum sənədi belə ala bilmirlər və evlənmə icazələri də yoxdur. Mal, mülk, torpaq sahibi ola bilmirlər, betondan ev tikmə icazələri yoxdur, ancaq bambuk ya da taxta və ya palçıqdan düzəldilmiş evlərdə yaşaya bilirlər ki, bunlar da hücumlarda asanlıqla dağılır.

1978-ci ildən bu yana Myanmada “qeyri-qanuni immiqrant” olaraq görülən Rohinca xalqına istiqamətli ciddi təzyiq və zülm siyasəti olduğu bilinən bir gerçəkdir. 2012-ci ilin iyunundan etibarən də bu tətbiqlər şiddətlənmiş vəziyyətdədir. O gündən bu yana, çoxu Arakan (Rakhine)

əyalətində yaşayan müsəlmanlardan olmaq üzrə, 240 nəfərin həyatını itirdiyi, 250 mindən çox adamın yerindən olduğu ifadə edilir. Ancaq keçdiyimiz günlərdə Rohinca xalqına istiqamətli yeni bir hücum cəhdi daha başladı.

## Ducharidan kəndinə edilən qanlı basqın

14 yanvar 2014-cü ildə Myanma hərbi qüvvələri, polis qüvvələri (Hlun Hteins) və Rakhine terroristləri Arakan əyalətində olan Ducharidan (Kilai-Daung) adlı Rohincalıların yaşadığı kəndə vəhşi və qanlı basqın reallaşdırdılar. Görən şahidlər bu hücumlarda təxminən 60 insanın öldürüldüyünü, bir çox günahsız kəndlinin həbs olunduğunu, qadın və qızlara təcavüz edildiyini, 200 qadın, 6 kişi və 5 uşağın da itkin olduğunu iddia edirlər. İnsan hüquqları təşkilatları, Rohinca müsəlmanlarının yaşadığı Ducharidan kəndinə edilən hücumda yüzlərlə adamın da qorxudan qaçaraq bölgəni tərk etmək məcburiyyətində qaldığını bildirdilir. Hal-hazırda, 340 sığınacaq və 4000 insanın yaşadığı məskunlaşma sahəsi tamamilə boşalmış vəziyyətdədir. Kənd, dövlət tərəfindən “qadağan zona” elan edildi və kənardan gələn müşahidəçilərin, Aparıcılərin və Rohincalıların kəndə girişləri qadağan edildi.



Myanmadakı şiddət hadisələrinin arxasında, “Time” jurnalının ifadəsinə görə, “buddist terrorun üzü” olaraq təyin olunan buddist rahib Ashin Wirathu var.

İddialara görə hadisələr, Duchiradan kəndi icra nümayəndəsi Aung Zan Phyu tərəfindən Rohinca xalqından səkkiz insanın öldürülməsi ilə başladı. Kəndlilərin bu hadisəyə şahid olması səbəbi ilə, cinayəti gizləmək istəyən kənd icra nümayəndəsi kəndliləri həbs etməyə çalışdı və onlara atəş açdı. Ayrıca hadisələr əsnasında kənddəki gənc qızlardan birinə təcavüz edildi. Bu baş verənlər səbəbi ilə bölgədə gərginlik daha da artdı və hadisə yerindəki polislərdən biri kəndlilər tərəfindən öldürüldü. Arxasından da Arakan (Rakhine) əyalətinə bağlı Maungdaw bölgəsi səlahiyyətliləri, təhlükəsizlik qüvvələrinin kəndlilər üzərinə atəş açması əmrini verdi. Hadisənin şahidləri, səlahiyyətlilərin ölən kəndlilərin cəsədlərini gizlətməyə çalışdıqlarını söyləyirlər. 22 yanvar günü gələn xəbərlərdə isə, Naypyidaw rəhbərliyinin, Rohinca xalqından olan 10 yaşdan yuxarı bütün kişilər üçün "həbs qərarı" çıxartdığı bildirilir. Bunun da günahsız xalqa qarşı yeni bir soyqırım dalğasının xəbərçisi olduğu narahatlığı gedərək böyüyür.

Ancaq bu, Rohincalılara istiqamətli ilk qırğın xəbəri deyil. Rohincalıların əsir götürülərək insan ticarətində istifadə edildiklərinə, müxtəlif işgəncələrə məruz qalaraq öldürüldüklərinə, cəsədlərinin yük maşınları ilə meşəyə daşındığına, hissələrə ayrılaraq kəsilib yol kənarlarına atıldığına, qadınlarına təcavüz edildiyinə və öldürülməzdən əvvəl sinələrinin kəsildiyinə dair şahidlər olduğu danışılır.




Myanma müsəlmanlarının qəssabı olaraq bilinən, 969 Hərəkatının lideri radikal keşiş Wirathu, bütün buddistləri müsəlman müəssisələri boykot etməyə çağırdı.

## Müsəlman Rohinca xalqı çox çətin vəziyyətdədir, Birləşmiş Millətlər Təşkilatı dərhal hərəkətə keçməlidir



Rohinca xalqının məruz qaldıqları zülmə, şəkildə görülən, "Soyqırımı Dayandırın" bənzəri yazılarla bir çox ölkədə etiraz edilir ancaq bu etirazlar da heç bir nəticə əldə etmir.

Rohinca xalqı qorxu içindədir. Ancaq özlərini qorumaq üçün edə biləcək heç bir şeyləri yoxdur. Nə sığına biləcəkləri bir təşkilat, nə

vətəndaşlıq haqları, nə də hüquqi haqları vardır. Dünyaya səslərini eşitdirə biləcəkləri ən sıravi bir texnoloji imkandan belə məhrumdurlar.

Digər tərəfdən Myanma hökuməti isə, Birləşmiş Millətlər Təşkilatı İnsan Hüquqları Xüsusi Məruzəçisi Tomas Laka Quintananın, "hadisələrin araşdırılması" tələbinə əsasən, bütün bu hadisələri yalanladı və bir polis məmuru xaricində Rohinca xalqından ölən heç kimin olmadığını ifadə etdi. Arakan (Rakhine) Əyaləti Baş naziri Hla Maung Tin isə, dünya mediasını "qaralama kampaniyası" icra etməklə günahlandırdı. Təbii ki, burada bunu təkrar xatırlatmaq lazımdır ki, vətəndaş olaraq qəbul edilmədikləri üçün Rohincalıların əhalinin siyahısında qeydləri onsuz da yoxdur. Buna görə ölsələr də, yoxa çıxsalar da, onların varlığını ya da yoxluğunu isbat edəcək rəsmi qeyd yoxdur. Bu səbəblə iddialar doğrudursa, hadisə şahidlərinin ifadələri və cəsədlərin varlığı, hadisələrin isbat edilə bilməsindəki ən əhəmiyyətli dəlillərdir. Lakin səlahiyyətli şəxslərin qırğınlarla bağlı dəlilləri sürətli şəkildə yox etdiyi və bu səbəblə də dünyanın, yaşanan bu hadisələrlə bağlı dəlillərdən xəbərsiz qaldığı bildirilir.

Bəli müsəlman Rohinca xalqı çox çətin vəziyyətdədir. Bu insanların qurtuluşu üçün isə əvvəlcə Birləşmiş Millətlər Təşkilatının hərəkətə keçməsi, Rohinca xalqının bütün yaşamaq haqlarını zəmanət altına alacaq bir iş üçün lazımlı addımları atması lazımdır. Maungdaw bölgəsindəki hadisələrin daha da böyüməsinin qarşısının alınması və edilən qırğınların doğruluğunun təsbit edilə bilməsi üçün, dəlillər ortadan qaldırılmadan, dərhal ölkəyə beynəlxalq araşdırma qrupunun gedib araşdırma icra etməsi ən təcili mövzudur.

Daha sonra mühasirə altına alınan kənddən çıxarılan xalqın, sığınacaqlarına geri dönə bilmələri və orada onlara etibarlı bir mühit yaradılması üçün qalıcı tədbirlər alınması lazımdır. İşgəncələrin,

təcavüzlərin, yağmalamaların, haqsız həbslərin, ölümlərin dayandırılması; bu hüquqsuz tətbiqləri həyata keçirənlər haqqında lazımlı tədbirlərin və qanuni əməliyyatların edilməsi; və beynəlxalq medianın, yaşananları hadisə yerində araşdırmasına şərait yaradılması, atılması lazım olan başlıca addımlardır.

Bundan sonra da Rohinca xalqının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə Arakan (Rakhine) bölgəsinə Birləşmiş Millətlər Təşkilatı tərəfindən sülh qüvvələri göndərilməsi həyati əhəmiyyət daşıyır. Bundan sonra atılacaq ən əhəmiyyətli addım isə, Rohinca xalqına vətəndaşlıq hüququ tanıyıb himayə altına alına bilmələri üçün Birləşmiş Millətlər Təşkilatının lazımlı tədbirlər görməsidir. Ölkədəki bütün digər vətəndaşlar kimi, təhsil, səhiyyə, dərman və müalicə imkanlarından, bütün ictimai haqlardan faydalanıb onlar kimi bütün insani haqlara sahib ola bilmələri üçün Myanma hökuməti ilə əlaqələrin qurulması lazımdır.



Rohinca xalqı, Arakan əyalətinin paytaxtı Sittwe yaxınlığında pis vəziyyətdə olan düşərgələrdə həyatlarını davam etdirməyə çalışırlar.

Myanma və Banqladeş arasında sıxışıb qalan bu ölkəsiz və müdafiəsiz xalqın qorunması üçün lazımlı addımları atmaq əlbəttə vicdan sahibi hər insanın məsuliyyətliyidir. Dünyada sülhü, təhlükəsizliyi, təməl insan hüquqlarını və azadlıqlarını qorumağı özünə hədəf seçmiş Birləşmiş Millətlərin isə bu mövzuda qabaqcıl olması və vaxt itirmədən hərəkətə keçməsi son dərəcə əhəmiyyətlidir.

FƏSİL

# Myanmadakı zülmün pərdə arxası




Sədəqələri aşkarda verirsinizsə, bu çox gözəl. Əgər onu yoxsullara gizlində versəniz, bu sizin üçün daha yaxşı olar. Allah sizin bəzi günahlarınızdan keçər. Allah nə etdiklərinizdən xəbərdardır. (Bəqərə surəsi, 271)



Minlərlə müsəlman, ölüm qorxusu ilə gəmilərlə, Tailand, Malayziya və Avstraliyaya getmək üçün insan tacirlərinə böyük məbləğlər ödəyirlər.



Minlərlə Rohincalı müsəlman, Kutupalanq müvəqqəti düşərgəsində, illərdir son dərəcə qeyri-sağlam şərtlər altında həyat mübarizəsi verir.

Bu məqalə, "Harakah Daily"-də 14-17 aprel 2014-ci il tarixlərində və "Burma Times"-da 2 iyun 2014-cü il tarixində dərc edildi.

**Fransadan daha böyük sahəni əhatə edən Myanmanın qlobal qüvvələr üçün mənfəət mərkəzi olduğu bilinən həqiqətdir. Üstəlik keçmiş adı ilə Birma olan Myanma, Orta əsrlərdə belə "Mərkəz" mənasını verən adı ilə, böyük bir Krallığın nümayəndəsi idi. Bundan əsrlər sonra da Myanma, hələ də tam olaraq kəşf edilməmiş ucsuz-bucaqsız təbii zənginlikləri ilə yenə Asiyanın "mərkəzi" olma xüsusiyyətini davam etdirir.**

Myanma torpaqları qalay, sink, qurğuşun, volfram, qızıl, gümüş kimi mədənləri ilə birlikdə neft və təbii qaz yataqları, ləl-cavahirat, taxta-

şalban, düyü və dəniz məhsulları baxımından da olduqca bərəkətlidir.

Ancaq bütün bunlara baxmayaraq Myanma dünyanın ən yoxsul ölkələrindən biri olaraq bilinir. Təbii zənginliklər xarici dövlətlər tərəfindən çıxarılır və ölkə daxili qarışıqlıqlar da bu kasıblığı artırır. Torpaqlarındakı yerüstü və yeraltı zənginliklərindən istifadə edəcək texnologiyaya və imkanlara sahib olmamasından başqa, daxili qarşıdurmalar, demokratiyanın yaşanmaması və insan hüquqları pozulmaları da yenə bu ölkənin yoxsulluq səbəblərindəndir.

Myanmanın strateji əhəmiyyəti isə əvvəlcə Çin, Hindistan, Tailand, Banqladeş və Laos kimi ölkələrin ortasında yer almasından qaynaqlanır. Bu səbəbdən beynəlxalq ticarət baxımından da çox böyük strateji əhəmiyyətə sahibdir. Şimalı Himalay dağlarının Cənub yüksəklikləri, Şərq tərəfi sıx meşələri ilə əhatəli dağ ətəkləri, Qərbdə və Cənubda isə Benqal körfəzi və Hind okeanı ilə əhatələnmiş Birmaniya yəni Birma tarix boyu ətrafındakı ölkələrin də tarixini və siyasətini formalaşdırmış bir ölkədir.

1947-ci ilə qədər İngilis müstəmləkəsi altında olan Myanma, bu tarixdən sonra uzun illər hərbi xunta altında varlığını davam etdirdi və bu dövrdə özünü sanki dünyaya bağladı. Bütün Asiyada iqtisadi inkişaflar yaşanarkən, Myanma öz daxili problemlərinə basdırıldı. Dünya isə bu vəziyyətə, Myanmanı həm iqtisadi cəhətdən həm də diplomatik baxımdan təcrid edərək cavab verdi.

Hindistana və Hind okeanına cənubdan bir çıxış axtarışında olan və Myanma ilə əlaqələrini gücləndirmək üçün uzun illərdir əhəmiyyətli səy göstərən Çin isə, bu dövrdə beynəlxalq cəmiyyətlərin Myanmadan uzaq dayanmasını öz strateji mənfəətlərindən yana istifadə etdi. Cənubi və Qərbi Çini Hind okeanına bağlayacaq quru yolları, dəmiryolları, limanlar və boru xətləri tikmək üçün var gücü ilə çalışmağa başladı. Ancaq Çinin

Myanmaya sərmayə yatırmaq mövzusundakı tək motivasiyası ticari deyildi. Çin eyni zamanda öz təhlükəsizliyini qorumaq və Çinin regional gücünü genişlətmək baxımından da Myanmanı həyati əhəmiyyət daşıyan ölkə olaraq görür.

Məhz bu baxımdan diqqətə alınması lazım olan əhəmiyyətli bir nöqtə də Myanma ilə Çin arasında imzalanan enerji razılaşmalarıdır. Çinin enerji qaynağı və enerji yolları mövzusundakı həssaslığı bilinən həqiqətdir. Bu istiqamətdə Myanma, Çinin enerji təhlükəsizliyi baxımından çox əhəmiyyət verdiyi bir ölkədir. Myanmanın ofşor təbii qaz qaynaqları, keyfiyyəti aşağı da olsa nefti, Çinin enerji qaynaqlarını müxtəlifləşdirmə siyasəti çərçivəsində əhəmiyyətli yer tutur.

Bilindiyi kimi Arakan əyalətinin paytaxtı Sittwenin (Akyab) 120 kilometr cənubunda olan liman şəhəri Kyaukpyudakı dəniz sahəsində cəmi 1.2 trilyon kub metrlik təbii qaz və yenə bu zonada 2,1 milyard barellik neft ehtiyatı təsbit edildi. Çin buradakı neft və təbii qaz proyektlərinə böyük sərmayələr yatırdı. Bu bölgədə ildə 12 milyard kub metr qaz və 22 milyon ton neftin Çinə nasosla vurulacağı, Myanma sahili boyu yer alan 2.402 kilometrlik iki ayrı boru xətti tikildi və oktyabr 2013-cü ildə bu boru xətləri dövrəyə girdi.

Dünyanın ən böyük ehtiyatlarından biri olaraq xarakterizə edilən, 5 min 620 hektar yer işğal edən boru xətləri və ətrafı Myanma hökuməti tərəfindən hərbi zona elan edildi və nəzarət altına alındı. Myanma burada 13 min 500 əsgər saxlayacaq, boru xətlərinin olduğu kəndlər isə boşaldılıb dövlətin mülki halına gətiriləcəkdi.

Arakanda müsəlmanların sıx olduğu əyalət paytaxtı Sittwedən başlayan və Yunnan əyalətindən Çinə daxil olan Çin-Myanma təbii qaz və neft boru xətləri Arakan problemini ələ almaqda olduqca əhəmiyyətlidir. Biri Arakan əyaləti sahillərindəki Kyauk Phru yaxınlığındakı limandan Çinə

və digəri də Sittwe limanından Hindistana çatan bu boru xətti ancaq Myanmanın enerji qaynaqlarını Çinə daşımaqla qalmır. Bu bölgə eyni zamanda Sittwedə tikiləcək dəniz limanı ilə, Orta Şərqdən Çinə gedən tankerlərin boşalacağı liman halına gətirilir. Bura, Çinin Malaka sahilinə və dolayısı ilə Sinqapur və Malayziyaya olan asılılığına alternativ olaraq düşünülür.

Məhz bütün bu strateji məlumatlar, Rakhine bölgəsinin Çinin enerji təhlükəsizliyi baxımından daşıdığı əhəmiyyəti ortaya qoyur. Arakan müsəlmanları isə, bölgənin ola biləcək istiqrarsızlaşdırıcı ünsürü olaraq görüldüyündən, Çinin enerji təhlükəsizliyi baxımından da təhdid olaraq qiymətləndirilir. Bu səbəblə də bölgədən sürgün olunmalarına ya da ölkəni tərk etmələrinə müsbət baxılır. Hər nə qədər, bölgədə davam edən zülm siyasəti bir müstəmləkəçi millətçilik problemi olsa da bu perspektivlə baxıldığında əslində böhranın son vəziyyətinin daha çox regional güc rəqabətinin davamı olduğu ortaya çıxır.

Məhz Arakanda müsəlmanların ciddi çətinliklərə məruz qalmalarının altında yatan ən böyük səbəblərdən biri də budur. Myanma ilə əlaqədar atılan addımlarda, real siyasi və iqtisadi mənfəətlər kritik rol oynayır. Bölgədəki qarşıdurmaların arxasında buddistlərin torpaq, Çinlilərin isə neft və qaz sərmayələrini zəmanət altına alma hesabları vardır. Bu səbəblə oradakı müsəlmanların bölgəni boşaldıb tərk etmələri üçün ciddi təzyiq siyasəti izlənilir. Edilən hücumlara da bu səbəblərlə lazım olan müdaxilələr edilmir.

Yaxşı bəs, çözüm nə ola bilər? Əslində orada yaşayan müsəlman xalq nə Myanmanın buddist xalqı üçün, nə də Çinin enerji zəmanəti baxımından bir təhdid ünsürü deyil. Arakan müsəlmanları sülh tərəftarı, məzlum xalqdır. Tək istədikləri öz torpaqlarında təhlükəsizlik içərisində yaşamaq və ölkədəki vətəndaşlıq haqlarından hər kəs kimi faydalana bilməkdir.

Burada əsas vəzifə ölkə torpaqlarında bir-birindən fərqli onlarla etnik və dini qrupu saxlayan Myanma hökumətinə düşür. Ediləcək olan, ölkədəki hüquq və azadlıqların hər kəs üçün bərabər olaraq təsis edilməsini təmin etmək, Arakan müsəlmanlarına da bu zəmanəti verməkdir. Bu demokratik addımlar atıldığı təqdirdə, Çin də, Birma hökuməti də, Arakan müsəlmanları da rahatlayacaq. Belə asan və ədalətli bir yol var ikən, zülm və təzyiq ilə regionda təhlükəsizliyi və sabitliyi təmin etməyə çalışmaq isə, əsas çətin olan və ən səhv yoldur.

## İmmiqrant məsələsi insanlıq məsələsidir

Dinləri, məzhəbləri, mənşələri nə olursa olsun hər hansı bir səbəblə yer üzündə zəif düşmüş insanlara sahib çıxmaq, onları qorumaq və dünyadakı zülmün sona çatması üçün cəhd göstərmək insanlıq vəzifəsidir. Sadəcə ölüm qorxusu ilə yurdlarından çıxan və təhlükəsiz sığınacaq axtaran məzlum insanlara sevgi və şəfqətlə qucaq açmaq, əldəki bütün imkanları onlarla paylaşmaqdır. Başqalarının can təhlükəsizliyi olduğunda onların qurtuluşunu, onların rahatlığını öz rahatlığından, öz hüzurundan üstün görmək fəzilətli olmağın bir şərtidir. Bundan əlavə immiqrantlara yalnız sərhəd qapılarını açmaq deyil, onları öz evlərində imiş kimi kömək etmək, rahatlat etdirmək də İslami və əxlaqi dəyərlər çərçivəsində üzərimizə düşən məsuliyyətdir.

Bu nöqtədə həm dövlətlər, həm vətəndaş cəmiyyət quruluşları, həm də dünya mediasına böyük vəzifə düşməkdədir. İmmiqrant məsələsinə insanlıq məsələsi olaraq baxıldığında, aid olduqları vətəndən, evlərindən, ailələrindən, mallarından, mülklərindən ayrılmaq məcburiyyətində qalan bu yazıq insanlara sevgi və şəfqətə əsaslı yanaşma mənimsənildiyində problemin kökdən həll ediləcəyinə şübhə yoxdur. Unudulmamalıdır ki, sevgi bütün çətinliklərin həllidir. Dünyanın dörd bir tərəfində köməkləşmə və fədakarlığı dirildəcək sevgi kampaniyası başlatmaq, immiqrant problemini həll etməkdə ən əhəmiyyətli addım olacaq.

FƏSİL

# Myanma radikalizə diqqət etməlidir

## Myanma radikalizmə diqqət etməlidir



Ən bilinən oyuncaqlarla belə tanış olmamış Rohincalı uşaqlar bir tərəfdən palçıqdan, paketdən, qutudan düzəltdikləri oyuncaqları ilə oynayırlar, bir tərəfdən də düşərgələrdəki qorxunc şərtlərdə həyat mübarizəsi verirlər.

Bu məqalə, "MalaysiaKini" xəbər saytında 10 oktyabr 2014-cü il tarixində, "Muslim Mirror"-da 22 oktyabr 2014-cü ildə, "Burma Times"-da isə 23 oktyabr 2014-cü il tarixlərində dərc edilmişdir.

Arxeoloji qazıntılar qədimdə Birmanın mədəniyyət mərkəzi olduğunu, ilk dəfə misi bürüncə çevirən, düyü yetişdirən və ev heyvanlarını əhliləşdirən bir cəmiyyət olduğunu göstərir. Dövrümüzdəki Myanma isə

müasir mədəniyyət səviyyəsi ilə müqayisə olunduqda, ölkənin o günlərdən çox uzaqda olduğunu görürük.

Müstəmləkəçilik, vətəndaş müharibələri, 50 illik hərbi rejim və beynəlxalq təcriddən sonra ölkə insan hüquqlarının pozulduğu, işçilərin zorla işlədildiyi, insan və narkotik alverinin və cinsi zorakılığın məşhur olduğu iddia edilən, dünyanın ən az inkişaf etmiş və ən kasıb dövlətlərindən biri olub. Ölkə əhalisinin 30%-i yoxsulluq içində yaşayır və təxminən 37%-i də işsizdir.

Bu gün Myanmanın qarşılaşdığı çətinliklər bununla da bitmir.

Myanma əhalisi öz tarixi, mədəniyyəti və dili olan fərqli etnik qruplardan ibarətdir. Əhalinin üçdə ikisini təşkil edən birmalılar (Bamar) ordu və hökuməti nəzarət altında saxladığı halda, digər üçdə bir hissəni etnik azlıqlar təşkil edir. Daha çox təbii sərvətlərlə zəngin olan çöl ərazidə yaşayan bu etnik azlıqlar hökumət ordusu tərəfindən zorla evlərindən çıxarılmışdır.

Myanmada müsəlman etnik azlıqlardan olan rohincalıların sayının 1.1 milyona qədər azaldıldığı təxmin edilir və rohincalılar çox ciddi ayrı-seçkiliyə və istismara məruz qalırlar. Əslində, rohincalıların dünyada ən çox zülmə məruz qalan cəmiyyətlərdən biri olduğu çoxları tərəfindən qəbul edilir. Bu məzlum insanlara öz başına həbslər, qəsbkarlıq, məcburi işlətmə, təcavüz, öz başına vergi təyini, iş bölgüsündə ayrı-seçkilik edərək məhdudiyyətlər qoyulur, şiddətə məruz qalırlar.

Öz vətənlərində arzu olunmayan bu insanlar Birma vətəndaşı olaraq qəbul edilmirlər və buna görə də təhsil, səhiyyə xidmətləri, evlənmək və səyahət haqqı kimi hüquqlara sahib deyillər. Son olaraq bölgədə tibbi yardımın əsas təşkilatçısı Sərhəd Tanımayan Həkimlər (MSF) təşkilatının, əksəriyyəti rohincalılar olan Rakhine əyalətində fəaliyyəti tam olaraq

qadağan edildi. Yardım əməkdaşlarının bölgədən getməsi ilə heç bir tibbi xidmət görməyən əyalətdə vəziyyət hər gün daha da ağırlaşır və Rakhine düşərgələrində qeyri-normal qidalanma, aclıq və xəstəliklərin getdikcə çoxaldığı xəbəri gəlir.

## Myanmada artan irqçilik və buddist radikalizmi təhlükəsi




Myanma Dövlət Başçısı Theyn Seyn

Myanmadakı etnik qarşıdurmalar son on ildə müsəlman azlığa ən ağır əziyyətlərin verilməsi və sistemli cinayətlərlə şəhid edilmələri ilə

həyəcan verici bir səviyyəyə çatdı. buddistlərlə müsəlmanlar arasındakı ölümcül mübarizə artıq yalnızca əzilən rohinca müsəlmanlarının əksəriyyətinin yaşadığı Rakhine əyalətində deyil, ölkənin digər bölgələrində də adi gündəlik hadisəyə çevrilmişdir. 2012-ci ildən əvvəl hindularla müsəlmanlar arasındakı gərginlik Rakhine əyalətində idi. İndi isə ölkənin gözü, ən böyük əyalətləri olan Yangon, Mandalay və Lashio kimi digər böyük şəhərlərə də yayılıb. Myanmalı məmurlar ya göz yumaraq, ya da üsyançılara kömək edərək insanları bu qarşıdurmalara sövq edirlər.

Ölkənin bu gün qarşılaşdığı qarşıdurmalara daha geniş miqyasda baxdıqda, buddist dəyərlərin və adətlərin qorunması adı altında irqçiliyin getdikcə artdığı görünür. Bir üslub olaraq zorakılığı mənimsəyən buddist radikalizmi və ultra-millətçilik ölkə üçün bir təhlükə yaradır, vəhşət gündən günə artır, hətta Birmanın sərhədlərini aşır.

Eyni zamanda birmalı müsəlmanların qəssabı kimi tanınan radikal buddist keşiş Ashin Virathunun başçılığı altında ultra-millətçi “969 Hərəkatı” ölkədəki müsəlman əleyhdarı düşüncələri oyatmaq üçün 2012-ci ildə ortaya atılmışdır. Hərəkat özünü dini yaymaq və qorumaq üçün qurulmuş sülhsevər, millətçi bir qurum kimi göstərdiyi halda, gizlənən əsl məqsədlərində isə ümumi əhalinin 4%-ini təşkil edən müsəlmanların bir təhdid olduğunu, onların çoxalaraq ölkəni işğal edəcəklərini iddia edirlər. Hərəkat İslamı real təhlükə olaraq qəbul edir və mənsublarını, dinlərini və ənənələrini qurtarmaq üçün ayağa qalxmağa çağırır.

Qrup müsəlmanlara qarşı zorakılıqla hər hansı əlaqələrinin olduğunu rədd etsə də, buddistlərin düşmənçiliklərini gizlədir. Məsələn, müsəlmanlara aid müəssisələrin boykot edilməsi kimi xoşagəlməz proqramların aparılması üçün kampaniyalar təşkil edərək münaqişəyə açıq şəkildə dəstək olurlar. Hərəkatla əlaqəli kilsələr 60.000 birmalı uşağı

həftə sonu məktəb proqramına qeydiyyatdan keçiriblər. Bu uşaqların gələcəkdə Myanma və Cənub-Şərqi Asiyanın şiddət tərəfdarı radikalları olmaq ehtimalı çox yüksək görünür.




...Allahdan qorxana, Allah çıxış yolu göstərər və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər... (Talaq Surəsi, 2-3)

## "Birmalılaşdırma" siyasətinin xətası

Bir çox azlıq təşkil edən qruplarla yanaşı, bitərəf insan haqları qrupları da ölkədə "birmalaşdırma" siyasətinin davam etdiyini bildirirlər. Hökumətin vətəndaşlıqla bağlı son planına rohincalıların ya benqallı kimi sıralanması, ya da müddətli həbslərlə qarşılaşacaqları daxildir. Rohincalılar isə bu qərarın onları vətənsizləşdirərək Myanmadan sürgün etmək üçün planlaşdırıldığını çox aydın başa düşürlər. Necə ki, bu ilin əvvəlində, demək olar ki, bütün rohincalılar benqallı olaraq qeydiyyata düşməyi rədd edərək əhali siyahısından kənarda qaldılar.




Arakan və Çittaqonqda müsəlmanlar və buddistlər sərbəst şəkildə birlikdə yaşayırlar. İngilis işğalı. Rohinca müsəlmanları Arakana geri dönürlər. Birma müstəqilliyini elan edir, vətəndaşlıq qanunu çıxardılır. Ardından vətəndaş müharibəsi başlayır. Rohinca müsəlmanlarının Birmada məskunlaşmaları qəbul edilir və şəxsiyyət vəsiqəsi sahibi olurlar. Arakanın Birma tərəfindən işğalı. Rohinca müsəlmanları kütlələr halında Çittaqonqa köç edirlər. Birma milliyyətçi hərəkatının başlanğıcı. Birma, Britanya Hindistanından ayrılır. Rohinca müsəlmanları, təkrar Çittaqonqa qaçırlar. İngiltərə-Birma müharibəsi Rohinca soyqırımında 100.000 insan qətl edilir. Panqlonq konfransında, General Aunq Sunq etnik qruplara muxtariyyət verir. Aunq Sunq sui-qəsd nəticəsində öldürülür. Razılaşmalar nəticə vermir. Lider U Nu, Rohinca müsəlmanlarının vətəndaşlığını elan edir.

Ölkəni bürüyən bu nifrət hissi bitməli və radikalizmin öhdəsindən gəlmək üçün Myanma hökuməti buddist inancın əsası olan cəmiyyət içində sevgi və qardaşlığı təşviq edən bir maarifləndirmə siyasəti həyata keçirməlidir. Cəhalət və radikalizmi aradan qaldırmaq üçün terror və zorakılığın yaradacağı nəticələri izah etməlidir. Demokratiyaya keçid dövründə Myanma cəld davranmalı və radikalizm bütün ölkəni məhv edərək zülmətə qərq etmədən şiddət və zorakılığın hər növünü lənətləməlidir.

Myanma, Bütün insanlara sevgi və şəfqət göstərməyi təşviq edən qədim ənənələri və mədəniyyəti ilə Myanmanın etibarlı, dinc və müasir bir ölkə olmağa haqqı vardır. Rahatlıqla ziyarət edilən, həm sosial, həm də iqtisadi baxımdan inkişaf etmiş, yüksək keyfiyyətli bir ölkə olmağa da...

Bir xalq olaraq Myanmanın imicinin dəyişməsi lazımdır. Ölkə öz ənənə və mədəniyyətini tam olaraq, etnik zənginliyi ilə birlikdə qəbul etməlidir. Əks təqdirdə mövcud vəziyyət ölkəni təhdid etməyə davam edəcək, bu da ölkə imkanlarının artmasına mane olacaq, investorların qorxmadan sərmayə qoyacağı, sabit şəraitin yaranmasının qarşısını alacaqdır.



Rohinca müsəlmanları, Birma vətəndaşı olaraq tanınırlar. 250.000 Rohinca müsəlmanı Banqladeşə mühacir olaraq sığınır. Lakin 1992-dən sonra Banqladeş onları mühacir deyil, qaçaq immiqrant olaraq görür. Təxminən 500.000 Rohinca müsəlmanı, Banqladeşdə yaşayır. Sərhəddə çox ciddi bir qarışıqlıq vardır. 8 iyunda buddistlər və müsəlmanlar arasında ölümlə nəticələnən məzhəb qarşıdurmaları yaşanır. Rohinca müsəlmanları kütlələr halında köç edir. General Ne Win bir hərbi çevrilişlə hökuməti devirir. Rohinca müsəlmanlarına qarşı zülm başlayır. 207.172 Rohinca müsəlmanı, Banqladeşə qaçır. Hökumət, Rohinca müsəlmanlarının səs vermə hüququnu rədd edir. Birmadakı hərbi hökumət Rohinca müsəlmanlarının vətəndaşlığını ləğv edən yeni vətəndaşlıq qanununu çıxardır. Arakan Milli Şurası, Rohinca müsəlmanlarının Banqladeş vətəndaşı olduqlarını elan edir. Myanma, Rohinca sözünün istifadə edilməsini qadağan edir və onları Benqallı olaraq tanınmaları üçün məcbur edir.

Myanma hökuməti öz xalqını indiki kimi çarəsiz buraxmamalıdır. Beynəlxalq cəmiyyət də irqinə və dininə baxmadan, zülmə məruz qalan əhalini qorumaq üçün əməkdaşlıq edərək hərəkətə keçməyə məcburdur.

FƏSİL

# Yenə Rohinca, yenə insanlıq faciəsi

## Yenə Rohinca, yenə insanlıq dramı

Bu məqalə "Arab News"-də 25 oktyabr 2014-cü il tarixində, "Burma Times"-da isə 29 oktyabr 2014-cü il tarixində dərc edilmişdir.

Uzun illərdir ki, beynəlxalq aləmin uzaqdan izlədiyi mövzudur rohinca müsəlmanları. Öz ölkələrində qaçqın kimi olan, heç bir sosial statusu olmayan və tez-tez şiddətə məruz qalan, zülm görən insanlar. 2012-ci ildə dəhşətli hücumlar və yanğınlardan sonra dünyanın bir az olsun tanımağa başladığı müsəlman azlıq olan rohincalıların yaşadığı Myanmada dəyişən elə bir şey yoxdur.

Keçən ay Myanma dövlətinin BMT-yə təqdim etdiyi plan guya sülh, ədalət və birliyi hədəf almışdı. Myanma Xarici İşlər Naziri bu arzularla planı BMT-yə təqdim etmiş və bir çox ölkə tərəfindən də təsdiq edilmişdi. Bir çox ölkə illər sonra Myanma dövlətinin müsəlmanlara qarşı apardığı ayrı-seçkilik siyasətindən geri addım atdığını düşünmüşdü.

## Rohincalılar öz ölkələrində "qaçqın" olduqlarını qəbul etməyə məcbur edilir

Plana görə ölkə içində zülm görən rohinca müsəlmanları iki seçim qarşısında qoyuldu. Birincisi, ya Banqladeş vətəndaşlığını qəbul edərək vətəndaşlıq hüququ əldə etmiş olacaq və 1982-ci il vətəndaşlıq qanununa uyğun olaraq sənədləri təqdim etdikləri təqdirdə Myanma vətəndaşı ola biləcəkdilər. İkinci seçim isə bunu qəbul etməməkdi ki, bunun mənası dəhşətli düşərgələrə sürgün edilərək həbs şəraitində yaşamaları və nəhayət ölkədən deportasiya edilmələri idi.

İlk baxışda birinci seçim Myanma dövlətinin rohincalılara verdiyi vətəndaşlıq hüququ kimi qəbul edilə bilər. Lakin buradakı əsl məqsəd 1982-ci il qanunu ilə onsuzda ölkədəki bütün hüquqlarından məhrum olmuş rohincalıların rəsmi olaraq məcburi köçkün statusuna malik olmalarıdır. Öz torpaqları üzərində tamamilə əcnəbi statusunda olacaq rohincalıların böyük bir hissəsinin təkrar Myanma vətəndaşı sayıla bilməsi üçün keçmişlərinə dair sənədləri təqdim edə bilməyəcəkləri bəllidir. Çünki bu insanların keçmişlərinə aid sənədlər, sahib olduqları hər şey ilə birlikdə 2012-ci ildə rohincalıları hədəf alan qorxunc qətliamlar əsnasında yanıb kül olmuşdur. Dolayısilə sənədlərini təqdim edə bilməyənlər öz ölkələrində benqal vətəndaşı, yəni əcnəbi statusunda olacaq. Myanma dövləti isə bu insanları qısa müddət sonra "əcnəbi" olduqları bəhanəsi ilə ya düşərgələrə yollayacaq, ya da ölkədən deportasiya edəcək. Benqal vətəndaşlığı qəbul etmiş insanlar Banqladeş tərəfindən də qəbul edilməyəcək. Çünki bu insanlar Banqladeşdə doğulmayıblar. Nəticə etibarilə bu qanunun Banqladeşə aidiyyatı yoxdur.

Bu arada benqal vətəndaşlığını qəbul etmək istəməyənlər də yaşadıqları kənd və qəsəbələrdən məhbus adı altında qaçqın düşərgələrinə sürgün

ediləcəklər. Tətbiq ediləcək yeni plan daxilində, bu insanlar qısa müddət sonra ölkədən qovulacaq və Myanma dövləti bu insanları digər ölkələrə qaçqın kimi göndərmək üçün BMT-yə müraciət edəcəkdir. Problem ondadır ki, BMT zülm görən bu insanları qaçqın kimi tanımır.

Həmin plan daxilində bir milyon rohinca bu dəhşətli sonla qarşı-qarşıya qalacaq. İnsan Haqları İzləmə Təşkilatı (Human Rights Watch) Asiya bölgəsinin müdir köməkçisi Phil Robertson Roytersə bu açıqlamanı vermişdir:

“Bu plan olduqca narahat edicidir. Çünki bu plan ilə Rohinca bütün hüquqlarından məhrum ediləcək, qeyri-müəyyən müddətə kimi məhbus qalacaqları bağlı düşərgələrə sistematik olaraq kilidlənəcəklər”.



Üzv olmağı gözləyən ölkələr İslam dünyasının haqq və mənfəətlərini qorumaq məqsədi ilə qurulmuş, 57 üzv ölkəyə sahib olan İslam Əməkdaşlıq Təşkilatının dünya ölkələrinə görə sıralaması görülür. Bu kimi təşkilatların İslam dünyasının birləşdirici səsi ola bilməsi üçün, Quranı rəhbər götürərək bir-birlərinə birləşmiş bir bina kimi işləmələri lazımdır.

## Rohinca müsəlmanlarının problemləri rahat şəkildə həll edilə biləcək ikən niyə hələ də davam edir?

Uzun müddətdir ki, Myanma üzərindən keçən enerji dəhlizləri və buna bağlı ticarət münasibətlərinə zərər gəlməməsi üçün dünyanın super gücləri və ASEAN üzvlərinin rohinca müsəlmanları ilə bağlı Myanma dövlətinə hər hansı bir təzyiq etməməsi və bu məsələyə sadəcə seyrçi qaldıqları məlumdur. Dünyada insanlıq əleyhinə cinayətlərin geniş yayıldığı və çox amansız şəkildə törədildiyi doğrudur. Lakin rohinca müsəlmanları məsələsi dünya ölkələrinin rahatlıqla tədbir alacağı və həll edə biləcəkləri məsələlərin başında gəlməsinə baxmayaraq, mövcud olan səssizlik anlaşılan deyil. Myanma dövlətinin təqdim etdiyi bu təklifin aldadıcı görüntüsü bir sıra ölkələri və BMT-ni razı salmaq ehtimalı, vəziyyəti daha da çox ürküdücü hala salacaqdır. Siyasətin insanlığın önünə keçdiyi, zalımlıq kimi dərk edildiyi, ölkələrin sevgi yox, mənfəət üzərində birləşdiyi bu günlərdə, şiddətin, öfkənin və müharibələrin artmasının bir səbəbi var.

Bu səbəb, insanların və ölkələrin sevgini həll yolu olaraq görməmələridir. Bir ölkə xalqı illərdir bütün dünyanın gözü önündə belə böyük bir soyqırım və zülm altında yaşamağına baxmayaraq, bütün dünya buna səsini çıxarmır.

Myanmada insanlıq dramının çox uzun zaman davam etdiyi sirr deyil. Bunun üstünü örtmək, zülmə icazə vermək dünyanı əhatə edən fəlakətləri daha da gücləndirə bilər. Bu səbəbdən əvvəl insanlıq adına, sonra bu ürküdücü ssenarini düşünərək dünya ölkələrinin mənfəətdən çox ədalət və sevgiyə əhəmiyyət vermələri vacibdir. Bunun üçün dünya illərdir zülm görən rohinca müsəlmanlarına əl uzatmalı, bu məzlum xalq üçün bir həll yolu tapmalıdır. Bu bir həqiqətdir ki, dünyanın dörd bir yanında iclaslar

təşkil edən, neft-qaz müqavilələrinə imza atan, bir-birindən silah alıb mərmi satan hər ölkənin bir ovuc məzlumu qorumağa da, bunun üçün Myanma dövlətini razı salmağa da gücü çatar. Bunun üçün ölkələrin siyasi hesablardan uzaqlaşıb vicdanlarının səsini dinləmələri lazımdır.



Tailand hərbi helikopterlərindən atılan kömək və qida yardımına çata bilmək üçün soyuq suya atlamaq məcburiyyətində qalan Rohincalılar.

## Arakanda müsəlman liderlər həbs olunur

Myanma rəhbərliyinin dini liderlərə, camaat öndərlərinə və müsəlman xalqa istiqamətli kütləvi həbslər etməsinə görə Arakan müsəlmanları ana yurdları olan Arakandan qaçır.

Vətəndaş cəmiyyət quruluşu Arakan layihəsinin rəhbəri Chris Lewa etdiyi açıqlamada, bir həftədə səkkiz min müsəlmanın Arakandan ayrıldığını, bunun, 2013-cü ili boyu bölgədən qaçan Arakanlı sayından çox olduğunu dedi. Lewa, Arakandan ayrılan müsəlmanların, gəmilərlə Tailand və Malayziyaya keçdiyini, Myanma polisinin bütün bu olanlara tamaşaçı qaldığını ifadə etdi.



Günahsız insanların susuz, yeməksiz, dərmansız buraxılmalarını; yaşayacaq bir qarış torpaq parçası belə tapa bilməmələrini heç bir vicdan qəbul edə bilməz.

Arakanda son vaxtda dini liderlərin və camaat öndərlərinin ard-arda həbs olunduğunu ifadə edən Lewa, bəzi məhbusların işgəncəyə məruz qalaraq öldüyünü ifadə etdi və bu vəziyyətin, “xalq arasında bir növ çaxnaşmaya gətirib çıxardığını” bildirdi.

Myanmada başda Rohincalılar olmaq üzrə müsəlman kütlələrin, illərdir artan bir şəkildə ictimai və siyasi həyatda ayrı-seçkiliyə məruz qaldığı ifadə edilən hesabatda, müsəlmanların böyük hissəsinə tam vətəndaşlıq verilmədiyinə və hal-hazırda parlamentdə müsəlmanların səs vermə hüququnun ləğv edilməsi istiqamətində də səylər icra edildiyinə işarə edildi. (www.dunyabulteni.net saytından götürülüb)

FƏSİL 0

# Myanma dövlətinin yox saydığı Rohinca xalqı

## Myanma dövlətinin yox saydığı Rohinca xalqı

Bu məqalə, www.harunyahya.org saytında 16 dekabr 2014-cü il tarixində yayımlanmışdır.

Arakanda yaşayan təxminən 1 milyon müsəlmandan geriyə sadəcə 140 min adam qaldı. Digər yüz minlərlə müsəlmanın isə bir hissəsi şəhid edildi, bir hissəsi də zülm və cinayətlərdən xilas ola bilmək üçün yurdlarını tərk etmək məcburiyyətində buraxıldı.

Rohinca müsəlmanları illərdir vətəndaşlıq hüquqlarının verilməməsi, səyahət və ticarət azadlıqlarının təmin edilməməsi və saysız məhdudlaşdırmalara məruz qalmalarına baxmayaraq, radikal buddistlərin tez-tez və həddindən artıq şiddətinə məruz qalır. 2012-ci ildə başlayan son şiddət dalğası ilə təxminən 150 min müsəlmanın evlərini tərk etmək məcburiyyətində qaldı. Bir çoxu yolda həyatlarını itirən və bir hissəsi də Banqladeş və digər qonşu ölkələrə sığınan Rohincalılar, köç etdikləri ölkələrdəki düşərgələrdə də son dərəcə çətin və insanlıqdan kənar şərtlər altında həyatlarını davam etdirir.

Oktyabr 2014-cü ildə Birləşmiş Millətlər Təşkilatının Sədri Pan Gi Mun, Rohinca müsəlmanlarının şiddətə məruz qalmağa davam etməsinin narahatlıq verici olduğunu ifadə edərək, Myanma hökuməti tərəfindən verilən sözlərin yerinə yetirilmədiyini ifadə etdi. Sədr eyni zamanda, ölkədəki etnik və dini ayrı-seçkiliklər səbəbi ilə yaşanan şiddətin də qayğı verici ölçüdə olduğuna diqqət çəkdi.

## Varlıqlarını isbatlaya bilməyən Rohincalılar kömək gözləyir

Rohinca müsəlmanlarının hüquqlarını müdafiə etmək üçün qurulan Arakan layihəsindən Chris Lewa, sadəcə iyun və sentyabr ayları arasında ən az 30 kənddə şiddət hadisələri və insan haqları pozuntuları olduğunu, çox sayda müsəlmanın da terror təşkilatları ilə əlaqəli olduqları səbəbi ilə nəzarətə alındıqlarını söylədi.



Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah hər şeyi Əhatəedəndir, Biləndir. (Bəqərə surəsi, 268)

Arakan düşüncə liderlərindən Aung Win də bir çox Arakanlının vətəndaşlıq hüququ müraciətinin qəbul edilmədiyini, çünki onların Benqallı sayıldıqlarını söylədi. Nəticədə Arakanlılar hal-hazırda hələ də vətənsizdir. Nə içində uzun illərdir yaşadıqları Myanma onları vətəndaş olaraq qəbul edir, nə də iddia edildiyi kimi qonşu ölkə Banqladeş vətəndaşlıq hüququ verir.

Beynəlxalq cəmiyyətdən gələn təzyiqlər nəticəsində Myanma hökuməti, lazımlı şərtləri yerinə yetirən emiqrantlara vətəndaşlıq hüququ tanımanı qəbul etdiyini desə də, bunun bir aldatma olduğu aydın olur. Çünki Rohincalılar, ailələrinin ən az üç nəsildir bu ölkədə yaşadığını sənədləşdirə bilmədikləri üçün bu hüquqdan faydalana bilmirlər. Rohincalıların rəsmi məqamlar tərəfindən evlənmələrinə imkan tanınmadığı halda, doğulan uşaqlara da dövlət doğum sənədi vermir.

Qısacası dövlət, ölkədə sanki Rohinca müsəlmanları heç yaşamayıb və belə bir xalq yox imiş kimi davranmağa davam edir.

## Zülm və şiddət sevgi ruhu ilə ləğv olar

İllərlə insanlara təlqin edilən, materializm və bunun nəticəsində ortaya çıxan inancsızlıq, cəmiyyətdəki şiddətin altında yatan əsas səbəbdir. Eqoist, ancaq öz mənfəətini düşünən insanlar, böyük ehtiras, üstünlük arzusu və narazılıq duyğusuna qapılmağa başlayarlar. Bu da cəmiyyətdə qısqanclıq, sevgisizlik və nifrət duyğusunu zirvəyə çıxardar. Şəfqət, mərhəmət və anlayışın yerini döyüşə, təcavüzkarlığa və qarşıdurmaya buraxar. "Haqlının deyil, güclünün ayaqda qala biləcəyi" şəklindəki azğın inanc, dünyanı sanki bir sevgisizlik cəhənnəminə çevirər.

"Mən" mərkəzli, qeyri-sağlam, partlamağa hazır bir bomba kimi yaşayan insan modeli, zəngin ya da təhsilli də olsa, pozulmuş ruhundakı şiddət mədəniyyətini heç cür tərk edə bilməz. Eqoizm və sevgisizlik fərdləri, özündən başqasına dəyər verməməyə itələyər.

Zülmün, şiddət və silahla əsla həll edilə bilməyəcəyi açıqdır. Səhv və azğın ideologiyaların fikirlə, elmlə, təhsil səfərbərliyi ilə təmin ediləcək razısalma üsulları ilə kökdən həll edilməsi, silah və təhlükəsizlik sənayesinə xərclənən trilyon dolların səhiyyəyə, incəsənətə, təhsilə və dünyanı cənnət kimi etməyə xərclənməsi lazımdır.

Dünyanın artıq şiddətlə, bomba ilə deyil sevgi ilə, mərhəmətlə məsələləri həll etmə yolunu seçməsi lazımdır. Bütün ölkələr Qurandakı və digər müqəddəs kitablardakı sevgi ruhuna uymuş olsa dünyada sevgi hakim olar. Bütün ölkələr haqq dinə görə qanunlarını formalaşdırmış olsa insanlıq bu sevgi siyasətləri qarşısında olduqca mərhəmətli hala gələr.

Müsəlmanlara edilən zülmün qarşısının alınması, dəccaliyyətin axırzamandakı dünya hakimiyyətinin sona çatması, bu səbəbdən məzlumların tək qurtuluşu ancaq Hz. Mehdinin (ə.s) ortaya çıxışı ilə

mümkündür. Bu səbəbdən indiki vaxtda müsəlmanlara istiqamətli davam edən bu zülm, Allahın icazəsi ilə Hz. Mehdinin (ə.s) gəlişinin çox yaxınlaşdığının ən açıq və dəqiq əlamətlərindən biridir.



Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə heç bir şey verməyəcəklərinə and içməsinlər... (Nur Surəsi, 22)

## Myanmadan bir ayda 15 min müsəlman qaçdı

“...Ayrı-seçkilik və zülmə məruz qalan Arakan müsəlmanlarının ölkədən qaçması üçün kiçik balıqçı gəmisini istifadə etmələrinə icazə verən kapitan Puton Nya, son vaxtlarda Arakandan qaçmağa çalışanların sayında böyük bir artım olduğunu söylədi. Puton Nya, “Hər kəs qaçmağa çalışır. Qorxuram yaxında kimsə qalmayacaq” dedi.

Gəmisinə mindirdiyi Arakan müsəlmanlarını Benqal Körfəzində gözləyən gəmilərə apardığını ifadə edən Puton Nya, özü kimi Arakanlılara kömək edən bir qonşusundan, gəmidəki insan tacirlərinin qadınlara təcavüz etdiyini, kişiləri də döydüyünü öyrəndiyini söylədi.

Arakan müsəlmanlarının haqlarını müdafiə etmək üçün qurulan Arakan Layihəsi Rəhbəri Chris Lewa da 15 oktyabrdan bəri 15 mindən çox insanın Malayziya, İndoneziya və digər ölkələrə getmək üçün Arakandan qaçdığını açıqladı. Bu rəqəm, keçən il eyni vaxtda bölgədən qaçanların iki qatıdır.

Son iki ildə təxminən 100 min insanın Arakandan qaçdığına işarə edən Lewa, son aylarda əsgərlər və sərhəd mühafizə qüvvələrinin “bölgədə qorxu mühiti yaratmaq və Arakanlıları qaçırmağa təşviq etmək üçün” şiddət hadisələrini artırdığına diqqəti çəkdi.

Lewa, son iki ayda dörd insanın işgəncə ilə öldürüldüyünü, hər hansı bir səbəb göstərilmədən nəzarətə alınan gənclərin əsgərlər tərəfindən şiddətli döyüldüyünü və 24 kənddə 140-dan çox insanın da köç qanununa müxalif, həddi aşanlarla əlaqəli olmaq kimi günahlandırmalarla həbs olunduğunu söylədi.” (www.risalehaber.com saytından götürülüb)

1 FƏSİL

# Dünya uşaqların fəryadlarını niyə duymur?

**Dünya Cənub-Şərqi Asiyanın uzaq bir nöqtəsindəki uşaqların yüksələn fəryadlarını niyə eşitməməzlikdən gəlir?**



Arakanlı müsəlmanlar mühacir düşərgələrində infrastruktur, gigiyena, sağlamlıq, təhsil, sığınacaq, təmiz su, qida və paltar kimi ən fundamental insani ehtiyaclardan belə məhrum şəkildə yaşayırlar.



Düşərgələrdə həyatlarını davam etdirməyə çalışan, itirəcək heç bir şeyi olmayan minlərlə Rohincalı uşaqdan biri.

Bu məqalə, "Burma Times"ta, 15 fevral 2015-ci il tarixində yayımlanmışdır.

Birma və ya yeni adı ilə Myanma dünyada bir çox insanın adını çox az eşitdiyi kiçik bir ölkədir. Ancaq 678 km2-lik sahəsi və təxminən 56

milyonluq əhalisi ilə Myanma, dünyada insan hüquqlarının ən çox pozulduğu ölkələr arasında iştirak edir.

Əhalisinin böyük hissəsi buddist olan Myanma, dörd il əvvəl hərbi idarəetmədən demokratiyaya keçdi. Lakin müsəlman Rohinca xalqı, hökumətin tətbiq etdiyi təzyiq və şiddət siyasəti səbəbi ilə ölkənin qərbindəki Arakan əyalətindən qaçmaq məcburiyyətində qalır.

Əslində, Rohinca xalqının dünyada ən çox zülmə məruz qalan kütlələrdən biri olduğu bütün dünyada bilinən bir həqiqətdir. 2014-cü ilin sonunda açıqlanan rəqəmlərə görə din əsaslı qarşıdurmalarda 280 müsəlman həyatını itirib, 140 min insan da yaşadığı yerindən edilmişdir. Öz vətənlərində istənməyən bu insanlar, Birma vətəndaşı olaraq qəbul edilmədikləri üçün, öz ölkələrindəki təhsil, sağlamlıq xidmətləri, evlənmə və səyahət etmə kimi hüquqlara belə sahib deyildirlər. Məhz bu səbəblə immiqrant statusunda 1 milyon 300 min Rohinca müsəlmanı, Arakan (Rakhine) əyalətinin paytaxtı Sittwe yaxınlarında pis şərtlərə sahib, düşərgələrdə həyatlarını davam etdirmə səyindədirlər. Bu düşərgələrdə doğulan və yaşayan uşaqlar isə, hələ uşaqlıqlarını yaşaya bilmədən bir çox problemlə mübarizə etmək vəziyyətində qalırlar.

Bambuk və qamışdan düzəldilmiş komalardan meydana gələn 12 düşərgədə, çox vaxt ac-susuz olaraq yaşayan və xəstəliklərlə boğuşan Arakanlı uşaqlar, dərmansızlıq və sağlamlıqdan məhrum şərtlərə görə çətin günlər keçirir. Bölgədə tibbi köməyin əsas təmin edicisi olan Sərhəd Tanımayan Həkimlər (MSF) Təşkilatının fəaliyyətinin rəsmi olaraq qadağan edilməsi düşərgələrdə şərtlərin gedərək daha da pisləşməsinə səbəb olur. Kömək edənlərin bölgədən ayrılması ilə, heç bir sağlamlıq xidməti ala bilməyən bölgə xalqının və əlbəttə uşaqların vəziyyəti hər keçən gün daha da pisə gedir. Arakandakı (Rakhine) düşərgələrdə yetərsiz

bəslənmə və sağlamlıq şərtləri səbəbi ilə aclıq və xəstəliklərin gedərək artdığı xəbərləri gəlir.

Arakanlı uşaqlar təməl şərtlərdəki bu düşərgələrdə həyatda qala bilmə mübarizəsi verən ana ataları ilə birlikdə, həyatlarını davam etdirə bilmə əzmindədirlər.

Neylonla bağlanılmış damlar altındakı, tək otaqlı komalarda günə oyanan uşaqlar, hər gün yenilərinin əlavə olunduğu düşərgə xalqı arasında, yenə də uşaqlıq olduqlarına görə hər şeydən xəbərsiz ətrafa gülücüklər paylayırlar. Ən sadə oyuncaqlarla belə tanış olmamış olan bu uşaqlar palçıqdan, paketdən, qutudan hazırladıqları oyuncaqları ilə oynayarkən, yaşadıqları ağır yükün əlbəttə fərqində deyildirlər.

Üstəlik bu uşaqların qarşılaşdıqları çətinliklər ancaq yemək-içmək və sığınacaq problemləri ilə məhdud deyil. Düşərgələrdəki Müsəlmanlar davamlı olaraq radikal buddist qrupları tərəfindən narahat edilirlər və heç bir uşağın məruz qalmaması lazım olan işgəncələri görürlər. Radikal buddist qruplar müsəlman kəndlərinə hücum edib, yağmaladıqdan və ana-atalarını səbəbsiz yerə həbs etdikdən sonra uşaqlara işgəncə edirlər. Bu kiçik canların, əllərini ayaqlarının altından bağlayıb onları orada müdafiəsiz bir şəkildə buraxıb gedirlər. Uşaqlar bu formada ac-susuz və yarı çılpaq bir şəkildə, günlərlə özlərini xilas edəcək birini gözləyirlər. Bəziləri bu ağır işgəncəyə dözə bilmir və kiçik cansız bədənləri palçıqlı torpağın üzərinə düşür.

Dünyanın harasında olursa olsun, bu vəziyyətə heç bir ana-atanın, heç bir insanın səssiz qalmaması lazımdır. İnsanlar rahat, isti, komfortlu evində hüzur içində oturub, uşaqlarını məmnun etmək üçün çalışarkən, dünyanın uzaq bir yerində yüksələn bu uşaq fəryadlarını eşitməməzlikdən gəlməməli. Bir an üçün onların yerində olduqlarını düşünmələri, bu əhəmiyyətsiz hesab etdiklərini dəyişməsi üçün

kifayətdir. Heç kim uşağı ac ikən, xəstəlikdən titrəyərkən, gözünün qarşısında işgəncəyə məruz qalarkən, bu vəziyyətə qarşı səssiz və biganə qala bilməz. Onu xilas etmək üçün lazım olsa öz canını ortaya qoyar. Bax bu səbəblə Arakandakı uşaqların öz uşağı olmaması, onları heç tanımamış olması, heç kimin onlar üçün mübarizə etməkdən saxlamamalıdır.

Dünyanın bu sevgisizlik və mərhəmətsizlik xəstəliyindən tez bir zamanda xilas olmağa ehtiyacı var. Eqoizmin, nifrətin və qarşıdurmaların arxasında da hər zaman qatı bir sevgisizlik və əhəmiyyətsizlik olduğu görülür. Fərqli irq, məzhəb və inancdan olduqları üçün Myanmada yaşanan anlaşılmazlıqların və zülmün arxasında da yenə eyni səbəblər var. Dünya artıq sevgi və ədalətlə hökm edəcək, axan qanı dayandıracaq, insanlara sevgini və qayğını öyrədəcək, onları istiqamətləndirib hərəkətə keçirəcək sevgi sahiblərini gözləyir. Allah ən qısa zamanda insanlığı, sevginin hakim olduğu gözəl günlərə çatdırsın.

FƏSİL 2

# Rohinca xalqı vətənsiz qalmağa məhkumdurmu?

## Rohinca xalqı vətənsiz qalmağa məhkumdur?



2 milyon Arakanlı evlərini tərk etdi, 15.000 məskunlaşma yeri talan edildi, 20.000 qadın təcavüzə uğradı, 300.000 insan şəhid edildi, 330 kənd əhalisi ilə birlikdə yandırıldı.

Bu məqalə, "Burma Times"ta, 28 fevral 2015-ci il tarixində yayımlandı.

Myanma, dünyanın qarşıdurmalarla və insani cinayətlərlə adını eşitdirən bölgələrdən biridir. Bu ölkədən gələn xəbərlər, suların heç cür

dayanmadığını və bölgədə hələ böyük insanlıq dramının yaşandığını göstərir. Burada yaşayan etnik qruplardan biri olan Arakan müsəlmanlarına ya da digər adı ilə Rohinca xalqına istiqamətli ciddi bir vəhşilik tətbiq olunur. Bu vəhşiliyin əsas qaynağı isə etnik və dini ayrı-seçkilikdir. Birləşmiş Millətlər tərəfindən "əziyyət görən dini azlıq" olaraq qəbul edilən müsəlman Rohinca xalqı, 56 milyona yaxınlaşan Myanma əhalisinin 4%-ni meydana gətirir.

Ölkənin qərbindəki Arakan əyalətində düşərgələrdə yaşayan bu xalq indilərdə yeni bir müzakirə mövzusunun hədəfidir. Hökumətin, müsəlman Rohinca xalqının, referendumda səs verməsinə imkan verən qərarı, ölkədə çoxluq təşkil edən buddistlərin etiraz nümayişlərinə səbəb olur. Çünki Rohinca müsəlmanları Myanma vətəndaşı sayılmır, bu səbəblə səs vermələri də istənilmir. Rohinca xalqı çox pis şərtlərdəki düşərgələrdə yaşayır. Bunun səbəbi isə öz ölkələrində qaçqın mövqeyində olmalarıdır.

Rohinca müsəlmanları 1982-ci ildə qəbul edilən qanun ilə bir gündə vətəndaşlıq hüquqlarını tamamilə itirdilər. Bu insanlar, qonşu ölkə Banqladeşdən gələn "qaçaq ya da qeyri-qanuni immiqrantlar" olaraq xarakterizə edilirlər. Myanmada milyonluq əhaliyə sahibdirlər amma öz şəxsiyyətlərini, yəni "Myanma vətəndaşı" olduqlarını isbat edə bilmirlər. Əslində varlar; amma rəsmi olaraq yoxdurlar. Digər tərəfdən sərhəddəki sahil boyu yaşayan Rohinca müsəlmanlarını da, Banqladeş rəhbərliyi öz vətəndaşı olmadığı üçün ölkəsinə qəbul etmir. İki ölkənin də xaric etdiyi Rohinca xalqı, "ölkəsiz insanlar" olaraq həyat mübarizəsi verir. İki ölkənin də rədd etməsi səbəbi ilə Rohinca xalqı rəsmi bir şəxsiyyət vəsiqəsinə, bu səbəbdən hər hansı bir vətəndaşlıq hüququna sahib ola bilmir.

## Ən fundamental vətəndaşlıq hüquqları Rohincalılar üçün bir xəyaldan ibarətdir

Myanma dörd il əvvəl hərbi idarəetmədən demokratiyaya keçdi. Fevral 2011-ci ildən etibarən iqtidarda olan dövlət başçısı Thein Sein rəhbərliyindəki hökumət, demokratikləşmə yolunda bəzi addımlar atdı. Çox sayda siyasi məhkumun sərbəst qalmasına, etnik qruplarla atəşkəs imzalanmasına, mətbuat azadlığının genişlədilməsinə və yoxlama qanunlarının yüngülləşdirilməsinə baxmayaraq, Myanma hələ müsəlman Rohinca xalqına tətbiq olunan insan haqları pozuntuları, dini azlıqlara tətbiq olunan ayrı-seçkilər ilə dünya ictimaiyyətin diqqətini çəkir.

Sivil hökumətin iqtidara gəlməsi Rohinca xalqının həyatında bir dəyişikliyə səbəb olmadı. Yeni hökumət, din əsaslı qarşıdurmalarda müsəlmanların həyatını itirməsinə, yüzlərlə ev və iş yerinin atəşə verilməsinə və bu qarşıdurmalar səbəbi ilə 250 min insanın evlərini tərk etməsinə maneə ola bilmədi. Üstəlik Rohinca xalqına, bir insanın ən fundamental hüquqlarından biri olan vətəndaş olma hüququnu tanımadı.

Vətənsiz və sahibsiz olmanın acısını yaşayan Myanma müsəlmanları, bu gün öz evlərində deyil, Arakan əyalətində təcrid düşərgələrinə həbs edilmiş olaraq yaşayırlar. Təhsil, səhiyyə kimi ictimai haqlardan və ictimai xidmətlərindən faydalana bilmirlər. Xəstə olurlar amma xəstəxanalara qəbul edilmirlər, işsiz qalırlar amma dövlət dairələrində işləyə bilmirlər. Təhsil imkanları olmadığı üçün oxuma-yazma bilməyənlərin nisbəti 80%-dir. Uşaqlarına doğum haqqında şəhadətnamə belə ala bilmirlər. Evlənmə icazələri yoxdur. Mal, mülk və torpaq sahibi ola bilmirlər. Betondan ev tikmə icazələri yoxdur, ancaq bambukdan ya da taxtadan komalarda yaşaya bilirlər, bunlar da asanlıqla dağılır. Bir çox

insanın fərqinə varmadığı, nemət olduğunu belə düşünmədiyi vətəndaşlıq hüquqları, Rohinca xalqı üçün hələlik ancaq bir xəyaldır.



Dünyanın uzaq bir yerində yaşayan bu günahsız insanların qarşı-qarşıya olduqları dəhşət verici zülm dünya tərəfindən görməzlikdən gəlinir.

## Arakan əyalətindəki etnik təmizlik və təcridetmə düşərgələri

Əlbəttə bütün bu edilənlər məqsədli şəkildə etnik təmizlikdir. Bu etnik təmizliyin son tətbiqlərindən biri də Arakan müsəlmanlarının vətəndaş olma hüququnu əldə edə bilmələri üçün özlərini "Benqallı" olaraq tanıtmaları şərtidir. Beləcə Arakan müsəlmanlarının şəxsiyyəti yox edilməyə çalışılır. Bu şəxsiyyəti qəbul etməyənlər isə "təcridetmə düşərgələrinə" göndərilərək cəzalandırılır.

Hal-hazırda isə Myanma hökuməti, immiqrant sayılan 1,5 milyon Arakan müsəlmanına müvəqqəti vətəndaşlıq haqqı tanıdığını bildirdi və hazırlanan referendum qanununda səs vermə hüququna icazə verdi. Ancaq bu da yenə etnik təmizlik məqsədi istiqamətində hazırlanmış çox incə bir plan idi. Çünki əslində yenə bu insanları vətəndaş olaraq tanımır, sadəcə immiqrant sayılanlara verilən ağ kart ilə səs istifadə etdirirdilər. Bu şəkildə onlara immiqrant olduqlarını qəbul etdirməyə çalışarkən, dünyaya da "biz demokratik bir ölkəyik" imici verilməyə çalışılırdı.

Üstəlik müvəqqəti verilən bu hüquq belə, ölkədə müsəlman xalqa qarşı edilən ayrı-seçkiliyi qızışdırmağa bəs etdi. Myanmalı buddistlər müsəlman Arakanlıların müvəqqəti belə olsa səs vermələrinə reaksiya verdi və küçələrdə mitinqlərə başladılar. Bütün bunlar, Arakan müsəlmanlarının hələ də, həm şiddət hadisələrinə, həm də qanuni, iqtisadi və ictimai ayrı-seçkiliyə məruz qaldıqlarını açıqca ortaya qoyur.



Arakanlı məzlumlara qarşılıqsız olaraq kömək edən həkimlərin də vəzifələrinə son verildi. Dünyanın qabaqcıl insani yardım təşkilatlarından biri olan və bir milyondan çox insana sağlamlıq xidməti aparan sərhəd tanımayan həkimlər Arakandan deportasiya edildilər.

## Fərqli irq və millətlərin varlığı mədəni zənginlikdir

Myanma rəhbərliyi, xalqını və müsəlman vətəndaşlarını təzyiq altında tutmaqla çox səhv siyasət izləyir. Bir cəmiyyətdə fərqli irq və millətlərin olmasının məqsədi, qarşıdurma və müharibə deyil, mədəni bir zənginlikdir. Bu müxtəliflik Allahın yaradışındakı bir gözəllikdir. İslam dini isə onsuz da sülh və sevgi dinidir. Bu səbəblə Myanmadakı müsəlman qardaşlarımızın dindarlıqları, Qurana bağlılıqları, Peyğəmbərimizə (s.ə.v) olan sədaqətləri Myanma üçün bir nemət və gözəllikdir. Müsəlman olmaq fədakarlığı, sadiqliyi, etidallı, çalışqan, vətəninə və millətinə bağlı olmağı tələb edir. Bu səbəbdən bu bacı və qardaşlarımızın Myanma dövlətinə heç bir zərərləri olmaz, tam əksinə onlar itaətli və hörmətli rəftarları ilə ölkələrinə dəstək olmuş olarlar. Bu səbəblə Myanma rəhbərliyinin müsəlmanlardan narahat olmasını tələb edəcək bir vəziyyət yoxdur.

Myanma dünyanın müasir və demokratik ölkələri arasında yer almaq istəyirsə, heç bir gücü olmayan, heç kimə zərər verməyən məzlum müsəlmanları əzib təzyiq altına almaq yerinə, onları azad vətəndaş olaraq tanımalı, dinlərini və həyatlarını azad şəkildə yaşamalarına icazə verməlidir. Myanma 21-ci əsrin müasir dövlətlərindən biri olaraq xatırlanmaq istəyirsə, təzyiq və şiddət yerinə demokratiya və insan hüquqlarını ön plana alan bir sistemi mənimsəməlidir. Bütün Myanma xalqının özlədiyi hüzur və sabitliyin açarı budur.



Nigeriyada qaçırılan 200-dən çox qız uşağı üçün edilən nümayişlərdə istifadə edilən "Qızlarımızı gözləyirik", "Qızlarımızı geri gətirin" bənzəri plakatlara nümunələr.

**“Myanmadakı müsəlmanlara tətbiq olunan zülm dayanmalıdır, bu mövzuda hər kəs səlahiyyətlilərə məktub yazsın.”**

Adnan Oktar: Bir tamaşaçımız belə yazıb: “Adnan Oktarın Birmadakı bacı və qardaşlarımızın yaşadığı ağır zülmə son verilməsi üçün bir çözüm axtarmaq məqsədi ilə General Than Shwe ya da Birma Myanma xunta lideri ilə əlaqəyə keçməsi üçün xahiş etməyinizi təcili şəkildə xahiş edirəm.”

Burada səfirlikləri var bunların Türkiyədə?

Aparıcı: “Bizə kömək edin” deyə plakat yazıblar hocam.

Adnan Oktar: Bu vicdansızlığa son verilsin. Obama ilə də danışmaq lazımdır. Məktub yazın Obamaya. Bu fotoşəkilləri göndərin... Obamaya da, Avropa Birliyinə də, onlara da bu mövzunu açıqlayaq. Fotoşəkilləri də göndərin. Bu qanı kəssinlər, bunu dayandırsınlar...

Aparıcı: Ankarada fəxri konsolluqları var imiş.

Adnan Oktar: Xahiş edərək “bu rüsvayçılıq dayansın” deyərsiniz.

Hər kəs məktub yazsın, bizi seyr edənlər də. Birləşmiş Millətlərə, Amerikaya, “bu zülm dayansın” desinlər. Su kimi qan axıdılır. Obamaya yazaq, Avropa Birliyinə yazaq. (26 iyul 2010, Adıyaman Asu TV və HarunYahya.TV)

3 FƏSİL

# Rohinca müsəlmanları öz yurdlarından sürgün edilir

Rohinca müsəlmanları öz yurdlarından sürgün edilir



Nifrət səbəbi ilə işlənilən cinayətlər dünya səviyyəsində artır. Sosial media doğru istifadə edilsə bəlkə bu problemə də çözüm ola bilər.

Bu məqalə, "Burma Times"da, 20 mart 2015-ci il tarixində yayımlanmışdır.

Rohincalı müsəlmanlar əsrlərdir ki, Myanmada, Arakan da daxil olan bir bölgədə yaşayırlar. Tarix də göstərir ki, bu torpaqlar onlara aiddir. Lakin bu məzlum xalqa öz məmləkətlərində təzyiq göstərilir, vəhşicəsinə işgəncələr verilir və sürgün edilirlər. Bu dünyanın məhəl qoymadığı açıq-aşkar soyqırımdır. Lakin gündən-günə şiddətlənən qəddar üsullarla törədilən insanlıq cinayətini görməmək mümkün deyil. Çünki hal-hazırda məlumat əldə etmək çox asandır. İnternet böyük bir universitetə bərabərdir. Buna görə də Myanmada yaşayan rohincalı müsəlmanların tarixi və bu torpaqlarda çəkdikləri zülm haqqında məlumat əldə etmək heç də çətin deyil.

İslam Uzaq Şərq ərazisi və Birma (Myanma) sərhədində yerləşən Arakan torpaqlarına 8-ci əsrdən etibarən bölgəyə səyahət edən müsəlmanlar vasitəsi ilə yayıldı və 1203-cü ildə Benqalın müsəlman olması ilə Arakan tamamilə İslam idarəsi altına keçdi. Bölgənin müsəlmanlar tərəfindən fəth edildiyi 1430-1638-ci illər arasında bir neçəsi istisna olmaqla bütün hökmdarlar İslamı seçdilər. Buna görə də Arakanda məskunlaşmış müsəlmanlar bu tarixdən etibarən bu torpaqlarda yaşayan Benqal kralı Sultan Cəlaləddin Məhəmməd Şah tərəfindən taxta çıxarılan Süleyman Şahın nəvələridir.

## Arakan torpaqlarının həqiqi sahibləri Rohinca müsəlmanlarıdır

Tarixin də təsdiqlədiyi kimi, hal-hazırda öz vətənlərində zülmə məruz qalan, kəndləri və evləri yandırılan, anaları, qızları işgəncə görən, kişiləri qətlə yetirilən rohincalı müsəlmanlar yaşadıqları torpaqların həqiqi sahibləridir. Bundan başqa müsəlmanlar Arakan cəmiyyətinin siyasi və ictimai həyatında 350 ildən çox dövlət idarəsində əhəmiyyətli vəzifələr yerinə yetirmişlər, hətta baş vəzir, katib, icra hakimi, qazi, orduda generallıq, nazirlik kimi yüksək rütbəli vəzifələri idarə ediblər.

Lakin Arakanın müsəlman sultanlarından II Səlim Şahın 1638-ci ildə bir intriqa nəticəsində öldürülməsi ilə imperatorluq zəifləməyə və məhv olmağa başladı. 1784-cü ildən sonra Birmanın işğalı ilə bölgədə yaşayan müsəlmanlar böyük bir zülmə və təzyiqə məruz qaldılar. Əksəriyyəti ingilislərin nəzarətində olan Benqala sığınmalı oldular. İngiltərə Şərqi Hindistan şirkətinin qeydlərinə görə 1799-cu ildə 35 min arakanlı müsəlman birmalıların törətdiyi vəhşiliklərə görə öz ölkələrini tərk etdilər. Qeydlərdə bu ifadələr yer alır:

“...Arakanın işğalından bir gün sonra Birmalılar 40 min insanı qətlə yetirdi; gözəl bir qadın gördükdə əvvəlcə ərini öldürür, sonra onu ələ keçirirdilər; gənc qızlar ailələrindən zorla alınırdı; bu kasıb insanların sahib olduğu hər şey əllərindən alındı.”

Birmalıların zorakılığına görə müsəlmanların bir hissəsi ölkələrini tərk edərək Hindistana köçməyə məcbur oldular.




Suriyada, Mərkəzi Afrika Respublikasında, İraq, Arakan, Pakistan, Əfqanıstan, Yəmən və daha bir çox ölkədə müsəlmanlar hüquqlarından məhrumdurlar və zülm altında yaşayırlar.

## Arakandakı müsəlman nüfuzu təbəqə-təbəqə yox edilməyə çalışılır

1824-cü ildə bölgədə hakim olan ingilislərin geri çəkilməsindən qısa bir müddət sonra müsəlmanlara qarşı hücumlar çox ciddi bir şəkildə artdı. İkinci Dünya Müharibəsi və Yapon işğalı ərəfəsində müsəlmanlara qarşı zorakılığın artması nəticəsində 1942-ci ildə Minbya qəsəbəsinə aid olan Çanbilli kəndində müsəlman qadın, kişi və uşaqlar qılınc və nizələrlə vəhşicəsinə qətlə yetirildi. Qətliamdan sonra bölgə talan edildi, müsəlmanlara aid bütün qızıl, gümüş və dəyərli əşyalar ələ keçirildi, heyvanları əllərindən alındı. Kənddə başlayan və bütün Arakana yayılan hücumlarda 307 müsəlman kəndi xəritədən silindi, 100 mindən çox müsəlman şəhid edildi və 80 minə qədər müsəlman isə yurd-yuvalarından qovuldu. Əsas olaraq, 1948-ci ildə isə Birmanın müstəqillik qazanması ilə müsəlmanların hərəkətlərinə tamamilə məhdudiyyətlər qoyuldu. Bütün olanlarda məqsəd Arakandakı müsəlman əhalini yox etmək idi. 1962-ci il inqilabı ilə hərbi rejim müsəlmanları şəxsiyyət olaraq rədd etdi, təbliğatla əcnəbi kimi göstərilməyə başlandı, məmur və polis vəzifələrindən alındılar və Arakan əyalətində səyahət azadlıqlarının da qarşısı alındı.

Arakan torpaqlarının əsl sahibləri olan müsəlmanlar 1990-cı ildən sonra da çətin şərtlər altında yaşamağa davam edirdilər. Əhali sayının azaldılması üçün sistemli şəkildə təzyiq göstərilir, yerli idarələrin ürəyi istədiyi kimi vergi qoymasına görə kənd təsərrüfatı və heyvandarlıqla məşğul ola bilmirlər, torpaqları özəlləşdirilir, bundan başqa həbslər, işgəncə, məscidlərin və qəbirstanlıqların dağıdılması, “qadınların inkişafı” adı altında gənc müsəlman qızların evlərindən qaçırılmaları və işgəncələr, təhsil hüquqlarının əllərindən alınması bu məsum xalqa tətbiq edilən zülmün yalnızca ümumi bir tərifi ola bilər.



Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir. (Ənfal surəsi, 46)

Rohincalı müsəlmanlar öz torpaqlarından sürgün edildilər və etibarlı hesab etdikləri digər ölkələrə köç etməyə məcbur edildilər. Bu gün bu torpaqların əsl sahibləri evlərini, kök saldıqları yurdlarını, mədəniyyətlərini, tarixlərini tərk edərək qonşu ölkələrə sığınır və ən çətin vəziyyətlərdə canlarını qurtarmağa çalışırlar. Birmada 240 mindən çox müsəlman ölkə daxilində qaçqın kimi yaşayır və ölkədə yaşayan 810 mindən çox müsəlmana isə vətəndaşlıq hüququ verilmir. Ölkənin Tailand sərhədində 120 min qaçqın yaşayır. Bundan başqa hal-hazırda Pakistan, Səudiyyə Ərəbistanı, Malayziya, Tailand, Banqladeş və bəzi Avropa ölkələrində yüz minlərlə rohincalı müsəlman qaçqın statusu ilə yaşayır. Təkcə Banqladeşdə 1,5 milyon rohincalı müsəlman aclıq içində meşələrdə və dərələrdə yaşamağa çalışırlar.

Bütün dünya qəzetlərdə oxuduqları, televizorda izlədikləri, internet səhifələrindən demək olar ki, hər gün xəbərdar olduqları bu insanlıq cinayətinə qarşı səs çıxartmırlar. Dünyanın qərb yarımkürəsindəki inkişaf etmiş ölkələrdə baş verən insanlıq cinayəti və hücumlar böyük bir

təsir yaratdığı halda, rohincalı müsəlmanların çəkdikləri zülm insanlarda eyni təsiri yarada bilmir. İnsanlar öz coğrafi bölgələrindən uzaq, Qərbin müasir həyat tərzini görmədikləri, etnik mənşələrinin fərqli olması səbəbi ilə sözdə “ikinci sinif” kimi gördükləri bu məzlum xalqa materialist dünya görüşləri səbəbindən heç əhəmiyyət vermirlər.

Lakin dünyanın harasında olursa olsun, vicdanlı və qəlbi daşlaşmamış hər bir insan məzlumların haqqını qorumaq, ədaləti bərpa etmək və dünyadakı zülmü aradan qaldırmaq üçün cəhd etməklə məsuliyyət daşıyır.

Unudulmamalıdır ki, ictimai mediada yazılan bir cümlə, paylaşılan bir məqalə, toplantıda deyilən bir söz və ya insanların bu açıq-aşkar zülm haqqında xəbərdar edilmələri və ictimaiyyətin zorakı rejimlərə, qəddarlara və zalımlara qarşı birləşməsi üçün atılan hər addım bu və buna bənzər digər insanlıq cinayətlərinin dayandırılması və qarşısının alınması üçün bir sədd yaradacaqdır.

FƏSİL 4

# Fərqliliklər zənginlik halına gətirilə bilər




Ey Rəbbim! Məni, valideynlərimi, evimə mömin kimi daxil olanları və bütün mömin kişi və qadınları bağışla! Zülmkarların isə ancaq həlakını artır". (Nuh surəsi, 28)



Macarıstan parlamenti sığınmacılara qarşı öldürücü olmayan silahların istifadə edilməsinə icazə verən qanunu qəbul etdikdən sonra polis, sığınmacılara şiddət tətbiq etməkdən çəkinmir.

Bu məqalə “Burma Times” xəbər saytında 25 may 2014-cü il tarixində yayımlanmışdır.

Dünyada müxtəlif məqsədlərlə qurulmuş çox sayda quruluş var və bu birliklərə dünyadakı bir-birindən fərqli ölkələr üzv olubdur.

Coğrafi mövqe və ya müdafiə etmə, ticarət və ya siyasi ortaqlıq kimi məqsədlərlə ölkələr asanlıqla bir araya gələ bilirlər.

İslam Əməkdaşlıq Təşkilatı, Dünya Ticarət Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, UNESCO, Avropa Birliyi, Şanxay Təşkilatı, Birləşmiş Millətlər, Dünya Sağlamlıq Təşkilatı, NATO kimi bir çox beynəlxalq quruluşa üzv olan ölkələr ortaq mənfəətlər və ehtiyaclar istiqamətində birlikdə hərəkət edə bilir.

Sülh və torpaq bütünlüyünü qorumaq, ticarəti inkişaf etdirmək, xalqın təhsilini təmin etmək, siyasi müstəqillik və təhlükəsizliyi meydana gətirmək ya da insani yardımlarda yer almaq bu təşkilatlarla məqsəd qoyulan ortaq mənfəətlərdən bəziləridir. Lakin illərdir davam edən aclıq, vətəndaş müharibələri, iqtisadi çətinliklər bütün bu təşkilatların vəzifələrini əslində tam olaraq yerinə gətirə bilmədiyini bizə göstərir.

Vəziyyət belə ikən heç kim belə təşkilatlar yaratmasınlar demir. İndiyə qədər bu kimi təşkilatlarla məqsədə tam olaraq çata bilməmiş də olsa, bu yenilərinin qurulmasına mane olmur. Çox dəqiq nəticə alınmasa da bir çox fərqli bölgədə, bir çox fərqli quruluş, ortaq çıxarlar istiqamətində fəaliyyətlər icra edir, görüşmələr reallaşdırır. “Heç yoxdan yaxşı” olaraq xarakterizə edilə biləcək bu işlər bizə dəqiq bir həqiqəti göstərir.

Əməkdaşlıq hər kəs üçün bir məcburiyyətdir, əksi yəni mübahisə və anlaşılmazlıq isə gücü zəiflədən, müvəffəqiyyəti aradan qaldıran səbəblərdir. Birlik ortaq məqsədlərə çatmağı asanlaşdıran bir vəsilədir.

Qurana görə "bacı-qardaş" olan müsəlmanların birlik olmaları, dağılmamaları, ayrılıqdan və parçalanmaqdan uzaq olmaları fərzdir.

> *Şübhəsiz ki, Allah möhkəm bir divar kimi səf-səf düzülüb Onun yolunda vuruşanları sevir.*
>
> **(Saff surəsi, 4)**

Bunun üçün də ediləcəklər açıqdır. Ayələrə görə Müsəlmanların,

Öz bacı və qardaşları kimi sevgi və şəfqətlə bir-birlərinə bağlı olmaları,

Çəkişib mübahisə etməmələri,

Bir-birlərinin vəliləri və dostları olmaları,

Bir-birlərinə hər şərtdə qoruyub nəzarət etmələri,

Bir-birləri ilə müşavirə halında olmaları,

Bir-birlərinə birləşmiş möhkəm divar kimi səf halında inkara qarşı elmi mübarizə etmələri fərzdir.

Bütün bunların tam tərsi, yəni;

Birləşdirici deyil, ayrı-seçici olmaq,

Müsəlmanların arasını ayırmaq,

Anlaşılmazlıqları yatırmaq yerinə alovlandırmaq,

Müsəlman bacı və qardaşlarına sevgi və şəfqətlə yaxınlaşmamaq,

Bağışlayıcı, qoruyucu və nəzarət edici olmamaq,

İnkara qarşı verilən elmi mübarizədə müsəlmanlara kömək etməmək isə haramdır.

İslam əxlaqının gərəyi, bütün fərqliliklərə baxmayaraq müsəlmanların bir-birlərinin bacı və qardaşları olduqları həqiqətini unutmamalarıdır. İnananların irq, dil, məzhəb ayrı-seçkisinə sahib olmaları ya da fərqli ölkələrdə yaşamaları bu bacı və qardaşlığı poza bilməz.

Arakandakı, Fələstindəki, Amerikadakı, Hindistandakı, Türkiyədəki ya da Afrikadakı bir müsəlman, hər zaman tək bir ürək kimi hərəkət edər. Məsələn Şərqi Türkistanda yaşanan zülmü izah edər və onlara dəstək olar, Əfqanıstanda reallaşan bir zəlzələyə ilkin yardım göndərər. Suriyada bombaların altında qalan uşaqların səsini dünyaya çatdırmağa çalışar. Arakandakı yetimləri düşünər, onlar üçün kömək fəaliyyətləri başladar. Bunları edərkən də hansı məzhəbdən olduqlarını düşünməz ya da dillərinin fərqli olması onun üçün bir problem meydana gətirməz.

Fərqliliklər gözəllikdir, zənginlikdir və heç bir zaman üçün qarşıdurma səbəbi halına gətirilməməlidir. Müsəlmanlar təcili olana, yəni ortaq şəkildə hərəkət etməyə yönəlməli və ayrılıq çıxarmağa çalışanlara da heç bir şəkildə haqq verməməlidirlər.

> *Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır.*
>
> **(Hucurat surəsi, 13)**

Ayrılıqlar və fərqliliklər əhəmiyyətsiz görülər və qardaşlıq vurğusu əsas götürülərsə, bu inşaAllah dünyanın hüzuruna vəsilə olacaq yolları da

açacaqdır.

FƏSİL 5

# Ya bu dünyada yaşayacaq bir qarış torpağınız olmasaydı?

## Birdən bu dünyada yaşayacaq bir qarış torpağınız olmasaydı?



Avropaya doğru Balkan ərazilərində irəliləməyə davam edən immiqrant və mühacirlər, pisləşən hava şərtlərinin də təsiri ilə olduqca çətin vəziyyətdədirlər. Bir çox Avropa ölkəsi isə bu yorğun və əldən düşən, səfalət içindəki məzlumlara sərhədlərini bağladı.

Bu məqalə "Burma Times" xəbər saytında, 1 iyun 2015-ci il tarixində yayımlanmışdır.

Son bir neçə həftədir bütün dünyanın gözü önündə insanlıq faciəsi yaşanır. Mövzu yenə qaçqınlar, yenə Arakan və yenə ölümə tərk edilən minlərlə müdafiəsiz, məzlum insandır. Myanma və Banqladeşdən qaçan, aralarında arakanlı müsəlmanların da olduğu 8 mindən çox qaçqın Cənub-Şərqi Asiya sularında Tailand, İndoneziya və Malayziyaya daxil ola bilmək üçün dənizdə gözlədilir. Günlərlə ac və susuz qalan bu insanların bir hissəsi İndoneziyadakı müvəqqəti düşərgələrdə və Malayziyadakı idman zallarında saxlanılır. Dənizdə gözləyən minlərlə köçkün isə aclıq və xəstəlik təhlükəsi ilə qarşı-qarşıyadır.

Bir anlıq özünüzü bu insanların yerinə qoyun. Vətən dediyiniz torpaqlarda vətəndaşlıq hüququna malik deyilsiniz. Öz doğulduğunuz torpaqlarda qaçqın kimi düşərgələrdə yaşamaq məcburiyyətindəsiniz. Uşağınızı məktəbə göndərə bilmirsiniz. Qızlarınıza, həyat yoldaşınıza hər an təcavüz edilə bilər, amma onları qoruya bilmirsiniz. Evlənmək üçün və ya doğulan hər uşağınız üçün vergi vermək məcburiyyətindəsiniz. Xəstələndiyinizdə müalicə ala bilmirsiniz. Sırf müsəlman olduğunuz üçün zülm görür, həbsə atılır, öldürülürsünüz. Onların yerində siz olsanız, nə edərdiniz? Əlbəttə ki, qurtuluşu başqa ölkəyə sığınmaqda görərdiniz, orada həm ailənizə, həm də özünüzə normal şərait tapmağa çalışardınız.

Bəs yoxsulluq içərisində, min cür əziyyətlə yığdığınız pulu bu zülmdən xilas olmaq üçün insan alverçilərinə verib, mindiyiniz gəmi dənizin ortasında tərk edilsəydi, nə edərdiniz? Ətrafınız sularla əhatə olunub, amma bir damcı su içə bilmirsiniz. Yeməyiniz də yoxdur. Gecə vahiməli okean dalğaları, gündüz qızmar günəş şüaları ilə mübarizə aparsaydınız, insanla dolu gəmilərin batmaması üçün hərəkət etmədən günlərlə okeanda qalsaydınız, nə edərdiniz? Artıq ölümə yaxınlaşdım deyərkən qurunu görsəniz “xilas olduq” ümidi ilə qəlbiniz sevinclə dolduqda “sizi qəbul edə bilmərik” deyilsə, nə edərdiniz? Arakanlı müsəlmanların məruz qaldıqları vəziyyət eynilə bu şəkildədir...

## Arakandakı cinayətlərə ortaq olmaq

Dünyada ucsuz-bucaqsız torpaqlar bomboş qalıb, amma bütün dünya bu bir ovuc insanı yerləşdirəcək bir yer tapa bilmir. Daha da acınacaqlısı bu insanlara zooparkdakı canlılara verilən tərzdə vertolyotdan qida və yardım ləvazimatlarının atılmasıdır. Günlərdir ac və susuz qalan insanlar ərzağı götürmək üçün soyuq suyun içinə girməlidirlər. Gəmiləri batarkən xilas olunan və İndeneziyanın Lanqsa limanındakı ambarlarda qalmalarına izin verilən köçkünlər bir tikə yemək üçün bir-biri ilə mübarizə aparır. Bu utancverici yarışın nəticəsində isə 100 nəfər həyatını itirir.

Bu hansı tərəfdən baxılırsa-baxılsın, insanın içini titrədən bir vəziyyətdir. Artıq dünyanın bu vəziyyətə dur deməsi və bir həll yolu axtarıb tapmasının vaxtı gəlmədi? Malayziya və Tailandın irəli sürdüyü kimi, “arakanlı müsəlmanları gəldikləri yerə göndərəlim” demək həll yolu ola bilərmi? Əlbəttə ki, yox. Əksinə bu düşüncə tərzi onları ölümə göndərmək mənasını verir. Heç kim belə bir cinayətə ortaq olmamalıdır. Əslində geri göndərmək əvəzinə bu insanlara boş ərazi versələr, əkəcək torpaq və bəsləyəcək heyvanları olsa, heç kimə yük olmadan həmişə yaşadıqları kimi səssiz şəkildə həyatlarını davam etdirə bilərlər.



..."Ey Rəbbimiz! Bizi və bizdən əvvəl iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhmlisən!" (Həşr surəsi, 10)

## Dünya Arakandakı zülmə niyə səssiz qalır?

Hər hansı bir ölkədə insan hüquq və azadlıqları məhdudlaşdırıldıqda bir çox Qərb ölkəsi bu vəziyyətə sərt reaksiya verir. Ancaq çox acınacaqlı vəziyyətdə olan arakanlı müsəlmanlar üçün elə bir səy göstərdiklərini görmürük.

Təbiətə hər hansı bir zərər dəydikdə dünyanı ayağa qaldıran, bir delfin sahilə çıxsa, onu xilas etmək üçün hər bir texniki imkandan istifadə edən, yaşıllığı qorumaq üçün maksimum dərəcədə həssas olan Söhbət insan həyatından getdikdə isə Qərb ictimaiyyəti daha həssas və vicdanlı hərəkət etməlidir. Birma kimi ölkələrdəki zalım rəhbərlər əgər dünya ictimaiyyətdən siyasi və ya ictimai təzyiq görməsələr, zülm və təzyiqlərini daha da artıracaqlar. Buna ilk mərhələdə əngəl olmanın yolu hər kəsi baş verənlər barədə məlumatlandırmaqdır. Dünya ictimaiyyətinin vicdanını ön plana çıxaran, zülmləri hər kəsə ətraflı və obyektiv şəkildə izah edən bir fəaliyyətin Qərb ictimaiyyətini hərəkətə keçirə biləcəyi və bunun da (Myanma) Birma kimi rejimləri çox narahat edəcəyi ortadadır.



NLD-nin lideri Aung San Suu Kyi

## Zülmə hər zaman birlikdə "dur" deyilməlidir

İslam dünyası da Arakan probleminin həlli üçün birlik ruhu içində ciddi səy göstərməlidir. Qardaşlarının göz görə-görə həyatını itirməsini heç bir müsəlman qəbul edə bilməz. İslam ölkələri bu məsələyə həssas yanaşmalı və bu insanlıq faciəsinin dərhal aradan qaldırılması üçün (Myanma) Birma rəhbərliyinə təzyiq göstərməlidirlər. İran, Türkiyə, Pakistan, Misir kimi ölkələrin birləşmiş donanma ilə Cənub-Şərqi Asiya sularına doğru yola çıxması (Myanma) Birma hökuməti üçün çəkindirici ola bilər. Belə ki, ötən günlərdə (Myanma) Birma hərbi təyyarəsindən düşən bombanın dörd nəfər çinlinin ölümünə səbəb olmasından sonra Çin "həmin hadisə təkrarlanacağı təqdirdə Myanmaya sərt hərbi müdaxilə edəcəyini" açıqlaması çox çəkindirici olmuşdu.

Arakanlı müsəlmanlara Myanma rəhbərliyinin sərt davranmasının səbəbi də məhz budur. Heç kim bu zülmə dur demir, heç kim arakanlı müsəlmanlara dəstək olmur. Müsəlmanlardan çəkindirici reaksiya görmədikləri üçün bu məzlum insanları incitməkdən çəkinmirlər. Bu səbəblə müsəlman ölkələrin, Arakanlı bacı və qardaşlarımıza sahib çıxmaları və Myanma rəhbərliyi üzərində siyasi, iqtisadi və ictimai təzyiq tətbiqləri olduqca təsirli olacaq.

Müsəlman ölkələrin başçılığı ilə qaçqınlara humanitar yardım çatdırılması və xəstələrin oradan çıxarılaraq çox yaxşı qulluq ediləcəkləri xəstəxanalara yerləşdirilmələri lazımdır. Əks təqdirdə ölənlərin sayı daha da artacaq.

Eyni şəkildə əlbəttə ki, Qərb ölkələrinin də Birma hökumətindən oradakı məzlum insanların xilas olmasına səbəb olacaq işlər görməsini istəməsi çox önəmlidir.

Arakan problemi əsla regional məsələ olaraq görülməməlidir. Məzlum insanların ac, susuz, dərmansız, yaşamağa bir qarış torpaq sahəsi tapa bilməmələrini heç bir vicdan qəbul edə bilməz. Dünyanın hər hansı bir bölgəsində zəlzələ və yaxud sel kimi təbii fəlakət baş verdikdə hər ölkə əlindəki imkanlarla zərərçəkənlərə kömək edir. Bunun nümunələrini keçmişdə dəfələrlə gördük. Hətta münasibətləri soyuq olan ölkələr belə oxşar hadisə baş verdikdə bir-birlərinə kömək əli uzadırlar. Deməli insanlar və dövlətlər istədikləri zaman bu dəstəyi verə bilirlər. İndi belə bir yardımlaşma və dəstəyin edilməsinin tam zamanıdır.


Ölümden böyle kaçtılar
1

Ölüme mahkum bir halk:
Arakan Müslümanları
Güneydoğu Asya'da bulunan Myanmar'ın Arakan bölgesinde yaşayan Müslümanlara yönelik şiddet sürüyor. Türkiye'ye üniversite eğitimi için gelen Arakanlı Ömer Tarık, Myanmar'da yaşananları anlattı
2

25 Temmuz 2012 Star
Bizi tarihten silmek istiyorlar
Sürgündeki Arakan lideri Hacı Samir, Star'la röportajında "Myanmar'da Müslümanlığın bedelini çok ağır ödüyoruz. Banglades kamplarında ise çocuklar 7 yaşını göremiyor. Ama bir gün zulüm bu toprakları terk edecek" dedi.
İngilizler büyük kaos bıraktı
TÜRKLER SESİMİZİ DUYURSUN
3

ARAKANLI ÇOCUKLAR YAPRAKLA BESLENİYOR
Minik Nurbahar etrafta bulunan ağacın iğne yapraklarını tek tek yolarak yemeye başlıyor. Yaşanan dramı yansıtan bu tablo karşısında etkilenmemek mümkün değil. Sözün bittiği noktada sadece buruk bir acıyla bakakalmaktan başka bir şey yapamıyorum.
ANNELER DRAMLARINI ANLATTI
Öldürdüler şimdi de topluca tutukluyorlar
4

Rohinca müsəlmanları ilə buddistlər arasında çıxan qarşıdurmalarda bir çox insan həyatını itirir.
Həddindən artıq milliyyətçi buddist qruplar öz uşaqlarına belə müsəlman düşmənçiliyi öyrədirlər.

İnsanlar, təşkilatlar, dövlətlər birlikdə səslərini yüksəltdikcə Birma rəhbərliyi dərhal geri addım ataraq ya arakanlı müsəlmanlar üzərindəki təzyiqi aradan qaldırıb onlara vətəndaşlıq statusu verəcək ya da təzyiqini

azaldacaq. Bu ictimai rəyin formalaşması üçün lazımi məsuliyyəti almaq və həssaslığı göstərmək hamımızın üzərinə düşən insanlıq borcudur.

FƏSİL 6

# Rohinca böhranı deyil, insanlıq böhranı

## Rohinca böhranı deyil, insanlıq böhranıdır



BMT İnsan Hüquqları Şurası, Soyqırımı (1994 Ruanda qərarı), Etnik təmizliyi (1991 İraq qərarı), Yüksək mal və can itkinlərini (1992 Somali qərarı), Yüksək vətəndaş itkinləri (1994 Ruanda qərarı), Məşhur insan hüquqları pozuntularını (1993 Haiti qərarı), İrq ayrı-seçkiliyini (1977 Cənubi Afrika qərarı) “beynəlxalq sülhü təhdid” olaraq qəbul edər və bütün bunların hamısı Myanmada yaşanmaqdadır.

Bu məqalə, “Tehran Times” qazetində, 24 may 2015-ci il tarixində və “Burma Times” xəbər saytında, 5 iyun 2015-ci il tarixində yayımlanmışdır.

“Gəmiyə mindim, çünki gedəcək başqa yerim yox idi. Geridə nə bir evim, nə də başqa şeyim vardı. Arakanlılar anamı və bütün qohumlarımızı öldürdülər. Kəndlilər Malayziyaya gedəcəklərini söyləyəndə mən də onlarla getməyə qərar verdim”

Bu sözləri Andaman dənizində gəmi ilə səfər edən Rohinca müsəlmanlarından bir qadın söyləyir. Əslində qadının bir neçə cümlə ilə açıqladığı bu qorxunc mənzərə vicdanın qəbul etmədiyi səfaləti izah edir.

Əlbəttə heç kim açıq dənizin ortasında bir gəmi içərisində ölümə getmək istəməz. Ancaq bu qadın əsrlərdir atalarının yaşadığı bir ölkədə olmasına

baxmayaraq, vətəndaşlıq və səs vermə hüququ olmadan həyatını davam etdirən azlığın mənsubudur. Heç bir mədəni hüquqa sahib ola bilmədiyi kimi içində yaşadığı cəmiyyət, xalqının azad və şərəfli yaşamasını rədd edən bir rejim tərəfindən idarə olunur.

Bu insanlar özləri ilə ərzaq və fərdi əşya götürə bilmədən bu səfərə çıxırlar. Çox vaxt üstlərində doğru düzgün paltarları belə olmur. Özümüzü bir tənhalığın ortasında ölkəmizdən, dostlarımızdan və ya qohumlarımızdan uzaq xəyal etdiyimizdə bunun nə qədər çətin olduğunu görməmək mümkün deyil.

Məhz Rohincalı müsəlmanlar ölümü gözə alaraq çıxdıqları bu çətin səfərlərdə insan tacirləri tərəfindən gəmilərə toplanır və dənizin ortasında ölümə tərk edilirlər. Bu gəmilər özlərinin deyimi ilə sanki "üzən tabutdur". Birləşmiş Millətlər Rohinca müsəlmanlarını "dünyada ən çox zülmə məruz qalmış azlıq" olaraq xarakterizə edir. Digər tərəfdən Adaman dənizi sahilindəki ASEAN (Cənub-Şərqi Asiya Xalqları Birliyi) ölkələrinin münasibətləri vəziyyəti daha da dəhşətli hala gətirir. Banqladeş, Myanma, Tailand, Malayziya və İndoneziya kimi qonşu ölkələr də dənizin ortasında qalan Rohincalıları ölkələrinə qəbul etmirlər.

Bu günlərdə dünya mediası Rohinca müsəlmanlarının çəkdikləri iztirabları xəbər başlığı etməyə başladı. Artıq beynəlxalq cəmiyyət onların varlığından və içində olduqları çətin vəziyyətdən xəbərdardır. Buna baxmayaraq ölkələrin bu vəziyyətə yanaşmaları və göstərdikləri səylər olduqca kifayətsiz qalır. İndilərdə İndoneziya və Malayziya həftələrlə açıq dənizdə qalan minlərlə immiqrantı ölkələrinə müvəqqəti qəbul etməyə razı olarkən; bəzi çözüm təklifləri də yeni-yeni gündəmə gəlməyə başladı.

## Hər insanın həyatı qiymətlidir

Əslində bu böhran bizi daha da dəhşətli bir vəziyyətlə üzləşdirir. Bizlər bu yaşananları azlıqdakı bir qrup insanın içində olduğu bir böhran olaraq qiymətləndirə bilmərik. Bütün bu yaşananlar "insanlığın" da böyük bir böhran içində olduğunu bizlərə göstərməkdədir. Açıq şəkildə bilinməlidir ki, Rohinca müsəlmanlarının gəmi ilə etdikləri bu səfər tragediyası bütün insanlıq üzərində qapqara bir ləkədir.



Mühacirlər Allahın əmanətidirlər. Hər hansı bir şərt və qanun güdmədən, onlara rahatlıq verəcək bir üslub istifadə etməli, sezdirmədən onlara gözəllik təqdim edilməlidir.

Əgər bizlər öz uşaqlarımız üçün arzu etdiyimiz azadlığı dünya üzərindəki hər uşaq üçün istəyiriksə bu vəziyyəti yaxşı analiz etməli və doğru həllər təqdim etməliyik. Məsələn qonşu ölkələrin Arakanlı immiqrantlarla bağlı yersiz narahatlıqlarının əslində asanlıqla həll edilə biləcəyini dünyaya göstərə bilərik. Malayziya, İndoneziya və Tailand kimi ölkələr geniş torpaqlara və sahil sahələrinə sahibdirlər. Ölkələrinə qəbul etdikləri mühacirləri balıqçılıq, əkinçilik və ya heyvandarlıq kimi işlərə istiqamətləndirərək həyatlarını qazanmalarını təmin edə bilər, sığındıqları ölkələrə yük olmaqdan xilas edə bilərlər. İnsanlığa yaraşan, qəti surətdə belə bir yanaşmadır. Bu çətin zamanlarda ən çox ehtiyacımız olan şey vicdanımıza uyğun davranmaqdır.

Yaşanmaqda olan bu insanlıq böhranı bizə bəzi insanların həyatına dəyər verilərkən digər bir hissəsini görməməzlikdən gəlindiyini göstərir. İnsanoğlu hansı irqdən, xalqdan, dindən, etnik mənşədən və ya qəbilədən olursa olsun çox qiymətlidir. Ticari, siyasi, sənaye və sənət fəaliyyətləri insanoğlu sayəsində icra edilməkdədir. Hər kəs bir insan olaraq layiq olduğu azadlığa və qürura sahib olmalıdır. Siyasətçilər və ya dövlət başçıları bu dürüst dünyagörüşünü mənimsədiklərində pozulmuş vicdanlar təmizlənməyə başlayacaq və qalıcı çözümlər bir-bir əldə ediləcək.



10 dekabr 1948-ci il tarixində Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində qəbul edilən İnsan Hüquqları məlumatı. Eleanora Ruzvelt bu məlumatı "Bütün insanlığın Böyük Azadlıqlar Xartiyası olaraq" təyin etdi.

## “Tailand, ona sığınan müsəlmanları Birmaya geri qaytarmasın”

Aparıcı: ...Zülmdən qaçan iki milyon müsəlman Tailanda sığınmış vəziyyətdədir. Tailand da seçkilərdən sonra müsəlmanları Birmaya geri göndərəcəyini açıqladı. Ancaq bu, o kəslərin həbs edilməsi və öldürülməsi mənasını daşıyır.

Adnan Oktar: Yəni “Tailand müsəlmanları Birmaya göndərməsin” deyirsən. Bəli, bunu hökumətimizdən də biz xahiş edirik. Allah rizası üçün böyük bir təhlükədir bu, Tailand hökumətinə də ərizə verək, danışaq, izah edək, gündəmə gətirək. Oradakı bacı və qardaşlarımızı Birmaya təslim etməsinlər. Çünki canlarına qəsd edəcəklər.

Axırzamanın şiddətinə bax. Hər gün dünyanın hər yerində yüzlərlə, minlərlə müsəlman şəhid edilir. Çoxu kimsənin xəbəri belə gəlmir. Əfqanıstanda bir müsəlmanın şəhid edilməsi çox adi bir mövzudur. Təcavüz edilən analar, bacıların həddi hesabı yoxdur... (Adnan Oktar, 21 oktyabr 2010-cu il, Samsun Aks TV)

## "Rohinca müsəlmanlarının dənizin ortasında tərk edilməsi çox böyük zülmdür"

Aparıcı: Arakanlı bacı və qardaşlarımız, İndoneziya tərəfindən xilas edildi.

Adnan Oktar: İndoneziyanın ucsuz-bucaqsız əraziləri var. Bunlar bir ovuc insandır, bir qab yemək ilə doyurlar. Bir çadır versələr, yetər onlara. Bir şey istədikləri yoxdur, yalnız canlarını qurtarmaq istəyirlər.

Aparıcı: Bildiyiniz kimi Adnan Bəy, Malayziya çox yaxınlarda; "Əgər bunları qəbul etsək arxası gələr, minlərləsi gələr, burada istənmirlər, biz də ona görə qəbul etməyəcəyik" deyə şərh etdi.

Adnan Oktar: Nə qədər böyük vicdansızlıq, bomboş torpaqların var. Al bir tərəfinə, onlara quraşdırma evlər də edə bilərsən, çadır da olar. Bir qab yemək ilə doyarlar. İnsanları ölümə tərk etməyin mənası nədir? Bu necə bir vicdandır, gecələri necə yatırsan?

Aparıcı: Keçdiyimiz həftə gəmi Tailanda getmişdi, onlar da qəbul etməmişdilər.

Adnan Oktar: Dünyaya vicdansızlığı öyrətməyə çalışırlar, çox qorxunc bir şeydir bu. (Adnan Oktar, 16 may 2015-ci il, A9 TV)

7 FƏSİL

# Arakanlılar sığındıqları ölkələrdə əziyyət görməyə məhkumdurlarmı?

## Arakanlılar sığındıqları ölkələrdə əziyyət görməyə məhkumdurlar?



..."Ey qövmüm! Əgər Allaha iman gətirmişsinizsə və müsəlman olmuşsunuzsa, Ona təvəkkül edin!"
(Yunis surəsi, 84)

Bu məqalə "Burma Times" xəbər saytında 10 may 2015-ci il tarixində, eyni zamanda "News Rescue" xəbər saytında 16 iyun 2015-ci il

tarixində yayımlanmışdır.

Bütün dövlətlər vətəndaşlarına təhlükəsiz yaşamaq, ailə qurmaq, təhsil almaq kimi hüquqları təmin edir. Bunlar qanunlarla tənzimlənmiş o qədər təbii hüquqlardır ki, çox vaxt yoxluqları belə düşünülmür. Halbuki dünyada bu hüquqların heç birindən istifadə edə bilməyən insanlar da var. Müsəlman bacı-qardaşımız arakanlılar kimi.

Keçmiş adı Birma olan Myanmada 1978-ci ildən etibarən arakanlı müsəlmanlara qarşı insanlıq əleyhinə cinayətlər törədilir. Ölkələrində böyük işgəncələrə məruz qalır, təcavüz edilir, ibadətlərinə icazə verilmir. Ailə qura bilmirlər, hətta bir çoxuna şəxsiyyət vəsiqəsi belə verilmir. Ona görə arakanlılar ölkələrini tərk etmək məcburiyyətində qalırlar. Bu gün Pakistanda 200 min, Banqladeşdə 300 min, Səudiyyə Ərəbistanında 500 min, Malayziyada 13.600, Tailandda 3 min arakanlının yaşadığı güman edilir.

Əslində "yaşamağa çalışırlar" demək daha düzgün ifadədir. Çünki arakanlı bacı-qardaşlarımızın sığındıqları bu ölkələrdə də rahat, hüzurlu və təhlükəsiz olduqlarını demək mümkün deyil. Məsələn, 2009-cu ildə Tailandda 9 düşərgəyə yerləşdirilən təxminən 111 min arakanlıya işgəncə edilmiş, bu məzlum insanlar qayıqlara mindirilərək açıq dənizdə tərk edilmişdilər. 5 qayıqdan təkcə birinin İndoneziya tərəfindən tapılması ilə bu vəhşilik ortaya çıxdı.

Tailand arakanlılara bu münasibətini yenə də davam etdirir. Yanvar ayında Tailand və Malayziyadan şoka salacaq xəbərlər gəldi. Banqladeş və Myanmadan gəmilərlə gələn 1000-dən çox arakanlı Tailand təhlükəsizlik gücləri tərəfindən kifayət qədər qida və su olmadan açıq dənizdə tərk edildi.

Bu insanlıqdan kənar hərəkət əslində beynəlxalq hüquqa görə də cinayətdir. Beynəlxalq hüquqda dənizdən gələn sığınacaq axtaran şəxslərin öz ölkəsinin sularına girməsinin qarşısını almaq hüququ, ancaq "həmin insanların həyatını təhlükəyə atmamaq" şərti ilə mövcuddur. Halbuki bu şərt asanlıqla pozulur. Arakanlılar həftələrlə dənizdə qaldıqdan sonra 400-ü Hindistan donanması, 392-u isə İndoneziya dövləti tərəfindən xilas edilmişdir. Digərləri isə dənizdə həyatını itirmişdir.

## Arakan müsəlmanlarının sığındıqları ölkələrdəki çətin vəziyyətləri

Sığındıqları ölkələrdə qala bilən Arakan müsəlmanları də əslində çox çətin şəraitdə yaşayırlar. Çoxu qeyri-rəsmi yollarla işçi olaraq işlədilir və bir çoxu da insan tacirləri tərəfindən itkin düşür. Rəsmi sənədləri olmadığı üçün cəzalandırılır, həbs edilir, sürgün edilir və ya ən önəmlisi ölkələrinə geri qayıtmağa məcbur edilirlər. Halbuki BMT rəhbərliyində hazırlanan 1951-ci il tarixli "Qaçqınların statusu haqqında" Konvensiyanın 33-cü maddəsinə əsasən beynəlxalq hüquqda sığınacaq axtaran şəxslərin geri qaytarılması qəti şəkildə qadağan edilmişdir. Buna görə sığınacağın baş verdiyi ölkənin öz qanunları nə olursa-olsun, sığınacaq axtaran şəxsləri zülmə məruz qalacaqları ölkəyə geri qaytarmamalıdır.

İslam ölkələrinin də arakanlılara qarşı münasibəti "dostyana" olduğunu demək olmaz. Onlar da din qardaşlarını ölkələrinə qəbul etmək istəmir, yardım əlini uzatmırlar. Məsələn, Səudiyyə Ərəbistanının Məkkə və Ciddə ətrafındakı həbsxanalarında yaşayan 3000 arakanlı ailə evlərinə geri qayıtmağa məcbur edilir. Bu həbsxanalarda qadın və uşaqlarla kişilər ayrı yerlərdə saxlanılır, yəni ailələr parçalanır. Qadınlar həyat yoldaşları ilə təkcə telefon vasitəsilə əlaqə qura bilirlər.

Məkkə şəhəri ətrafındakı gecəqondularda yaşayan təxminən 250.000 arakanlı müsəlman isə hamballıq, dülgərlik, təmizlik işçisi və ya sürücülük kimi işlərdə işlədilirlər. Bəzi ailələr yetkinlik yaşına çatmayan qızlarını Səudiyyə oğlanları ilə evləndirir. Lakin bu qızlar ictimai həyatda hər zaman ikinci dərəcəli həyat yoldaşı statusunda görülüb alçaldılır.

Banqladeşdə də təxminən 300 min arakanlı kommunal infrastruktur, gigiyena, tibb, təhsil, sığınacaq, təmiz su, qida və geyim kimi ən zəruri

ehtiyacların belə olmadığı qaçqın düşərgələrində yaşayırlar. Bu çətin şəraitə belə razı olan arakanlılar yenə də ölkələrinə geri qayıtmaları üçün Banqladeş hökuməti tərəfindən təzyiqə məruz qalırlar.

Banqladeş bu yazıq insanları geri qaytarmaq üçün müxtəlif fiziki və psixoloji təzyiqlər edir. Geri qayıtmaq istəməyənlər həbs edilməklə təhdid edilir, yemək talonları əllərindən alınır, işgəncə edilir və ya düşərgədəki sığınacaqlarına zərər verilir. Qısası, arakanlıların çarəsizlikləri hüquqlarının istismar edilməsinə səbəb olur.

Burada bir məsələnin xatırladılmasında fayda var. Qeyd edilən ölkələr çox saylı immiqrantın gəlməsinə görə müxtəlif problemlərlə qarşılaşmış ola bilərlər. Ancaq arakanlı bacı-qardaşlarımız məcbur olduqları üçün qurtuluşu başqa ölkələrdə axtarırlar. Çarəsizlik içində sığındıqları bu ölkələrin onları təkrar ölkələrinə geri göndərmələri isə tam mənası ilə onların ölüm fərmanlarını imzalamaq və cinayətin ortağı olmaqdır. Bu insanlara zülm etmək yox, əksinə istədikləri ölkələrə sərbəst şəkildə daxil ola bilmələri, rahat ola biləcəkləri, təhlükəsiz şəraitdə işləyə biləcəkləri şərait hazırlamaq lazımdır. Allah Quranda hər zaman ədalətli olmaqla bağlı olaraq belə buyurmaqdadır:

> *Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır.*
>
> **(Maidə surəsi, 8)**



Hironun anası, həyatı riski olmadığı halda sadəcə tibbi dəstək ala bilmədiyi üçün Hepatit-A virusu səbəbi ilə həyatını itirdi.

## Arakanlıları “qanunsuz immiqrant” kimi qəbul etmək yanlışdır

Arakan xalqı qanunsuz immiqrant deyil. Əziyyət görən insanların ölkələrindən ayrılması, sığınacaq yer axtarması beynəlxalq hüquqa da uyğundur. Buna görə sığındıqları ölkələrin onlara qapılarını açması həm insanlıq adına, həm də beynəlxalq hüquqa görə düzgündür. Xüsusilə bu məsələdə müsəlman ölkələr daha həssas olmalıdırlar. Çünki Allah Quranda mühacirlərə, yəni zalım rəhbərlərin əlində zülm görən müdafiəsiz insanlarla qarşı-qarşıya olduqlarında müsəlmanların necə davranmalı olduqlarını bu şəkildə bildirir:

> *Sizə nə olub ki, Allah yolunda və: “Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!” – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?*
>
> **(Nisa surəsi, 75)**

Ayədə məzlum kişilər, qadınlar və uşaqlar olduqda dərhal yardım etmələri əmr edilir. Allah bu ayəsi ilə irqindən, dinindən, məzhəbindən asılı olmayaraq müsəlmanları zülmə məruz qalan hər qövmə yardım etməklə məsul etmişdir. Quranda “yolda qalmış insanlara” yardım əli uzadılması da bu şəkildə əmr edilir:

> *Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver.*
>
> **(İsra surəsi, 26)**

Göründüyü kimi, yolda qalmış insanlar Quran ayələrinə görə yardım etmədə öncəlikli qrupdur. Qaçqınlıq isə yolda qalmağın, yəni evsiz, qidasız səyahətin tam qarşılığıdır.

Digər tərəfdən qaçqın probleminin əsil səbəbi Myanmada uzun müddət yaşanan zülmdür. BMT başda olmaqla dünyadakı bütün yardım təşkilatları bu ölkədə yaşanan insanlıq dramına “dur” deməlidir. Dünyanın gücü bu bir ovuc məzlumu qorumağa, Myanma hökumətini inandırmağa kifayət edər. Bunun üçün qəlblərə hopan laqeydliyin yerini vicdanın və mərhəmətin doldurması lazımdır.

FƏSİL 8

# Myanmada müsəlman bir qadın olmaq

## Myanmada müsəlman qadın olmaq



Monkların liderlik etdiyi radikal buddist hərəkatlar müsəlmanlara qarşı olduqlarını tez-tez ifadə edirlər.

Bu məqalə, “Burma Times” xəbər saytında, 8 aprel 2015-ci il tarixində və “The Hans India” qəzet və xəbər saytında 25 iyun 2015-ci il tarixində yayımlanmışdır.

Dünyada əsas diqqət Orta Şərqdəki sünni-şiə münaqişələrinə yönəldiyi, ya da radikal terror təşkilatlarının törətdiyi hadisələrə yönəldiyi halda, keçmiş adı ilə Birma, indiki adı ilə Myanmada vətəndaşlıq haqqı belə verilməyən Rohinca (keçmiş adı ilə Arakan) xalqı illərdir qətliamlara məruz qalırlar. Müsəlmanların kəndlərini, evlərini, məscidlərini yandıran, qadınlarını, uşaqlarını amansızlıqla öldürən bəzi radikal

buddist terroristlər bölgədə qan tökməyə davam edir. Zülmün, zorakılığın həddi aşdığı bu müharibədən ən çox zərər çəkən isə uşaqlar və qadınlardır.

Şəraitsiz çadırlarda yaşamağa çalışan qadınlar bir tərəfdən aclıqla, xəstəliklə mübarizə apara bilməməyin çarəsizliyini yaşayarkən, digər tərəfdən də özlərinin, qız uşaqlarının təcavüz edilərək kölə halına gətirilməmələri üçün çarə axtarırlar. Hüquqlarını qorumaq üçün qanuni yollara əl atanda isə əli boş qayıdırlar. Bir çox gənc qızın uçurumdan özünü ataraq intihar etdiyi hamıya məlumdur.

Dünya isə hələ də bu hayqırmaları eşitməməyə və zülmə səssiz qalmağa davam edir. Bütün İslami təlim qurumları və məscidlər bağladılır, həccə getmək, qurban kəsmək, toplu şəkildə namaz qılmaq və digər ibadətlərə qadağa qoyulub. Qanunlara və insan hüquqlarına zidd olaraq insanların həbs edilməsi və beynəlxalq təşkilatlar tərəfindən aşkar edilən işgəncələr Myanma rəhbərliyinin gündəlik tətbiq etdiyi işlərdir. Qısaca arakanlı müsəlmanların dini haqq və azadlıqları tamamilə əllərindən alınmış və dinlərini istədikləri kimi yaşaması əngəllənmişdir.

On minlərlə müsəlman sınıq-salxaq qayıqlarla boğulmağı gözə alaraq çarəni Tailand, Malayziya və Avstraliya kimi qonşu ölkələrə sığınmaqda görür. Həmçinin canı bahasına çıxdıqları bu yol üçün insan tacirlərinə böyük məbləğdə pul ödəyirlər.

Arakanlı müsəlmanların ən çox yönəldiyi ölkələrdən biri də Banqladeşdir. Dünyanın ən yoxsul ölkələri arasında olan Banqladeşdə çətin şərtlərlə yaşamağa çalışan təxminən 500.000 arakanlı bu qaçqın düşərgələrində sanitariya, sağlamlıq, təmiz su, qida və paltar kimi ən çox ehtiyac olan şeylər barəsində də çətinlik çəkirlər. Bütün bu çətinliklərə baxmayaraq, arakanlılar yenə də Banqladeşə sığınmağa çalışırlar. Lakin Banqladeş də artıq arakanlıları qəbul etmir.

Əgər bütün bunlar sizin başınıza gəlsəydi siz nələr hiss edərdiniz? Öz ölkənizdə, vətəndaş olaraq qəbul edilmir, hər cür haqsızlığa və zülmə məruz qalırsınız. Kiçik uşağınıza yedizdirəcək yemək, geyindirəcək geyim tapa bilmirsiniz. Övladınızın, həyat yoldaşınızın namusunu qoruya bilmir hətta ölüm və intiharlarına şahid olursunuz. Heç şübhə yoxdur ki, bu, bir insanın dünyada hiss edə biləcəyi ən böyük acılardan biridir.

## Arakandakı zülm Qərbdə hər hansı bir ölkədə yaşansaydı nələr olardı?

Dünyanın göməzlikdən gəldiyi bu vəziyyətin çox az hissəsi Qərb ölkələrindən birində baş versəydi, böyük sensasiyaya səbəb olardı. Əlbəttə ki, işgəncələrə qarşı reaksiya vermək və bunu cinayət kimi dəyərləndirmək normal haldır. Bu səbəbdən qərbdə yaranan oxşar hadisələrə reaksiya vermək təbii haldır. Ancaq eyni həssaslığı çox şiddətli şəkildə bu hadisələri yaşayan Arakan müsəlmanlarına qarşı da göstərməmək çox utanc verici bir vəziyyətdir. Aydındır ki, bu insanlar onlardan uzaqda yaşayan, özləri ilə müqayisədə müasir hesab etmədikləri, fərqli etnik mənşəli olduqları, hətta ikinci sinif bir varlıq kimi dəyərləndirdikləri bu məzlum və dəyərli xalqa qarşı etinasız davranırlar. Halbuki, zülm edən insanlara qarşı münasibət hər yerdə eyni olmalı və zülmün bitməsi üçün birləşməlidirlər.

Şübhəsiz ki, bu nöqtədə BMT-in üzərinə də böyük məsuliyyət düşür. BMT-in əsas məqsədi bütün insanların yaşamaq hüququnu qorumaq üçün alınacaq tədbirləri tezliklə Myanma üçün də tətbiq etməlidir. Təcavüz, işgəncə, haqsız yerə həbs edilmə, yaralama kimi cinayətlərin aradan qaldırılması üçün BMT tərəfindən yoxlamalar aparılmalı, evlərindən uzaqlaşdırılan əhalinin kəndlərinə qaytarılması və burada təhlükəsiz yaşamaları üçün şərait yaradılmalı, bu qanunsuzluğu törədənlər insan hüquqları məhkəmələri qarşısında hesab verməli, Arakan xalqının vətəndaşlıq hüququ qazanması üçün tədbirlər görülməlidir. Beynəlxalq mətbuat isə Myanmada yaşananları cəmiyyətə təqdim edərək vicdanlarına təsir edəcək işlər görməlidir.

Arakanlı müsəlmanların ölkədəki bütün digər vətəndaşlar kimi təhsil, sağlamlıq, dərman və müalicə kimi ictimai haqlardan və bütün

hüquqlardan istifadə etmələrinə şərait yaradılmalıdır.

Ölkədəki zülmün, zorakılığın mərkəzindəki Myanma hökumətinin sevgi sisteminə keçməsi vacibdir. Sevgi və qardaşlıq ruhu buddizmin özündə də vardır. Myanma hökuməti tezliklə sevgiyə əsaslanan bu siyasətə və demokratik sistemə keçidi sürətləndirməlidir. Yeni siyasi sistemə keçsə, Myanmanın beynəlxalq arenadakı imici dəyişiləcək və xarici investisiyaya da açıq hala gələcək. Beləliklə, ölkə zənginləşəcək, bütün Myanma xalqının həyat standartı yüksələcəkdir.



Amerikalı kimyaçı Stanley Miller

Arakan xalqı Myanma hökumətinin öz xalqıdır. Bu səbəbdən hökumət öz xalqına zülm etməyi dayandırmalıdır. İrqi və dini ayrı-seçkilik etmədən zülmə məruz qalan xalqı, yəni öz xalqını qorumaq, onlara sevgi və dostcasına münasibət göstərmək dövlətin borcudur.

FƏSİL 9

# Ya Arakanlı olsaydınız?

Bu məqalə "Burma Times" xəbər saytında 15 iyun 2014-cü il tarixində yayımlanmışdır.

Uzaq Şərqdə Rohinca adlı bir yer 2012-ci ildən etibarən beynəlxalq mətbuatın gündəmindədir. Öldürülən insanlar, dağıdılan kəndlər, dənizdə ölümə tərk edilən immiqrantlar xəbərlərə əks olunan hadisələrin yalnız bir qismidir.

Bəs Myanmada nə baş verir?

Arakanlı müsəlmanlar bir vaxtlar bu ərazidə 350 il hakimiyyətdə olmuş bir krallığın hazırda yaşayan nümayəndələridir. Amma bu gün öz ölkələrində azlıq təşkil edirlər. Gördükləri şiddət və düşmənçilik elə ağlasığmaz həddə çatıb ki, dünyanın ən çox zülm görən icması kimi tanınırlar. Nə yaşayacaqları bir ölkələri, nə də sığınacaqları bir yerləri var.

Bir anlıq arakanlı müsəlman olduğunuzu düşünün. Bu kabusdan xilas olmaq üçün nə edərdiniz? Qarşınızda iki seçiminiz olardı:

1) Ya ölkənizdə qalardınız... Amma bu halda bu çətinlikləri qəbul etmək məcburiyyətində qalacaqdınız:

Dəhşətli şərtləri olan düşərgələrdə bir yerə getmək azadlığınız olmadan, anti-islam və şiddət tərəfdarı radikal dəstələrin malınıza və canınıza qəsd edən hücumlarına məruz qalaraq yaşayacaqsınız.

Hər hansı bir vətəndaşlıq hüququnuz olmayacaq, təhlükəsizlik qüvvələrindən yardım gözləyə bilməyəcəksiniz.

Dövlət xəstəxanalarına gedə bilməyəcək, pulunuz olsa belə mühərrikli avtomobil və ya telefon ala bilməyəcəksiniz.

Bundan başqa, ancaq taxta olmasına icazə verilən eviniz hər hansı bir səbəbdən yanarsa, altı il həbs cəzası alacaqsınız.

Bu elə şiddətli zülmdür ki, 1942-1996-cı illər arasında iki milyon arakanlı evini tərk etdi. 15.000 yaşayış yeri talan edildi, 20.000 qadın təcavüzə məruz qaldı, 300.000 insan şəhid edildi, 5.000 məscid dağıdıldı. 2012-ci ildə 330 kənd insanlarla birlikdə yandırıldı.

2) Ya da ölkənizi tərk edərdiniz. Bəs hara gedəcəksiniz və daha da əhəmiyyətlisi istədiyiniz yerə necə çatacaqsınız?

Banqladeş İslam ölkəsi olmasına baxmayaraq, balıqçı qayıqlarındakı məzlum insanları çox vaxt ölkəsinə qəbul etmir və dənizdə ölümə tərk edir. Bu qayıqlar adətən daşıdığı insanlarla birlikdə dərin okean sularına qərq olur.

Tutaq ki, Tailanda getmək istədiniz. Sizi qəbul etdiklərini düşünək. Bu halda insan tacirlərinin əlinə düşüb qul kimi satılma təhlükəniz var. "Reuters" xəbər agentliyi yaxın dövrdə tailandlı immiqrant bürosunun səlahiyyətli şəxslərinin də içində əli olduğu nəhəng insan alveri şəbəkəsini aşkar etdi. Amma onsuz da Tailand bu məzlum insanları qəbul etmir və dənizdə ölümə tərk edir. Malayziya isə gözəl İslam əxlaqı nümayiş etdirərək bu məzlum insanlara çox yardım edir, amma ora da bərbad vəziyyətdə olan balıqçı qayıqlarının gedə bilməyəcəyi qədər uzaqdır.

Ağıllara durğunluq verən bu zülm siz bu sətirləri oxuyarkən də hal-hazırda davam edir. "Sərhədsiz Həkimlər" təşkilatı arakanlılara arxa çıxdıqları iddiası ilə bir müddət əvvəl bu ölkədə fəaliyyət göstərməkdən

məhrum edildilər. Halbuki bu həkimlər arakanlılara yardım edən yeganə heyət idi, amma artıq onlar da yoxdur.

Arakandakı insanlıqdan kənar əməllərin bir nümunəsi də, yaxın tarixdə Myanma təhlükəsizlik qüvvələri və radikal buddistlərin təcavüzünə məruz qalan Du Chee Yar Tan kəndində baş verdi. Kənardan girişlərə bağlanılan kəndə hər hansı bir yolla girməyi bacaran beş müsəlman kişi, aralarında uşaqların da olduğu ən azı 10 arakanlının kəsilmiş başlarını bir su bakının içində tapdı.

Bütün bunlar baş verərkən radikal buddist qruplar da bir tərəfdən bütün ölkəni motosikletlərlə gəzib müsəlmanlara qarşı nifrət təbliğatı aparırlar.

Dünyanın uzaq bir guşəsində yaşayan bu məsum insanların qarşı-qarşıya olduqları bu dəhşətli zülmə bütün dövlətlər laqeyd yanaşır. Halbuki yalnız xəbərlərdə gördüyümüz bu məzlumlar bizim kimi ailəsi, sevdikləri olan, işi, peşəsi olan insanlardır. Amma dünya onları görmür və tənhalıqları içində hamısını ölümə tərk edir.

## Arakandakı bu qorxunc mənzərəni sona çatdırmaq üçün nə etmək lazımdır?



Ən son təkamülçü qaynaqların da qəbul etdiyi kimi, həyatın mənşəyi, hələ təkamül nəzəriyyəsi üçün son dərəcə böyük çıxılmaz vəziyyətdir.

Əvvəla, Myanma hökuməti və ölkədəki buddistlər müsəlmanların onların ölkələrini ələ keçirəcəyi yönündəki əsassız qorxularından xilas olmalıdırlar. Arakanlı müsəlmanlara qarşı insan hüquqlarının

pozulmasını qısa müddətdə dayandırılması və arakanlıların layiq olduqları insani münasibət görmələri həyati əhəmiyyət daşıyır.



Təkamül nəzəriyyəsini etibarsız edən həqiqətlərdən biri, canlılığın inanılmaz dərəcədəki kompleks quruluşudur. Canlı hüceyrələrinin nüvəsində yer alan DNT molekulu, bunun nümunəsidir. DNT, dörd ayrı molekulun fərqli düzülməsindən ibarət olan bir növ məlumat bankıdır. Bu məlumat bankında canlı ilə əlaqədar bütün fiziki xüsusiyyətlərin şifrələri yer alır. İnsan DNT-si kağıza yazılsa, ortaya təxminən 900 cildlik ensiklopediya çıxacağı hesablanmaqdadır. Əlbəttə bu cür fövqəladə məlumat, təsadüf anlayışını qəti şəkildə etibarsız etməkdədir.

Buddistlər dinc insanlardır. Ölkədəki hər iki inanc qrupunu da hədəf alan və sülh tərəfdarı ideoloji kampaniyanın ciddi müsbət təsirləri olar. Bu səpkili fəaliyyətlə insanlar İslamın sülh yönümlü ruhu haqqında məlumatlandırılar, müxtəlif etnik qrupların keçmişdəki sülhsevər həyatlarından nümunələr verilə bilər.

ABŞ, BMT və Avropa İttifaqı həmişə narahatlıqlarını ifadə edən bəyanatlar versələr də, bunlar təəssüf ki, heç bir təsir göstərmir. Müsəlman ölkələr isə bu məsələdə boyunlarına böyük günah olacaq sükut içindədirlər. Daha da vaxt itirmədən bir araya gələrək sevgi, birlik, sülh və qardaşlıq içində

bütün dünya əziyyət görən insanlara yardım etməlidir. Heç bir iqtisadi narahatlıq ya da dünyəvi mənafenin, köməyə ehtiyacı olan insanların yanında olmaqdan daha əhəmiyyətli olmadığını hər kəsə göstərilməsi lazımdır.

20
FƏSİL

# Zülmü dayandırmaqda sosial mediyanın rolu

## Zülmü dayandırmada sosial medianın rolu




Təkamülçülər əsrin əvvəlindən bəri ağcaqanadları mutasiyaya uğradaraq, faydalı mutasiya nümunəsi meydana gətirməyə çalışdılar. Ancaq on illərlə sürən bu səylərin nəticəsində əldə edilən tək nəticə, şikəst, xəstə və qüsurlu ağcaqanadlar oldu. Üstdə normal meyvə ağcaqanadı və altda mutasiyaya uğramış digər meyvə ağcaqanadı görülməkdədir.



Təbaşir dövrünə aid bu timsah qalığı 65 milyon illikdir. İndiki vaxtda yaşayan timsahlardan heç bir fərqi yoxdur. İtaliyada tapılmış bu Mene balığı fosili 54-37 milyon illikdir. Bu 50 milyon illik çinar yarpağı fosili ABŞ-da tapılmışdır. 50 milyon ildir çinar yarpaqları heç dəyişməmiş, təkamül keçirməmişdir.

Bu məqalə, "Arab News" qəzetində 18 iyul 2014-cü il tarixində eyni zamanda "The Bosnia Times"da 8 avqust 2014-cü il tarixində yayımlanmışdır.

Dünyanın hər hansı bir yerindəki bir məsələ, sadəcə saniyələr ərzində bizə çata bilir: Güclü və təsirli bir üsulla; sosial media ilə. Siyasətdən maqazinə, iqtisadiyyatdan idmana qədər hər mövzuda sosial mediadan məlumat yaya bilmək, bir mövzuya diqqət çəkə bilmək, bilinməyəni bilinən hala gətirmək mümkündür. Sosial media, doğru və yerində istifadə edildiyində cəmiyyətləri yaxşı istiqamətdə hərəkətə keçirə bilməkdə mükəmməl bir vasitədir.

Sosial medianı nifrət və qəzəbini yaymaq ya da radikal anlayışlarına tərəfdar toplamaq üçün istifadə edənlər də var əlbəttə. Lakin bu yazının mövzusu, nifrət insanlarından çox, vicdanı bir az da olsun hərəkətə keçə

bilən insanlarla əlaqədardır. Sosial medianı bir oyanış vəsiləsi olaraq istifadə edən amma bunda stabillik göstərə bilməyənlər ilə əlaqədardır.

Xatırlayın, aprel 2014-cü il tarixində Nigeriyada “Boko Haram” terror təşkilatı 200-dən çox qız uşağını qaçırmış, xüsusilə Michelle Obamanın da sahib çıxmasının ardından bu mövzu sosial medianın gündəmi olmuşdu. Bütün dünya ayağa qalxdı, siyasətçilər bunu müzakirə etdi, köşə yazılarında bu mövzu yazıldı. İnsanlar gecə gündüz gənc qızların xilas oluna bilməsi üçün sosial mediadan səslərini eşitdirməyə çalışdılar. Aradan təxminən üç ay keçdiyində isə, gənc qızların 54-nün qaçıb xilas olması mətbuatda yalnız kiçik bir xəbər olaraq yer aldı. Geri qalan yüzlərlə gənc qız, son vaxtlarda IŞİD-ə bağlılığını açıqlayan Boko Haramın əlindədir hələ də. Lakin bu hadisə, bir çox insan üçün önəmini itirən bir xəbər olaraq qaldı. Səslər cılız çıxır. Nigeriyada isə çox bir şey dəyişmiş deyil; Boko Haram daha çox insanı qaçırmağa, daha çox qan tökməyə davam edir.

Keçən il Banqladeşdə edam edilən İslam camaatı lideri Əbdülqadir Mollanı xatırlayın. Edamın ləğvi üçün sosial mediada ortaya qoyulan reaksiyalar dünya səviyyəsində səs gətirmişdi. Bu reaksiya səbəbi ilə edam təxirə salınmış amma sosial mediada səslər azalmağa başlayan kimi cəsarət toplayan hökumət edamı reallaşdırmışdılar. Edamın üstündən zaman keçdiyində isə, sanki Banqladeşdə bu çirkli sistem sona çatmış kimi hər kəs öz işinə qayıtdı. Hal-hazırda hələ də eyni camaatdan 14 insanın daha edama məhkum edilmiş olması ilə heç kim maraqlanmır. Çökmüş hüquq sisteminin içində, həyat haqqı tanınmayan bu insanlar da digərləri kimi unuduldu.

Müsəlmanlar küçələrdə diri-diri yandırılmağa başlandığında, Mərkəzi Afrika Respublikası yenə sosial medianın ən çox müzakirə olunan mövzusu idi. Hal-hazırda heç kimin bu mövzudan bəhs etməməsi sizi

təəccübləndirməsin. 23-cü Afrika Zirvəsində reallaşdırılmağa çalışılan sülh görüşlərinə baxmayaraq, bu ayın əvvəlində 70 müsəlman daha qətl edildi və bir həftə ərzində 14 min insan qonşu ölkələrə sığınmaq məcburiyyətində qaldı. Mərkəzi Afrika Respublikası bütün dünyanın yaddaşında və sosial mediada sanki unudulmuş vəziyyətdədir. Amma oradakı məzlumlar dəhşət verici daxili qarşıdurmanın tam ortasında yaşamağa davam edirlər.

## İnsan ölümlərinin yalnız statistika kimi görülməsi qəbul edilə bilməz

Tragediyanın bəlkə də ən böyük ölçülərinin yaşandığı Suriyadakı ölümlər isə, artıq yalnız aylıq statistika olaraq verilməyə başlandı. Suriya mövzusunda səsini eşitdirməyə və çözüm tapmağa çalışan qrupların sayı çox azdır. Əsas axın mediada arada bir dağıntıdan çıxarılan körpələr göstərilir, sosial mediada isə ancaq aylıq statistikalar paylaşılmağa başlandı. Ramazan ayının əvvəlindən bəri sadəcə Hələb şəhərinə 273 barel bombası atılmış olduğundan neçə insanın xəbəri var sizcə?

Arakan müsəlmanları kimi bu tragediyanı onlarla ildir yaşayan xalqlar üçün isə vəziyyət hələ də eynidir. 2011-ci ildə Myanmanın qapalı xunta rejiminin yarı mülkü bir idarəyə keçişi ilə Arakan müsəlmanları həqiqətini görə bilmişdik. Dünya, 2012-ci ildəki qırğınlardan bu vəsilə ilə xəbərdar olmuş, Arakanlılara tətbiq olunan vəhşiliyə və soyqırıma dəhşət içində şahid olmuşdu. Arakan mövzusunda sosial mediada fərq etdirmək üçün çalışanlar var şübhəsiz. Lakin heç cür bu səylərə cavab verən, əzmlə o insanlara sahib çıxan böyük birliklər meydana gələ bilmədi. Bu səbəblə o torpaqlarda vəziyyət dəyişmədi; Arakan müsəlmanları hələ vətənsizdir, haqlarından məhrum və zülm altındadırlar. ASEAN-in böyük Asiya ölkələri, müsəlman ictimaiyyəti və super güclər isə səssiz qalmağa davam edirlər.

Bu siyahı bunlarla məhdud deyil şübhəsiz. Nə İraqda; nə illərdir aclıqla, QİÇS və son vaxtlarda Ebola virusu ilə mübarizə aparan Afrikada; nə də dron hücumları altındakı Pakistan, Əfqanıstan və Yəməndə vəziyyət dəyişmiş deyil. Dəyişən ancaq sosial mediadakı insanların maraq dairəsidir. Vəhşiliyə, zülmə, haqsızlığa reaksiya sadəcə bir neçə saat və ya

bir neçə gün olmamalıdır. Xüsusilə də zülm hələ davam edərkən və hətta şiddətlənərkən.



Canlıların mərhələ-mərhələ meydana gəldiyini, yəni təkamül keçirdiyini göstərən isə tək bir fosil belə yoxdur. Yer üzü təbəqələri və fosil qeydləri araşdırıldığında, yer üzündəki canlı həyatının birdən-birə ortaya çıxdığı görülür.

## Susqunluq zülmə ortaq olmaq deməkdir

“Mənim səyimdən nə olar?” deyə düşünənlər yanılırlar. Dövlətlərin, hökumətlərin vicdan və ittifaqı ilə dövrəyə girə bilmədikləri, çözüm tapa bilmədikləri mövzularda xalqın səsi güclü çıxmaq məcburiyyətindədir. İttifaqla bir araya gələn xalqlar, NATO-nun, BMT-nin gücündən daha çox səs gətirən, daha təsirli bir güc ortaya qoya bilərlər. Susmaq o adamı (istəməsə də) zülmə ortaq edər.

Çoxluğun səsi həm edilən zülmlərin gizlənib saxlanmasını mane olar, həm də bir duadır. Lakin bu səs, dünyadakı hər zülm üçün güclü çıxmalı və davamlı olmalıdır. İlk eşitdiyimizdə bizi narahat edən mövzular, vaxt keçdikcə vərdiş halını almamalıdır. Ancaq, Orta Şərq və Afrikanı qan gölü, ölümləri də statistika kimi görən zehniyyətdən sıyrıldığımız, hər gedən candan məsul olduğumuzu hiss etdiyimiz zaman hərəkətə keçə bilərik, təsirli ola bilərik. Bu mövzuda səbirli, təmkinli və davamlı olmalıyıq. Dünyaya yaydığımız bir səs, gün gələr sistemlərin dəyişməsinə yol aça bilər. Bunun bir dua olduğunu kimsə unudulmamalıdır; Allah diləsə mütləq olar.



İnsanın təkamülü nağılını dəstəkləyən heç bir fosil qalığı yoxdur. Əksinə, fosil qeydləri insanlar ilə meymunlar arasında keçilməz bir sərhəd olduğunu göstərməkdədir. Bu həqiqət qarşısında təkamülçülər, həqiqətdən kənar bəzi şəkil və maketlərə ümid bağlamışlar. Fosil qalıqlarının üzərinə dilədikləri maskaları keçirir və xəyali yarı meymun yarı insan üzlər meydana gətirirlər.

*Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız.*

**(Nəhl surəsi, 90)**



Təkamülçülər, fosillər üzərində etdikləri izahları ümumiyyətlə ideoloji istiqamətində edərlər. Bu səbəblə gəldikləri nəticələr əksərən etibarlı deyil.



Təkamülçülərin istədikləri bütün şərtlər təmin edilsə bir canlı meydana gələ bilərmi? Əlbəttə ki xeyr. Bunu daha yaxşı anlamaq üçün belə bir təcrübə edək. Üstdəkinə bənzər bir çəlləyə canlıların meydana gəlməsi üçün lazım olan bütün atomları, fermentləri, hormonları, zülalları qısacası təkamülçülərin istədikləri, lazımlı gördükləri bütün elementləri qoyaq. Ola biləcək hər cür kimyəvi və fiziki üsulu istifadə edərək bu elementləri qarışdıraq və istədikləri qədər gözləyək. Nə edilirsə edilsin, nə qədər zaman gözlənilsə də bu çəlləkdən canlı olan tək bir varlıq belə çıxara bilməyəcəklər.

## “Myanma və Şərqi Türküstandakı zülmün dayanması üçün hər yerə şikayət ərizəsi yazaq”

Adnan Oktar: ...Müsəlmanlara edilən bu zülmə qarşı hər yerdə etiraz bildirək. Birmada edilən zülm bitsin.

Müsəlmanların yaxasını buraxsınlar. Şərqi Türküstan mövzusunu da gündəmdə tutsun bacı və qardaşlarımız, hər yerə şikayət edək. Birləşmiş Millətlərə ərizə verin, Amerikan Xarici İşlər Nazirliyinə, Amerikan Başçısına, İngilis, Alman, Rus, hər yerə bildirin. “Biz eşitmədik, bilmədik” deməsinlər.

Bu qanı bu zülmü dayandıracaqlar. Xəbərdar etsinlər, xəbərdarlıq təsirli olacaq inşaAllah. Hər yerə bildirin, şəkillərlə. Girin bizim internet saytlarımıza götürün oradan fotoşəkilləri göndərin. Obamaya da şəxsən məktub göndərək, əl yazısı ilə də olar, kağıza yazın, daha gözəl olar. Atın imzanızı, ünvanınızı da qoyun. Hətta şəkilinizi də qoyun, göndərin. “Bu zülmü istəmirik biz” deyəcəksiniz. “Narahat olduq, vicdani olaraq narahatıq, bunu dayandırın” deyəcəksiniz. Dünyanın hər yerindəki zülmün dayanması üçün, hər yerə məktub yazın, inşaAllah... (26 iyul 2010-cu il, Adıyaman Asu TV və HarunYahya.TV)

FƏSİL

# Dünyanı sarsan mühacir böhranının tək həlli

## Dünyanı sarsıdan qaçqın böhranının tək çözümü



O, həm göylərin, yerin və onların arasındakıların Rəbbi, həm də məşriqlərin Rəbbidir. (Saffat surəsi, 5)




Bir cisimdən gələn xəbərdarlıqlar elektrik siqnalına çevrilərək beyində bir təsir meydana gətirirlər. “Görürəm” deyərkən, əslində zehnimizdəki elektrik siqnallarının təsirini seyr edirik. Beyin işığa bağlıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər gedə bilməz. Görmə mərkəzi deyilən yer qapqaranlıqdır, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

Bu məqalə, “İran Daily” qəzetində 16 noyabr 2015-ci il tarixində, “Harakah Daily”də 7 dekabr 2015-ci il tarixində, “IRNA (İran rəsmi xəbər agentin)”də isə 17 noyabr 2015-ci il tarixində yayımlanmışdır.

Kütləvi immiqrant axını və onunla birlikdə baş verən zülm və vəhşilik son zamanlar dünya gündəminin ən diqqət çəkən mövzuları arasında yer alır. Milyonlarla insanın qarşı-qarşıya qaldığı əzablar böyük insanlıq faciəsinə çevrilib.

Myanmanın Arakan bölgəsində yaşayan müsəlman rohincalılar öz yurdlarında işgəncəyə məruz qalan, təzyiq görən, sürgün edilən, əzab görən insanlardır. 2012-ci ildən etibarən yüz minlərlə rohincalı evini tərk etdi, həyatını itirənlərin sayı o gündən bu yana minlərlədir. Qalanlar isə sınıq-salxaq gəmilərlə okeana üz tutur, küləyin və dalğaların gücü ilə günlərlə səfər edərək qonşu ölkəyə çatmağa çalışırlar.

Gəmidə edilən bu səhayətlərdə bu günə qədər yüzlərlə insanın həyatını itirdiyi rohincalı köçkünlərin çətinlikləri Malayziya və İndoneziyanın bir il müddətinə onlara qucaq açması ilə birlikdə bir az olsun səngidi. Ancaq əsas olaraq ASEAN, BMT və ən başda da İslam aləmi məzlum Rohinca xalqının qurtuluşu üçün qalıcı həll yolu təmin etməli, bunun üçün də onları immiqrant olmağa məcbur edən şəraiti aradan qaldırmaq üçün qətiyyətli mübarizə başlamalıdırlar.

Əlbəttə ki, immiqrant problemi yalnız rohincalılarla məhdud deyil. Dünyanın bir çox yerində baş verən müharibə və münaqişələrin təsiri ilə milyonlarla insan immiqrant halına gəldi. Evlərini, yurdlarını, dost-tanışlarını, ailələrini, mallarını, mülklərini arxada qoyub vətənlərindən ayrılan və xarici ölkələrə sığınan immiqrantların böyük bir hissəsini isə suriyalılar təşkil edir.

Suriyalı qaçqınlar xarici ölkələrə qaçmağa çalışarkən bəzi Avropa İttifaqı ölkələrinin insanlığa yaraşmayan ayrı-seçkilik və amansız əngəlləri ilə üzləşirlər. Bəzi Avropa İttifaqı ölkələrində immiqrantlar polis qüvvələri tərəfindən zor tətbiq edilərək geri püskürdülür, “geriyə itələmə” əməliyyatına məruz qoyulur, yəni içində olduqları xüsusi şərtlər nəzərə alınmadan kütləvi olaraq deportasiya olunurlar. Halbuki uşaqlar daxil olmaqla bütün immiqrantların həyatını təhlükəyə atan bu tətbiq tamamilə hüquqa ziddir.

İmmiqrantlara qarşı insan hüquqlarına zidd olan davranışlar nümayiş etdirən Avropa İttifaqı ölkələrindən biri sərhədinə zirehli maşınlar yerləşdirən və əsgərlərinin immiqrantlara qarşı plastik güllə və gözyaşardıcı qaz istifadə etmələrinə icazə verən Macarıstan, bir digəri aralarında körpə, uşaq, qadın və yaşlıların olduğu yüzlərlə immiqrantı bibər qazı ilə dayandırmağa çalışan Sloveniyadır. Bu ölkələrin əksinə 800.000, hətta daha çox immiqranta qapılarını açacağını bildirən Almaniya immiqrant məsələsində vicdanlı davranış ortaya qoyan gözəl Avropa ölkəsidir. Nəcib millətə, sülh və birləşdirici ruha sahib olan, fədakarlığı və xeyirxahlığı ilə bütün dünyanın təqdirini qazanan Türkiyə isə iki milyon suriyalı qaçqını qəbul etməsi və onlara olan isti münasibət və davranışları ilə örnək alınmalı olan əsas ölkədir.

## İmmiqrantlar mövzusu, insani bir məsələdir

Beynəlxalq sığınacaq hüququ immiqrantlar arasında din, dil, cinsiyyət və irqi ayrı-seçkiliyi qadağan edərkən, Slovakiya və Çexiyanın ölkələrinə qəbul edəcəkləri immiqrantları dini meyarlara görə müəyyən etməsi və yalnız müəyyən sayda xristian suriyalı immiqrantı qəbul etməsi insan hüquqlarına açıq şəkildə zidd olan bir başqa tətbiqdir. Bu məqamda demokratiyaya və insan hüquqlarına verdiyi dəyər və bütün inanclara bərabər olmaqla öyünən Avropanın üzərinə düşən Avropa İttifaqına üzv ölkələrin eqoist və təcrid edən anlayışlarını bir an öncə tərk etmələrini təmin etməkdir.

Avropa bu həqiqəti qəbul etməlidir ki, immiqrant məsələsi təhlükəsizlik məsələsi deyil, insanlıq məsələsidir. Sərhədlərə tikanlı məftillər, divarlar hörərək, sərhəd zonalarına mina döşəyərək, zülmdən qaçan məzlum insanları yeni bir zülmlə qarşı-qarşıya qoyaraq, təhlükəsiz sığınacaq almaq hüquqlarını qanunsuz yollarla əllərindən alaraq bu məsələ həll edilə bilməz. Həll yolu ancaq sevgi, insanı münasibət, səbir və fədakarlıqla mümkündür. Avropa İttifaqı ölkələri immiqrantların yaşamaq hüququna hörmət göstərərək, sevgi və hörmətlə onlara yanaşmalıdır. Sevgi, hörmət, şəfqət və mərhəmət yarandıqdan sonra immiqrantları köçə məcbur edən səbəblərin aradan qaldırılması üçün lazımi siyasi və diplomatik hərbi addımlar da sürətlə atılacaq.

Minlərlə məzlum insan dənizdə boğularaq can verərkən sərhəd keşiyini kimin çəkəcəyini və ya köçün qarşısını necə almağı müzakirə etmək, insanlığa sığmayan tədbirlər alaraq sərhədləri keçilməz hala gətirmək, şübhəsiz ki, Avropaya təxmin etmədiyi qədər zərər verir, qəlbini qaraldır, mənəviyyatını yox edir. İnsanları ölümə tərk edənlər heç fərqində olmadan öz həyat sevinclərini itirirlər.

Avropa əlini vicdanına qoymalı, sərhədlərini açaraq və təhlükəsiz keçid təmin etməklə ürəkləri parçalayan immiqrant probleminə qısa müddətdə son verməlidir. İnsanların azad yaşamaq hüquqları əlindən alındıqda, bir başqa ifadə ilə, azad iradələrinə və ləyaqətlərinə zərər verildikdə buna vasitəçi olan dövlətlərin də ləyaqəti zərər görmüş olar. Beləliklə, sığınacaq hüququnun insanlıq hüququ olduğunu çox yaxşı bilən Avropa İttifaqı ölkələri bu haqqı qazanmış immiqrantların istədikləri ölkəyə yerləşmələrini əngəlləyən qanunvericilik aktlarını dərhal ləğv etməli, beləliklə, immiqrantlar yaşadıqları ölkələrdə 1951-ci il Cenevrə Konvensiyası əsasında özlərinə tanınan bütün hüquqlardan faydalana bilməlidirlər. Digər tərəfdən bu da bir faktdır ki, yarım milyard əhalisi ilə Avropa İttifaqı bir neçə milyon qaçqını yaxşı planlaşdırma ilə bütün qitəyə bölüşdürə bilər. Rahatlıqla onlara təhsil, peşə seçmək və kiçik müəssisələr açmaq kimi imkanlar yarada, həyata daxil olmalarını təmin edə bilər.



Təkamülçülərin ən böyük xətalarından biri də yuxarıda təmsili şəkli görülən və primitiv dünya olaraq xarakterizə etdikləri mühitdə canlılığın özbaşına meydana gələ biləcəyini düşünmələridir. Miller təcrübəsi kimi çalışmalarla bu iddialarını sübut etməyə çalışmışlar. Ancaq elmi tapıntılar qarşısında yenə məğlubiyyətə uğramışlar. Çünki 1970-ci illərdə əldə edilən nəticələr, primitiv dünya olaraq xarakterizə edilən dövrdəki atmosferin həyatın meydana gəlməsi üçün heç bir şəkildə uyğun olmadığını sübut etmişdir.

Qəzetlərdən, televiziyadan, internet üzərindən demək olar ki, hər gün xəbərdar olduğumuz bu insanlıq cinayətinə qarşı səssiz qalmaq vicdana sığan bir davranış deyil. Daha çox vaxt itirmədən immiqrantların həyatını qoruyacaq fəaliyyət planının hazırlanması, humanitar yardım proqramlarının həyata keçirilməsi və bu dəhşətli insanlıq faciəsinin sona çatması üçün lazım olan bütün addımların atılması bəşəriyyətin tələbidir.

FƏSİL 22

# Seçki zəfəri Rohinca xalqına nə gətirəcək?

## Seçim zəfəri Rohinca xalqına nə gətirəcək?

Bu məqalə, "New Strait Times" qəzetində 20 noyabr 2015-ci il tarixində yayımlanmışdır.

Myanma xalqının dramı 2012-ci ildə reallaşan qarşıdurmalardan sonra getdikcə artdı. Rohinca müsəlmanları bir soyqırım ilə üz-üzə qaldılar, köhnə gəmiləri ilə ölkələrindən qaçmaq istəyərkən adalarda tərk edildilər, Myanma vətəndaşlığından çıxardılıb insani haqlarından məhrum buraxıldılar. Rohinca müsəlmanlarının bu yaşadıqlarını bilənlər, keçdiyimiz həftə Myanmada reallaşan ümumi seçkilərin də bu insanlar üçün hansı məna verdiyini anlaya bilərlər.

Myanma, təxminən 50 il davam edən xunta rejimindən gəlmiş bir ölkədir. 2010-cu ildəki seçkilər, bu hərbi rəhbərliyə sözdə son vermiş olsa da iqtidar partiyasına dəstək verən xuntanın varlığı ölkədə hər zaman hiss edilir. Keçdiyimiz həftə baş verən 2015-ci il seçkiləri isə, Nobel mükafatlı müxalif lider Aung San Suu Kyinin liderliyindəki NLD-in böyük müvəffəqiyyəti ilə nəticələndi. Bu böyük müvəffəqiyyətə baxmayaraq, ölkədəki sistemin tam mənası ilə demokratik olduğu deyilə bilməz. Çünki məclisə girəcək millət vəkillərinin 75%-ni xalq təyin edərkən, qalan 25%-i ordu tərəfindən təyin edilir. Bu səbəbdən məclisə girən lider partiyanın məclisdən qanun keçirə bilməsi, yeni islahatlar edə bilməsi qeyri-mümkün görünür. Hər yenilikçi hərəkətə ordunun mütləq veto ilə cavab verəcəyi aydın ola bilir.

Suu Kyi, əslində 1990-cı il seçkilərindən zəfərlə çıxmış olan liderdir. Parlamentdə 80%-lik əksəriyyəti qazanmış olmasına baxmayaraq xunta o tarixdə seçki nəticələrini tanımamış və Susu Kyini ev həbsinə məhkum etmişdi. Susu Kyi, 2015-ci ilə qədər, tam 15 il ev həbsində qaldı.

Hal-hazırda xunta hakimiyyəti sözdə sona çatmış olsa da Susu Kyinin bu müvəffəqiyyətinin təkrar bir zərbə ilə qarşılıq görə biləcəyinə dair narahatlıqlar var. Ölkəni 2011-ci ildə xunta rejimindən qurtaran Thein Sein, “Seçicilərimizin verdiyi qərarı qəbul etməliyik” desə də bir çox analistə görə əsgər, ölkədə ortaya çıxan bu gözlənilməz nəticə üçün Seinin mülayim reformist fikirlərini məsul tutacaq və məmnuniyyətsizliyini hiss etdirəcək.

## Bu nəticələr Rohinca xalqı üçün nə məna kəsb edir?



Göydə də məbud, yerdə də məbud yalnız Odur. O, Müdrikdir, Biləndir. (Zuxruf surəsi, 84)

Seçkilərin əvvəlinə qayıdaq. 2012-ci ildə reallaşan və yüzlərlə Rohincalının ölümü ilə nəticələnən qarşıdurmalar sonrasında ölkədə yaşayan bir çox Rohinca müsəlmanı işlərindən və evlərindən edilib

qaçqın düşərgələrinə sürgün edildilər. Myanma hökuməti onların ölkə içində hərəkət etmələrinə, səhiyyə və təhsil kimi xidmətlərdən faydalana bilmələrinə maneə törətdi. Bu ilin əvvəlində isə hökumət, azlıq təşkil edən müsəlmanların Myanma vətəndaşı olmadıqlarını iddia edərək onların əllərindəki şəxsiyyət vəsiqələrini aldı. Məhz bu səbəblə Rohinca müsəlmanları, bu il noyabr ayında reallaşan seçkilərdə nə özlərini təmsil edə bildilər nə də səs verə bildilər. Myanma seçkilərində ilk dəfə parlamentdə bir müsəlman belə yoxdur.

Rohinca xalqı isə, mövcud rəhbərliyin dəyişməsindən məmnun olmaqla bərabər Aung San Susu Kyiyə qarşı küskündürlər. Bunun ən böyük səbəbi, Susu Kyinin “Rohinca” ifadəsini istifadə etməkdən çəkinməsi, seçki gəzintiləri əsnasında ölkənin şimalında bir çox Rohincalının yaşadığı bölgəni ziyarət etməyi rədd etməsidir. Rohinca mövzusu gündəmə gəldiyində isə verdiyi xoşagəlməz cavab nəzərlərdən qaçmamış və azlıq hüquqları mövzusunun “olduqca həssas bir mövzu” olduğu və “çox diqqətli” şəkildə ələ alınması lazım olduğunu ifadə etmişdir.

Bir çox Rohincalı üçün bu xoşagəlməz cavab ölkədəki buddistlərin səsini azaltmamaq üçün izlənilmiş siyasi üsul olaraq qəbul edilib tənqid olunur. Ölkənin ümumi vəziyyəti çöldən və bir bütün olaraq analiz edildiyində isə, bu siyasi manevrin əslində fərqli mənaları ola biləcəyini diqqətə almaq lazımdır.

Xuntanın hakimiyyətindəki bir ölkədə tarazlıqları təmin etmək və xuntanın istəmədiyi seqmentlərin hüquqlarını müdafiə etmək həmişə olduqca çətindir. Myanma kimi, xunta hakimiyyətinin praktikada sona çatmadığı, şiddət və işgəncələrdən çəkinməyən ölkələrdə isə, ölkədəki dalğalanmaları daha çox artıracaq riskli cəhdlərdən uzaq dayanaraq hüquq müdafiəçiliyi etmək daim ən ağıllı üsul olmuşdur. Suu Kyinin seçki əvvəli Rohinca haqlarına vurğulaması vəziyyətində, hərbi reaksiya ilə

qarşılaşması qüvvətli ehtimaldır. Ölkənin şərtləri nəzərə alındığında, Suu Kyinin seçki qabağı fərqli bir taktika mənimsəməsi bu mənada qəribə qarşılanmamalıdır.

Bu mövzudakı tənqidləri haqlı və ya haqsız çıxaracaq faktor, Susu Kyinin bundan sonrakı strategiyasının nə olacağıdır. Hər nə qədər partiyasının xunta konstitusiyası xaricində hərəkət etmə və dolayısilə ciddi islahatlar etmə kimi bir gücü olmasa da ölkə içində haqsızlıq və soyqırımın qarşısını alma və mövzunu beynəlxalq cəmiyyətə daşıya bilmə imkanı genişlənmişdir. Suu Kyi ağıllı bir siyasət ilə Myanmada yaşanan və BMT tərəfindən də rəsmi olaraq qəbul edilmiş soyqırımın, beynəlxalq cəmiyyətin həmişə gündəmində olmasını təmin edə bilər. Myanma üçün çözüm ən praktik mənada, beynəlxalq ictimaiyyət ilə mümkün ola bilər.

Seçkiyə qədər olan müddətdə Rohinca xalqının həyatında bir dəyişiklik olmadığını da bura əlavə edək. BMT, 2015-ci ildə yanvar-iyun ayları arasında dənizdə 370 Rohincalının həyatını itirdiyini ifadə etdi. Lakin Beynəlxalq Əfv Təşkilatına (Amnesty International) görə bu rəqəm bilinəndən daha artıqdır. Şahidlər, sahillərdən sıralarla düzülmüş gəmilərin ayrıldığını lakin bunların sadəcə bir neçəsinin İndoneziya və Malayziya sahillərinə çatdığını ifadə edirlər. Yəni Rohincalıların dramı səssiz sədasız davam edir.



Ümid edirik bu yeni dövr, təzyiq altında tutulan, bütün insani haqları əlindən alınan və soyqırıma uğrayan Rohinca xalqı üçün xeyirli bir dövr olar. Bizlər də bu müddət ərzində, onlar adına bu sətirlərdən səsimizi eşitdirməyə və dua etməyə davam edəcəyik.

FƏSİL 23

# Myanma müsəlmanları üçün bütün dünyanın hərəkətə keçmə vaxtı

## Myanma müsəlmanları üçün bütün dünyanın hərəkətə keçmə vaxtıdır



Bu məqalə, “The Jakarta Post” isimli günlük qəzetdə 22 noyabr 2015-ci il tarixində yayımlanmışdır.

Myanmada keçən həftə edilən 2015-ci il ümumi seçkilərinin rəsmi nəticələri açıqlandı. Nobel mükafatlı San Suu Kyinin liderliyini etdiyi müxalifət partiyası Milli Demokratiya Birliyi (NDL) parlamentdəki 664 kreslonun 348-ini qazandı və ölkəyə önümüzdəki dövrdə prezidentlik edəcək olan adı tək başına təyin edəcək çoxluğu əldə etdi.

Bu nəticəsini demək olar ki hər kəs onsuz da təxmin edirdi. Əsas bilinməyən və maraqlı məqam bundan sonra ölkədə nələrin baş verəcəyi idi. Çünki ölkəni 1962-ci il hərbi çevrilişindən bu yana dəmir yumruqla idarə edən ordunun seçki nəticələrini tanıyıb tanımayacağı məchuldur. Tanısa belə 15 il ev həbsində tutduğu müxalifət lideri Aung San Suu Kyi ilə necə bir əlaqə yaradacağı müəyyən deyil. Görəsən ordu 1990-cı il seçkilərində etdiyi kimi "Seçkiləri tanımıram" deyəcək? Yoxsa iqtidarı tanıyacaq.

İşin doğrusu, kim iqtidarda olursa olsun, Myanmanın rejimində və siyasətlərində qısa müddətdə hər hansı bir dəyişikliyin olması o qədər də mümkün deyil. Çünki, Parlamentin 25%-ni avtomatik olaraq əsgərlərə təyis edən Myanma Konstitusiyası generalların təsdiqləmədiyi heç bir dəyişikliyin həyata keçməsinə icazə vermir. Bu səbəblə yeni başçı və yeni hökumət, əsgərlərin çəkdiyi rotanın sərhədləri daxilində getmək məcburiyyətində olacaq.

Şübhəsiz, rejimin dəyişdirmək istəmədiyi şeylərin başında bu ölkədəki müsəlmanların tragediyası gəlir. Çoxluqla Rakhine əyalətində yaşayan və "Rohincalılar" adı ilə bilinən müsəlmanlar, ən təməl sığınma, sağlamlıq, təhsil, səyahət etmə, evlənmə, uşaq sahibi olma, seçmə-seçilmə hüquqlarından məhrum vəziyyətdədirlər.

Bu da azmış kimi, buddist görünüşlü kommunist qrupların cinayət, təcavüz, qəsb, şiddət hərəkətləri ilə icra etdikləri etnik təmizliyə məruz qalırlar. Bəzən rəsmi dövlət adamlarının təşkil etdiyi bu insanlıqhücumlardan qaçan yüz minlərlə müsəlman, gəmilərlə qonşu ölkələrə sığınırlar. Minlərləsi də bu hücumlarda və ya qaçarkən həyatlarını itirirlər. Başda 4 milyon olan müsəlman əhali, toplu qırğınlar və hücumlardan sonrakı köçlər nəticəsində bu gün 1-1,5 milyona düşmüş vəziyyətdədir.

## “Human Rights Watch”ın Myanma hesabatı nə ifadə edir?

Müstəqil insan haqları quruluşu “Human Rights Watch”ın 153 səhifəlik, 22 aprel 2013-cü il tarixli Myanma hesabatında, müsəlmanları hədəf alan üsyanlar üçün “etnik təmizlik”, “insani böhran”, “insanlığa qarşı cinayət” olaraq müəyyən edildi. Hesabatda müsəlmanların toplu məzarlara basdırıldıqları, rəsmi dövlət adamlarının məscidləri korladıqları, toplu nəzarətlər etdikləri, şiddət istifadə etdikləri, insani köməklərə maneə törətdikləri, mülki xalqa qarşı sistematik hücumlar etdikləri ifadə edildi.

Yale Universiteti hüquq fakültəsi tərəfindən hazırlanan 2015-ci il oktyabr ayı tarixli hesabatında isə Rakhinedə yaşananlar “soyqırım” olaraq təyin olundu və bu soyqırımın hal-hazırda davam etdiyi ifadə edildi. 1948-ci il tarixli BMT Soyqırım Müqaviləsinin ən az 3 nöqtədən pozulduğunu ifadə edən hesabat, problemə Təhlükəsizlik Şurasının dərhal əl qoyması lazım olduğunu söylədi.

Myanmada yaşananlar uzun vaxtdan bəri Birləşmiş Millətlər Təşkilatının nəzarətindədir. BMT İnsan Hüquqları Şurası, Myanma haqqında 5 ayrı hesabat nəşr edərkən, BMT Ümumi Təşkilatı da 15 ayrı qərar imzaladı. Bunlardan ən sonuncusu olan 24 fevral 2014-cü il tarixli qərarda “səbəbsiz həbslər, məcburi köç, təcavüz, işgəncə, dini və etnik ayrı-seçkilik, şiddət, beynəlxalq insancıl hüquq pozuntusu...” şəklində ifadələr istifadə etdi.

Bunu arxasınca, BMT Təhlükəsizlik Şurasının 29 may 2015-ci il tarixli yığıncağında Myanma problemi müzakirə olundu. Daimi üzvlər Çin və Rusiya, Myanmada yaşananların bu ölkənin daxili məsələsi olduğunu, dünya sülhünü və təhlükəsizliyini təhdid etmədiyini müdafiə edərək bu

ölkəyə sanksiya tətbiq olunmasına qarşı çıxdılar. Onların vetoları səbəbi ilə də Şura heç bir qərar ala bilmədi.

Halbuki bu veto səbəbi hüquqi dayaqdan məhrumdur. BMT Razılaşması ön sözdə "insanın konstitusiya hüquqlarına, insanın təməl şərəf və dəyərlərinə" vurğu etdikdən sonra "məqsədlər və qanunlar" başlıqlı 1-ci maddəsində "bütün dövlətlərin irq, cinsiyyət, dil və ya din ayrı-seçkiliyi etmədən hər kəs üçün insan haqlarına və təməl azadlıqlarına hörməti inkişaf etdirib gücləndirmə"ni BMT-nin təməl məqsədləri arasında sayar. Məhz bu səbəblədir ki, BMT Təhlükəsizlik Şurası bir ölkəyə sanksiya tətbiqinin ön şərti olan "beynəlxalq sülhü təhdid" anlayışını "bir başqa ölkəyə silahlı hücum"dan ibarət saymaz.

Şura bir ölkənin öz sərhədləri daxilində meydana gələn soyqırımı (1994-cü il Ruanda qərarı), etnik təmizliyi (1991-ci il İraq qərarı), yüksək mal və can itkilərini (1992-ci il Somali qərarı), yüksək mülki itkiləri (1994-cü il Ruanda qərarı), böyük insan hüquqları pozuntularını (1993-cü il Haiti qərarı), irq ayrı-seçkiliyini (1977-ci il Cənubi Afrika qərarı) "beynəlxalq sülhü təhdid" olaraq qəbul edər.

Myanmada isə bütün bunların hamısı vardır. Hal belə ikən beynəlxalq sülhün təhdid edilmədiyini qarşıya qoymaq həm məntiqə, həm vicdana, həm də bütün bu BMT qərarlarına ziddir.



## “İnsani müdaxilə” anlayışı Myanmadakı soyqırımı dayandıra biləcəkmi?

Hüquqda “jus cogens” olaraq adlandırılan soyqırım qadağası, işgəncə qadağası kimi üstün hüquq qaydaları, beynəlxalq sənədlərdəki normaların üstündədir. Bu təməl qanundan yola çıxaraq əvvəl Avropa Parlamenti (1944-cü il) sonra da BMT (1965-ci il Rodezya qərarı) “insani müdaxilə” anlayışını qəbul etmişdir. Əgər bir dövlət öz xalqına qarşı bu qaydaların gərəyini yerinə yetirmirsə o zaman beynəlxalq ictimaiyyət bunu yerinə yetirəcək.

Məsələn Kosova Vətəndaş müharibəsi əsnasında müsəlmanlara istiqamətli etnik təmizliyi dayandırmağı hədəf alan BMT qanunları Rusiya və Çin tərəfindən vetolarla maneə törədilən kimi, NATO “insani müdaxilə” daxilində hərəkətə keçmiş və heç bir BMT qərarı olmadan müdaxilə edərək o zülmü dayandırmışdır.

Myanmada xroniki bir hal almış olan və getdikcə dərinləşən tragediyanı da ancaq beynəlxalq ictimaiyyətin dayandıra biləcəyi çox açıqdır. Əgər adi yollar nəticə verməsə, “insani müdaxilə” kimi fövqəladə yollar insanlıq adına dövrəyə salınaraq Myanmadakı soyqırım dayandırılmalıdır.

Belə bir müdaxilə üçün hüquqi infrastruktur mövcud olduğu kimi, aqressiv olan beynəlxalq ictimaiyyət də artıqlaması ilə hazırdır. Ediləcək tək şey, BM Ümumi Təşkilatını təcili yığıncağa çağırmaq və “sülh üçün birlik” qərarı çıxarmaqdır. Bu tövsiyə qərarı yönündə aidiyyatı ölkələr tərəfindən gərəyi ediləcəkdir.

FƏSİL 24

# İnsan hüquqları bəyannamədə var, amma həyatda yoxdur

## İnsan hüquqları, sənəd üzərində var amma həqiqi həyatda yoxdur



Bu məqalə, "Harakah Daily" qəzetində 19 dekabr 2015-ci il tarixində, eyni zamanda "Morocco World News" xəbər saytında 23 dekabr 2015-ci il tarixində yayımlanmışdır.

Bütün insanların doğuşdan azad və bərabər olduğu prinsipi üzərinə hazırlanan İnsan Haqları Universal Bəyannaməsi, 10 dekabr 1948-ci il tarixində Birləşmiş Millətlər Təşkilatında qəbul edildi.

Bu bildirişlə milyonlarla günahsız insanın həyatını itirdiyi 1-ci və 2-ci dünya müharibəsi kimi fəlakətlərin bir daha yaşanmaması; siyasi mənfəət və hesablarını reallaşdırmada heç bir maneə tanımayan, hər cür hüquqi maneəni, şiddət və güc tətbiq edərək keçməyi məqbul görən, güc sahibi liderləri dayandıracaq bir mexanizmin qurulması məqsəd qoyulurdu.

Ancaq aradan keçən 67 ilə baxmayaraq, dünyanın ümumi mənzərəsi bildirişin hədəf etdiyi modelin tam zidd istiqamətində inkişaf edir. Dünyanın bir çox ölkəsində insan haqları pozuntuları son hədd mərhələyə çatmış vəziyyətdə. Orta Şərq bu pozuntuların ən çox yaşandığı yerlərin başında gəlir. İnsan haqları müdafiəçiləri demək olar ki, hər gün bu bölgələrdəki insanlıqdan kənar hadisələri məruzə edirlər.

Bu hesabatlarda dünyada insan hüquqları pozuntularının ən çox yaşandığı 11 ölkə yuxarı sırada durur. Bu ölkələr pozuntuların şiddətinə görə axırdan əvvələ doğru; Nigeriya, Yəmən, Myanma, Şimali Koreya, İraq, Əfqanıstan, Somali, Pakistan, Konqo Demokratik Respublikası, Sudan və Suriya.

Yenə bu hesabatlarda xüsusilə son dövrdə müharibələrdə mülki şəxslərdən itkin düşənlərin; məskunlaşma bölgələrinə soyuqqanlılıqla atılan bombaları, havan topu, raket, barel bombaları və ballistik mərmi kimi ölümcül silahların partlaması nəticəsində meydana gəldiyinə diqqət çəkilir. Son iki il ərzində məskunlaşma bölgələrinə atılan bu cür partlayıcı silahlardan on minlərlə günahsız insanın öldüyü ya da şikəst qaldığı bildirilir. Bu rəqəm hər keçən gün daha da artır.

## İnsan hüquqları pozuntuları hesabatları nəticəsiz qalır?

İnsanlıq adına böyük bir utanc olaraq qəbul edilən bu qırğınların, bütün dünyanın gözləri qarşısında ən son sürəti ilə işlənməyə davam etdiyi ölkələrin başında isə Suriya gəlir.

Beynəlxalq rəqabət, mənfəət və mübarizələrin nəticəsində müharibə sahəsinə dönən Suriyada, 5 ildir ən zalım və mərhəmətsiz ölçülərdə davam edən döyüşdə, ağır yaralılar xaric, 300 mindən çox insan həyatını itirdi. 7 milyon insan evlərini tərk etmək məcburiyyətində qaldı və bunların 4 milyonu xarici ölkələrdə qaçqın, 14 milyonu isə öz ölkəsində insani köməyə möhtac hala gəldi. Zəruri köçə məruz qalan məzlum Suriyalılar üçün isə, Aralıq dənizi sanki immiqrantların toplu şəkildə həyatlarını itirdikləri bir ölüm tələsinə çevrildi.

644 səhifəlik “2015 Dünya Hesabatı”nda “Human Rights Watch”, 90-dan çox ölkədəki insan haqları pozuntularını araşdırdı.

Senat CIA üçün 6000 səhifəlik işgəncə və savaş cinayətləri hesabatı hazırladı. Bu hesabata görə, yaxın tarixdə təhlükəsizlik qüvvələrinin xüsusilə zənci seqmentə tətbiq etdikləri nisbətsiz təzyiq istifadəsi, pis rəftar və cinayətlərlə ABŞ dövləti insan haqlarını göz ardı edən başlıca ölkələrdəndir.

Son illərdə xüsusilə Şərqi Türküstan bölgəsindəkı ordu və təhlükəsizlik qüvvələrinə görə itkin düşmələr, faili məchullar, işgəncə və mühakiməsiz edamlarla Çinin vəziyyəti də çox fərqli deyil.




Eyni hesabatda Misirdəki insan hüquqları pozuntularının, ölkənin müasir tarixindəki ən ciddi insani böhran olduğu və bunun hələ də bütün şiddəti ilə davam etdiyi ifadə edilir. Bilindiyi kimi, Misirdə 3 iyul 2013-cü il hərbi çevrilişi sonrasında minlərlə insan həyatını itirmişdi. Ölkədə rəhbərlik əleyhdarlarına istiqamətli həbslər, uzun həbs müddətləri və işgəncələr hələ də sürətini kəsmədən davam edir.

On illərdir dəhşət verici zülm, təzyiq və ayrı-seçkiliyə məruz qalan Rohinca xalqının vəziyyəti də dünya hesabatında yer alır. Myanmanın qərbindəki Arakan əyalətində, 2012-ci ildəki şiddət hadisələri sonrasında yaşadıqları bölgəni tərk edən 140.000 Rohinca müsəlmanına istiqamətli sistemli təzyiqin, bu gün də eyni şəkildə davam etdiyi bildirilir. Banqladeş sərhədindəki Maungdaw və Buthidaung şəhərlərindəki təxminən 1.000.000 Rohincalı həyat haqları, iş əldə etmə və dini azadlıqlar mövzusunda saysız məhdudlaşdırmalarla qarşı-qarşıyadır.

Bənzər şəkildə, 2015-ci ili ərzində müxtəlif Avropa ölkələrində immiqrantlara qarşı sərgilənən və Hitler dövrünü xatırladan ayrı-seçici, mərhəmətsiz və dözülməz davranışlar, insan hüquqları və demokratiya liderliyi etməyə çalışan Qərbin bu mövzudakı səmimiyyətini sorğulamağa vadar etdi. 13 noyabr Paris hücumlarından sonra Fransanın Avropa Şurasına, "təcili vəziyyət" səbəbi ilə insan hüquqları mövzusundakı məsuliyyətlərini təxirə salacağına dair etdiyi rəsmi müraciət isə son dərəcə narahatlıq vericidir.



## Dünyadakı nifrət, müharibə və savaşlar dərhal tərk edilməlidir

Yuxarıda ancaq bir hissəsindən nümunələr verdiyimiz insanlıq cinayətləri dünyanın demək olar hər yerini əhatə etmiş vəziyyətdədir. Şiddətini artıraraq da davam edir. Hüquq pozuntuları ilə zalım tətbiq və sanksiyalardan qaynaqlanan bu zərər çəkənlərin yanında laqeydlik, biganəlik, əhəmiyyətsizlik və ədalətsizlik səbəbi ilə dünya daxilində zərər çəkmiş olan ac, yoxsul, sığınacaqsız və səfalət içindəki insanların sayıları da yüz milyonlarla ifadə edilir.

Halbuki dünyamız ümumi qaynaqları və iqtisadi zənginliyi ilə, üzərində yaşayan insanları, hətta daha da çoxunu rahatlıqla və ən gözəl şəkildə məskunlaşdıra biləcək bir tutuma sahibdir. Ancaq eqoizm, dünyəvi ehtiraslar, narahatlıqlar, mənfəət savaşları, sevgi, şəfqət və gözəl əxlaq əksikliyi, milyonlarla məzlum insanın zərər görməsinə gətirib çıxarır.

İnsan Hüquqları Bəyannaməsini imzalayan BMT-nin, əsas belə bir dövrdə bu hüquqlara sahib çıxıb qoruması lazımdır. Halbuki BMT şiddəti tarixi ölçülərə çıxmış dünya səviyyəsindəki insanlıq cinayətlərinə, ancaq cılız bəzi qınamalar xaricində elə də bir çözüm gətirə bilmir. Görünən odur ki, BMT güc sahibi bir neçə dövlətin mənfəətlərini qanuniləşdirmə rolu xaricində, insanlığa qatqı mənasında tamamilə simvolik və funksiyasız bir mexanizmə çevrilmiş vəziyyətdədir. İnsan hüquqlarını qoruma missiyasını yüklənmiş BMT kimi əhəmiyyətli bir təşkilatdan bütün dünyanın gözlədiyi isə, prioritetliyi və təcili olaraq bu mövzuda həqiqətən qeydə dəyər, konkret və çözüm gətirici addımlar ata bilməsidir.

İnsanlıq artıq ən təcili şəkildə kin, qəzəb, şiddət, müharibə və döyüşlərdən, nifrət əlaqələrindən təmizlənmiş yeni bir modelə

möhtacdır. 10 dekabr İnsan Hüquqları Günü vəsiləsi ilə bir dəfə daha bütün insanların sülh, hüzur, xoşbəxtlik, ədalət və sevgi dolu, hüquqlarının tam qorunduğu insanlıq qüruruna yaraşan bir dünyaya ən qısa zamanda qovuşmasını diləyirik.



## Zülmün səbəbi müsəlmanların sahibsiz olmasıdır

Bu gün İraqda, Suriyada, Liviyada, Misirdə, Əfqanıstanda və dünyanın bir çox bölgəsində müsəlmanlar hücuma, təcavüzə məruz qalır, köç etməyə məcbur edilir ya da qətl edilir. Köç etməyə məcbur edilənlərin də böyük hissəsi yollarda həlak olurlar. Köç etməyə məcbur edildikləri üçün, Egey dənizində boğulan balaca, günahsız uşaqların fotoşəkilləri hələ də gözlərəmizin qarşısındadır. Belə bir tablonu şübhəsiz heç bir səmimi müsəlman qəbul edə bilməz. Sanki bu hadisələrin heç biri onu maraqlı deyilmiş kimi heç vaxt arxasını dönüb gedə bilməz. Hər müsəlman bu gedişata "dur" deməklə məsuldur. Əvvəlcə, müsəlmanların bir-birlərinə sahib çıxmaları və tezliklə birlik olaraq zülmə etiraz etmələri Allahın bizə Quranda bildirdiyi fərzdir:



> *Sizə nə olub ki, Allah yolunda və: "Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!" – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?"*
>
> **(Nisa surəsi, 75)**

Diqqət yetirilsə Avropanın bir şəhərində tək bir insan öldürülsə bütün dünya ayağa qalxır, ancaq milyonlarla müsəlmanın qətl edilməsi dünyada dərin bir səssizlikdən başqa bir təsir meydana gətirmir. Müsəlmanlar, dünyanın böyük bir hissəsi tərəfindən dəyərsiz görülür. Hətta, heyvanlar üçün göstərilən maraq və şəfqət belə, bəzən müsəlmanlar üçün göstərilmir. Görəsən bu vəziyyətin günahkarı ya da məsulu kimdir? Niyə bu gedişata "dur" deyilə bilmir və getdikcə artan sürətlə bu zülm böyüyür.



Bu gedişatın məsulunu və səbəbini əlbəttə ki, əvvəlcə müsəlmanlar arasında axtarmaq lazımdır. Çünki, Allah zülmün ancaq "birlik olmaqla" sona çatacağını bildirmiş ikən, müsəlmanların çox böyük hissəsi Allahın bu əmrini göz ardı edir. Bəziləri sanki onlardan başqa doğru yolda olan müsəlman birliyi yoxmuş kimi davranır. Hətta bəziləri də bir-birlərini düşmən olaraq görür. Buna görə də heç bir zaman həqiqi mənada birlik ola bilmirlər. Məsələn Avropada bir çox məscid fərqli qrupların hakimiyyəti altında istifadə edilir. Bu səbəbdən bir müsəlman, istədiyi kimi hər hansı bir məscidə gedə bilmir; mütləq öz inancına uyğun kəslərin, öz daxil olduğu müsəlman birliyin olduğu məscidə getməsi lazımdır. Bu acı həqiqət belə, müsəlmanların əsrlərdir niyə bir-birindən ayrı, zəif və gücsüz olduğunun açıq göstəricisidir. Ən əhəmiyyətlisi də, Allahın "qardaş olduqlarını" bildirdiyi müsəlmanların bu ayrılığı, Allahın razı olmayacağı bir əxlaq olduğu üçün, bu vəziyyət bərəkətsizlik, kədər və çətinliklərə gətirib çıxarmaqdadır. Allah Quranda, birlik olmamağın necə nəticələnəcəyini belə açıqlamışdır:

> *"Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər."*
>
> **(Ənfal surəsi, 73)**



## 1,5 milyardlıq İslam dünyası və ixtilafların sona çatması

Birlik bir tərəfə, hal-hazırda dünyanın bir çox yerində müsəlmanların ən böyük düşmənləri də yenə bəzi müsəlmanlardır. Bu gün yer üzündə qətl edilən müsəlman sayına baxdığımızda, bu sayın 90%-i müsəlmanların əli ilə reallaşdığını görürük. Dünyanın əsas böhran və müharibə zonalarına baxdığımızda da bunların müsəlman torpaqları olduğunu və o sahələrdə bir-biri ilə var gücü ilə döyüşən, bir-birini qətl edənlərin də yenə müsəlman birlikləri olduğunu görürük.

Yer üzündə təxminən 1,5 milyard müsəlman yaşayır. Müsəlman ölkələr olduqca geniş iqtisadi və hərbi imkanlara sahibdirlər. Müsəlmanlar aralarındakı ixtilafları bir kənara buraxıb bir araya gəlsələr, həm maddi, həm də mənəvi baxımdan dünyanın ən böyük gücünü meydana gətirərlər. Bu elə bir gücdür ki, bu gücün mində biri belə istifadə edilsə yer üzündə ac-susuz, köməyə ehtiyacı olan müsəlman qalmaz. Ancaq müsəlmanlara deyil, Quran əxlaqının gərəyi olaraq, dünyanın dörd bir tərəfindəki hər inancdan, hər fikirdən insana kömək əli uzadılar. Bu birliyin gücü ilə insanlığın yaşadığı bütün çətinliklərə çözüm gətirilə bilər.

Məhz belə gözəl bir nəticə üçün isə əvvəlcə, müsəlmanların məzhəb, məşrəb fərqi güdmədən və heç bir böyüklük hissinə qapılmadan, Allahın fərz etdiyi bu əhəmiyyətli ibadəti yerinə yetirmələri və birlik olmaları lazımdır. Bu günə qədər yaşanan dərdlər göstərmişdir ki, bu müddət nə qədər uzadılsa, acılar da artaraq böyüyəcək və daha qorxunc nəticələr meydana gələcəkdir. Əlbəttə ki, bunun günahı da bu çağırışa qeydsiz qalan, öz aralarındakı ixtilaflarla məşğul olan müsəlmanların boynuna olacaq.

## Üstünlük birlik olmaqdadır

Dünyada da, axirətdə də bu cür böyük bir məsuliyyətin altında qalmaqdan çəkinən bütün müsəlmanların əvvəlcə “böyüklük” və “üstünlük” iddiasından imtina etmələri lazımdır. Sonrasında isə müsəlman qardaşlarına müxalif olmalarındakı səhvi görmələri əsas şərtdir. Allahın əmrini yerinə yetirmək üçün niyyət etməli; birlik və birliyi pozacaq ixtilaflı fikirlərdən uzaqlaşmalıdırlar. Bu gün üstünlük “birlik” olmaqdadır. Bu, Allahın müsəlmanlara açıq bir əmridir. Bu səbəblə bunun qarşısında heç bir maneə ola bilməz. Hal-hazırda dünya qarmaqarışıqlıq içindədir. Milyonlarla günahsız müsəlman zülm altındadır. Necə ki, bir yerdə ev yanırsa, heç kim evdəki masanı, mebeli qurtarmağa çalışmaz, əvvəlcə insanların canını xilas etməyə çalışsa; indi dünyada belə bir zülm olsa da, müsəlmanların əvvəlki məsuliyyəti, bütün digər mövzulardan əvvəl bu birliyi meydana gətirmək üçün səy göstərmək olmalıdır.

Şübhəsiz ki, bu vəziyyətdə ağla gələn sual bu olacaqdır: “Yaxşı bəs müsəlmanlar necə bir araya gələcəklər?”. Bu birlik əlbəttə rəsmi, saxta birlik olmayacaq. Necə ki, bu çox sınanmış və bu təşkilatlar bir nümayişdən uzağa gedə bilməmişdir. Məsələn son dövrdə İranda təşkil edilən birlik konfransında şiələr və sünnilər ayrı-ayrı, öz məzhəblərinə bağlı imamların arxasında namaz qılmışlar. Bu səbəbdən sözdə birlik üçün bir araya gəldikləri bir mühitdə, ayrılıqlarını açıqca ortaya qoymuşlar.

Bu bilinməlidir ki: müsəlmanlar ancaq rəsmiyyətdən uzaq, səmimi, sevgi dolu bir mühitdə bir araya gələ bilərlər. Bu vəziyyətdə, müsəlmanların birlik olması üçün gediləcək yeganə yol; hər seqmentdən müsəlmanın sözünə, səmimiyyətinə, fərasətinə, sevgisinə, qardaşlığına, məlumatına

tam güvənə biləcəyi və heç bir seqmentə bağlı olmayan, tərəfsiz, ədalətli bir müsəlmanı mənəvi lider olaraq seçmələridir. Çünki, bir baş olmadan heç bir zaman bir birlikdən bəhs edilə bilməz. Məhz o adam, böyük müsəlman birliyinin lideri olacaq. Beləliklə, müsəlmanlar artıq sahibsiz olmayacaq, mənəvi olaraq bağlı olduqları bu insana çox dəyər verəcək və onun sözlərini sevərək tətbiq edəcəklər.

## Müsəlmanların mənəvi lideri olduğunda nələr olar?

Bilinən, ilk ağla gələn öncəlikli mövzuları sıralayaq:

Müsəlmanlar fərqli fikirdə də olsalar, bütün problemlərini bir-birləri ilə döyüşmədən, şiddət istifadə etmədən, sevib saydıqları liderləri ilə məsləhətləşərək asanlıqla öz aralarında həll edərlər.

Böyük bir sevgi mühiti meydana gələr, bütün müsəlmanlar qaynaşar, güvən və hüzur mühiti yaşanar. Beləliklə müsəlman dünyasında hər sahədə böyük bir potensial ortaya çıxar; elm, incəsənət, iqtisadiyyat maksimum inkişaf edər, bolluq və rifah mühiti meydana gələr.

Müsəlmanlar arasında keyfiyyət, müasirlik, sevgi, şəfqət və ədəb artacağı üçün Xristian və Yəhudi cəmiyyətlərlə də yaxşı əlaqələr qurular.

Dünyanın harasında olursa olsun, heç kim sahibsiz gördüyü üçün müsəlmanların haqlarına hücum edə bilməz; çünki belə bir vəziyyətdə, haqq və hüquq ilə özünü müdafiə edəcək, bir-birinə çox bağlı böyük bir gücü qarşılarında görəcəklərini bilərlər.

Birlik içində olan müsəlmanların arasına xarici dərin dövlət mənsubları ayrılıq, döyüş toxumları əkə bilməz. Hər fitnə, müsəlmanların mənəvi lideri tərəfindən söndürülər. Beləliklə müharibə tacirlərinin müsəlman qanı ilə bəslənməsinə də maneə törədilər.

Nümunələrinə tez-tez rast gəldiyimiz kimi, yer üzündə işlənilən hər hansı bir cinayətin müsəlmanlara aid edilməsi surəti ilə müsəlman qırğını başladıla bilməz. Çünki müsəlmanlar, Quran əxlaqının gərəyi olaraq, cinayətə və şiddətə qəti olaraq qarşı olan liderlərinin sözündən çıxmazlar. Beləliklə, heç bir təxribata da imkan tanınmamış olar.

İndi də “bu mümkündürmü?” sualına belə cavabı verə bilərik: Əlbəttə ki, mümkündür. Çünki, bu Allahın Quranda fərz etdiyi və yerinə yetirildiyində yer üzünə güvən və hüzurun hakim edəcəyini müjdələdiyi böyük bir ibadətdir.

5 FƏSİL

# Unutdurulan Rohinca müsəlmanları kömək gözləyir








1
2
our enemies
Condemn supporters of



Bu məqalə "New Straits Times"ta 16 fevral 2016-cı il tarixində yayımlanmışdır.

Myanmada 2015-ci ilin noyabr ayında keçirilən seçkilərdə müxalifət və demokratiya tərəfdarı, Nobel Sülh mükafatına layiq görülmüş lider Aung San Suu Kyinın qalib gəlməsindən sonra xuntanın da yer aldığı yeni parlamentin ilk iclası ötən günlərdə baş tutdu. Ölkənin tarixində ilk dəfə Myanma parlamentində müsəlman deputat yoxdur. 50 ildən çox vaxtdan sonra guya ilk demokratik parlamentin yaranması ilə yanaşı, Suu Kyinin seçki dövrü ərzində rohincalılardan heç bəhs etməməsi diqqət çəkicidir. Ancaq hökumət daxilində xuntanın hələ də varlığını davam etdirdiyini nəzərə alsaq, bunun vəziyyəti çətinləşdirməmək üçün edilən müvəqqəti bir davranış olduğunu düşünmək yerində olar.

Bununla yanaşı, xunta rəhbərliyinin hələ də parlamentdə qəbul olunan qərarları blok edə biləcək sayda olması narahatlıq vericidir. Etnik məsələlərlə məşğul olan nazirliyin xuntanın əlində olması rohincalıların lehinə qərar qəbul olunmasının qarşısında böyük maneədir. Ölkədə hələ də rohincalılara qarşı aparılan ayrı-seçkilik davam edir. Hazırda 140 minlik rohinca xalqı düşərgələrdə saxlanılır və 1.3 milyonu isə humanitar yardım almasının qarşısı alınır.

Yale universitetinin 2015-ci ilin oktyabrında nəşr etdirdiyi 78 səhifəlik hesabatda Myanma hökumətinin radikal buddist qruplardan istifadə edərək rohinca müsəlmanlarına qarşı soyqırım həyata keçirməyə çalışdığını ortaya qoymuşdur. Rohinca müsəlmanları etnik mənşə və dini görüşlərinə görə hər gün işgəncələrə, həbslərə və təcavüzlərə məruz qalır.

Fiziki və psixoloji işgəncələrdən əlavə cəmiyyət tərəfindən təcrid olunan rohinca müsəlmanları, ictimai həyatda iştirak etmədikləri üçün iqtisadi gücləri yoxdur, əsas ehtiyaclarını təmin edə bilmir, təhsil və səhiyyə xidmətlərindən faydalana bilmirlər.

Məsələn, 14 yaşlı Məhəmməd ayağındakı sadə bir kəsiyə görə tetanus xəstəliyindən həyatını itirmişdir. Müalicəsi və qarşısının alınması çox sadə bir xəstəlik olmasına baxmayaraq, Məhəmməd yaşadığı düşərgədə müalicə ala bilməmişdir.

20 yaşlı Begüm həyatı risk yaratmayan hepatit-A virusundan ölmüşdür. Kiçik uşaqların və körpələrin həyatları aclıq səbəbindən təhlükədədir. 2012-ci ildən etibarən toplama düşərgələrinə məhkum edilən ailələr bank hesablarında pulları olsa belə bu pullarını əldə edə bilmir və ehtiyaclarını təmin edə bilmirlər. Düşərgələrdə yaşayan və ən əsas ehtiyaclarından məhrum olmuş şəkildə yaşayan hər yaşdan rohincalı açıq şəkildə ölümə tərk edilib.

Hərbi xunta rəhbərliyi yalnız rohincalılara deyil, hər cür fərqli etnik qrupa və fərqli düşüncəyə qarşı olmuşdur. Təkcə 2011-2014-cü illər arasında onlarla insan məhkəməsiz edam edilmişdir. Dövlət rohincalıları düşərgələrə göndərmək üçün torpaqlarını ələ keçirir. Bir başqa üsul kimi çox saylı vergi qoyulur və torpaqlarında yaşamaq istəyən insanların müqavimət göstərmə gücü qırılır.

Dövlətdən başqa monkların rəhbərlik etdiyi radikal buddist hərəkatları müntəzəm olaraq müsəlmanlara qarşı olduqlarını ifadə edən bəyanatlar verir və xalqı müsəlmanlara qarşı boykota çağırırlar. Ancaq bu insanların sülhsevər buddizm dininin nümayəndələri olması əlbəttə ki, mümkün deyil. Bunu, həyatını rohincalıların hüquqlarını qorumağa həsr edən qabaqcıl buddist ziyalılar və bəzi buddist rahiblər də açıq şəkildə dilə gətirirlər. Həmin üsyançıların buddizmlə əlaqəsi olmayan müxtəlif quldur dəstəsi olduğu aydındır. Həmin quldur dəstələri xalqa ev və nəqliyyat vasitələrinə yapışdıra biləcəkləri “müsəlmanlara qarşıyıq” stikerləri paylayırlar. Monklar bu zalım fəaliyyətlərini həyata keçirərkən dövlətə güvənir və etnik mənşəyi qorumaq üçün çıxarılmış qanunları

bəhanə edirlər. Myanma hökuməti isə müsəlmanlara qarşı aparılan bu kampaniyalara qarşı səssiz qalır.

Myanma hökuməti sanki rohincalıları unutdurmağa çalışır. Rohinca adından heç bəhs edilmir və bu insanların varlıqları tamamilə rədd edilir. İnsan hüquqları təşkilatlarının və mətbuatın rohincalılarla ünsiyyətin qarşısı mümkün olduğu qədər alınır. Rohincalıların varlığı rədd edildiyi kimi, səslərini eşitdirə biləcəkləri bütün imkanlar da əllərindən alınır. Son olaraq Myanmada 25 il sonra keçirilən ilk azad seçkilərdən əvvəl rohincalıların müvəqqəti vətəndaşlıq sənədləri ləğv edilmiş və seçkilərdə iştirak etmələrinin qarşısı alınmışdır.

Bütün bunlarla yanaşı, nəşr olunan onlarla soyqırım hesabatına baxmayaraq, beynəlxalq sülh və humanitar yardım təşkilatlarının konkret bir təşəbbüs irəli sürmədiklərini xatırlatmaq lazımdır. Hər şey göz qabağında olmasına baxmayaraq, yardıma möhtac rohincalılar üçün heç bir mübarizə aparılmır. Nə sülh mükafatlarına layiq görülən insanlar, nə də insan hüquqlarının müdafiəçisi olan Avropa dövlətləri təşəbbüs göstərir.

Xunta rejimi və radikal qruplar rohincalılara yalnız müsəlman olduqları üçün bu əziyyətləri edir. Müsəlmanlara qarşı edilən bu zülmə qarşı çox zəif səslər çıxır, tam cavab verilmir. Açıq şəkildə göründüyü kimi, rohincalılara qarşı edilən zülmə bütün müsəlman dövlətləri bir araya gələrək birlikdə müqavimət göstərməlidirlər.

Müsəlmanlar arasındakı həmrəylik şübhəsiz ki, Myanma hökuməti üzərində və beynəlxalq arenada böyük siyasi təzyiqə səbəb olacaq. Müsəlman dövlətlər sevgi və həmrəylik ətrafında birləşmək əvəzinə bir-biri ilə çəkişir və güclərini itirirlər. Bu çəkişmələrin nəticəsində bütün dünyada müsəlmanlara qarşı zülm və təzyiq davam edir.

Müsəlman dövlətlərin liderləri baş verən zülmə qarşı məsul olduqlarını unutmamalıdırlar. Sevgi və sülh əsas alınaraq fikri zəmində birgə iş aparılmalıdır. Həmçinin yeni qurulan hökumətin Obama ilə yaxın günlərdə görüşəcək olması bu kontekstdə əlamətdar hadisədir və çox böyük əhəmiyyət daşıyır. Həm müsəlman liderlər, həm də insan hüquqları təşkilatları, qeyri-hökumət təşkilatları, media və alimlərin Obamanın Aung San Suu Kyinın rohincalılar üçün təşəbbüs irəli sürməsi barədə rəy yaratması, bu məsələdə konkret addımların atılmasını təşviq etməsi həyati əhəmiyyət daşıyır. Ancaq bu şəkildə bütün dünyanın diqqəti zülmə məruz qalan müsəlmanların üzərinə çəkilər və uzunmüddətli həll yolu gətirilə bilər.

## İslam birliyi qurulduğunda Birmada və digər ölkələrdəki zülm bitər

Müxbir: Birləşmiş Millətlər Təşkilatı Birma xüsusi məruzəçisi Quintana; "Rohinca müsəlmanlarının sığındığı düşərgələrin həbsxananı xatırlatdığını" söylədi. Birmada reallaşdırdığı beş gündəlik araşdırmadan sonra müxbirlərə verdiyi müsahibədə, "ölkədə hələ də qanuni olmayan həbslərin, işgəncə və etnik ayrı-seçkililiyin sürdüyünü" ifadə etdi. "Təxminən 120 min müsəlmanın immiqrant düşərgələrində pis şərtlərdə yaşadığına" diqqət çəkən Quintana, "Müsəlmanların tibbi xidmət ala bilmədiklərini, bunun əsas səbəbinin isə bölgədəki buddistlərin həkimlərə mane olmaları olduğunu" dedi. Eyni zamanda "hökumətin immiqrant düşərgələrindəki insanların hərəkət azadlığını məhdudlaşdırdığını da vurğulayaraq, düşərgələrin həbsxanaya bənzədiyini" ifadə etdi.

Adnan Oktar: Bax İslam Birliyi olmadığı müddətcə, bu acıların ucu-bucağı olmaz. Bəziləri, "Ancaq buranı xilas edək kifayətdir; Fələstinin qurtuluşu, Suriyanın qurtuluşunu istəyirik." deyirlər. Qardaşım, bütün İslam aləmi qan ağlayır. Necə anlamazdan gəlirsiniz? İttihadı-İslam dəqiq həll yoludur. İsrail üçün də, Əfqanıstan, Rusiya üçün də çözümdür. Çünki burada qardaşlıq, sülh, sevgi, dostluq, yaxşılıq, gözəllik, elm, incəsənət, estetika hər şey var. Terrorun, müharibənin, anarxiyanın dayanması, silahların yer üzündən ləğv edilməsi vardır. Belə bir gözəlliyi bütün dünya istəyər, hər kəs istəyər. Bu səbəbdən bu mövzuda vaxt itirmək zülm olar, çox böyük səhv olar. (18 fevral 2013-cü il, A9 TV)

6 FƏSİL

# Nəticə: Müsəlmanların birliyi ən vacib mövzudur

## Müsəlmanların birliyi ən vacib məsələdir

Bu məqalə, "Burma Times"ta, "The Gulf Today"də və "Harakah Daily"də 2014-cü ilin may ayı tarixində yayımlanmışdır.

İmmiqrant; Qurana görə kömək etməkdə üstünlük veriləcək olan yolda qalmış insan, yəni evsiz, yeməksiz səfər halının tam qarşılığını meydana gətirməkdədir. Bu gün tək Arakanda deyil, Əfqanıstanda, Suriyada, Liviyada yaşayan müsəlmanların vəziyyəti də məhz tam olaraq, "zəif buraxılmış" ya da "yolda qalmış", köməyə möhtac bir birliyi ifadə etməkdədir. Bu gün müsəlmanları xilas etmə məsuliyyəti yenə müsəlmanlara düşməkdədir.

Bu məsuliyyət ilk olaraq hər kəsi hadisələr haqqında məlumatlandırmağı tələb etməkdədir. Necə ki, oxuduğunuz bu kitabın yazılması ilə məqsəd qoyulan hədəflərdən biri də budur. Bununla birlikdə, başda müsəlman ölkələrin rəhbərləri və BMT olmaq üzrə, dünyadakı bütün insani kömək quruluşlarını hərəkətə keçirəcək cəhdlər də olmalıdır, Myanmada yaşanan insanlıq dramına "dayan" deyilməsi üçün əməkdaşlıq edilməlidir. Başda Türkiyə və Körfəz ölkələri olmaq üzrə müsəlman ölkələrin gücü, zülm altındakı bu bir ovuc məzlum və möhtac mövqedəki insanı qorumağa, Myanma hökumətini razı salmağa çatacaqdır. Dünya ictimaiyyətinin vicdanını ön plana çıxaran, zülmləri hər kəsə yaxşı və obyektiv izah edən bir fəaliyyətin, Qərb ictimaiyyətini hərəkətə keçirə biləcəyi və bunun da Myanma kimi rejimləri olduqca narahat edəcəyi ortadadır.

Hər kəsə məlumat verməkdən başqa digər yol isə, İslam dünyasının Arakan probleminin həlli üçün ciddi birlik ruhu içərisində hərəkət etməsindən keçməkdədir. Myanma başda olmaq üzrə İslam coğrafiyasında yaşanan zülmlərin əsas səbəbi müsəlmanlar arasında "birlik ruhu"nun canlandırılamamasıdır. Müsəlmanların aralarındakı etnik, məzhəb ayrı-seçkiliyini qaldırıb Allahın fərz etdiyi şəkildə birlik olmaları lazımdır.

## Müsəlmanların birliyi ən vacib mövzudur

Bir çox insan rahat kreslosunda oturub çay içə-içə televizor izləyərkən dünyanın müxtəlif yerində milyonlarla müsəlman bacı-qardaşımız zülmə məruz qalaraq yaşamaq uğrunda mübarizə aparır. İraq, Əfqanıstan, Şərqi Türküstan, Kırım, Fələstin, Kərkük, Moro, Patani və Arakandakı müsəlmanlar hər gün müsəlman bacı-qardaşlarından gələcək köməyi ümidlə gözləyirlər. Gördükləri zülmü və təzyiqi bütün şiddəti ilə yaşayan bacı-qardaşlarımızın halını başa düşmək üçün bir anlıq özümüzü onların yerinə qoyaq.

Bu məqaləni oxuyarkən və ya yerinizdə yatan zaman birdən-birə evinizin dağıdıldığını, yandırıldığını və həmin anda ətrafdakı bütün evlərin də eyni vəziyyətdə olduğunu düşünün. Uşaqlarınızı, valideynlərinizi götürərək həyatınızı xilas etmək üçün bayıra çıxdığınızı, orda da sizi əli silahlı insanların gözlədiyini xəyal edin. Sığınacaq bir yer olmadığını və sadəcə qaçmağın lazım olduğunu...

Arakandakı bacı-qardaşlarımız hər an bu dəhşəti yaşayırlar...

Küçədə gedərkən yaxınlaşan təyyarə səsinə və ardından gələn dəhşətli partlayışlarla havadan bomba yağdığını və həyatınızı xilas etmək üçün hara sığınacağını bilmədən qaçdığınızı xəyal edin. Son günlərdə artıq xəbərlərin ilk sıralarında yer almasa da Suriyada 2 ildir davam edən vətəndaş müharibəsinə görə məzlum uşaqların, qadın və kişilərin hər an hiss etdikləri, hər an yaşadığı budur. B. Əsədin təyyarələri məzlum əhalinin evlərini, xəstəxanalarını, çörək sexlərini, hətta məktəblərini bombardman edir.

Acından mədənizin ağrımasına baxmayaraq, öz aclığınızı bir kənara qoyub, yanaqları çökmüş, iri qara gözlərində sevinc yerinə acı olan

uşağınıza yedirtməyə heç nə tapa bilməməyin çarəsizliyi içində ot yığıb, onu suda qaynadaraq “yemək” hazırladığınızı və bu otlu su ilə uşağınızı yaşatmağa çalışdığınızı düşünün. Acından ölənlərin sayının 144-ə çatdığı Yermükdə müsəlman bacı-qardaşlarımız uşaqlarını yedizdirə bilməməyin çarəsizliyi içində bunları yaşayır...

İsti evinizdə oturarkən birdən-birə qapının vurulub açıldını, bacınız, qardaşınız, atanız, həyat yoldaşınız, oğlunuz və ya qızınızın yerdə süründürülərək zorla evdən çıxarıldığını, kişilərin gözünün qabağında edam edildiyini, qızlarınızın, həyat yoldaşınızın, bacınızın və ya ananızın isə təcavüzə məruz qaldığını düşünün. Şərqi Türküstanda yaşayan uyğur qardaşlarımız 1965-ci ildən etibarən bu cür böyük zülm altında yaşayır və bu zülm altında şəhid olanların sayı 35 milyondur...

Bu say Kanadada yaşayan əhalinin sayına bərabərdir. Yəni biz isti evimizdə oturan zaman, bir ölkənin əhalisinin sayı qədər müsəlman bacı-qardaşımız şəhid olub...

Bura qədər izah edilən bir neçə misal belə insanın qəlbinin ürpərməsi, vicdanında böyük acı hiss etməsi üçün kifayətdir. Siz bu yazını oxuyan zaman dünyanın fərqli yerlərindəki müsəlman qardaşlarımız bir gün bombalardan birinin öz evinin damına düşəcəyinin narahatlığı, hər gün silah və bomba səsləri ilə yaşamağa davam edir. Bəziləri hər an qapılarının döyüləcəyinin narahatlığı içindədir. Qapılarını döyənlər hər an evin sakinlərindən birini götürüb apara bilər. Həmin ailənin bir daha onu görməsi, ondan xəbər alması belə mümkün olmaz. İşgəncəyə məruz qalan, təcavüz edilən, güllələnərək şəhid edilən, ibadətlərini yerinə yetirməyə əsla icazə verilməyən qadınlar, kişilər, qocalar, uşaqlar, qundaqdakı körpələr niyə öldüklərini belə bilmədən can verirlər. Uşaqlar niyə hər kəs kimi məktəbə gedə bilmədiyini, niyə evlərinin yandırıldığını

anlaya bilmir... Qısacası, bu ölkələrdə həyat bizim bildiyimiz kimi, normal şəkildə davam etmir.



Savaşın düz ortasındakı məzlum insanların yaşadıqları bu çətinlikləri, nə düşündüklərini, necə möhtac bir vəziyyətdə olduqlarını anlamaq hamımız üçün çox vacibdir. Çünki bir çox insan evində təhlükəsiz olub-olmadığını bir an belə düşünmədən rahat şəkildə yaşayır. Bir çox insan istədiyi zaman marketə gedib istədiyini rahat şəkildə alıb yeyə bilir, istədiyi zaman tətil planları qura bilir. Dünyanın bir başqa ölkəsində adını bilmədiyi, tanımadığı analar, uşaqlar, babalar və nənələrin başına gələnləri lazımi şəkildə önəmsəmədən, onların həyatı üçün narahat olmadan, bütün bunlardan özü heç məsuliyyət daşımadığını düşünərək həyatını davam etdirə bilir.

Ancaq əgər hər kəs belə edərsə, istəmədən və bilməyərək dünyanın bir çox yerində yaşanan bu insanlığa sığmayan hərəkətlərə ortaq olmuş olar. Müharibənin dəhşətli görüntüləri yaxşı bir insanı narahat edə bilər, bunu

dilə gətirə bilər. Bu insan yeri gəldiyində müharibənin zərərlərindən də bəhs edə bilər. Amma vicdanlı və imanlı bir insan bu problemi qəlbən hiss edər, özünü onların yerinə qoyar. “Sizə nə olub ki, Allah yolunda və: “Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!” – deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?” (Nisa surəsi, 75) ayəsini düşünər və zülmə məruz qalan insanların məsuliyyətini öz üzərində hiss edər. Dünyada hakim olan zalımlığı tamamilə aradan qaldırmaq üçün var gücü ilə cəhd edər.

## Zülmə necə "Dayan" deyəcəyik?

Unutmayaq ki, Suriyada donaraq can verən hər körpədən, Türküstanda evindən çıxarılaraq təcavüzə məruz qalan hər gənc qızdan, Misirdə snayperlərin gülləsinə tuş gələn hər candan, Patanidə işgəncə görən hər qardaşımızdan, mağazaya gedərkən düşən bomba ilə həyatını itirən hər gənc qızdan, əlində oyuncağı ilə yatarkən dağıntıların altında qalan hər körpədən, yemək almaq istədiyi bazarda əlini, ayağını itirən hər anadan Əfqanıstanda, Çadda, Kırımda, Kərkükdə zülm görən və məzlumdan bütün müsəlmanlar məsuliyyət daşıyır.

Bu zülmə "Dayan" deməyin yolu isə çox asandır. Allahın təqdim etdiyi həll yolunu tətbiq etmək. Allah dünyanın hüzura qovuşması üçün inananların bacı-qardaş olmalarını, bir-birlərinə kömək etmələrini və birlik olmalarını əmr etmişdir. Müsəlmanlar da qardaş olduqlarını xatırlayıb məzhəb ayrı-seçkiliyini, anlaşmazlıqları bir kənara qoyub ortaq amalda birlik olub Türk İslam Birliyini təcili olaraq qurmalıdırlar. Allahın Quranda göstərdiyi, Peyğəmbərimizin (s) hədislərində təfərrüatı ilə izah etdiyi tək həll yolu budur.

Birlik olmaq Qurana görə fərz, dağılıb ayrılmaq isə haramdır. Müsəlmanların Allahın "Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın!" (Ali-İmran surəsi, 103) hökmünün tələbi olaraq bir an öncə birləşib İslam Birliyini qurmaları, çəkilən acıların bitməsi, dünyanın hüzura və rifaha qovuşması üçün vacibdir. Müsəlmanların birlik olması, qan bağlılığı olan bacı-qardaşlar kimi, hətta daha da güclü şəkildə bir-birinə bağlanması fərzdir.

İslam aləmi güclü bir birlik meydana gətirdiyində, bu birliyin tərkibində heç kimin zülmə və haqsızlığa məruz qalması, heç kimin vətəndaşlarını

əzməyə cəhd etməsi mümkün olmayacaq. Bunun üçün bu dövrdə ən böyük fərz olan bütün müsəlmanların birlik olması üçün Allaha dua edib, bu yolda böyük səy göstərilməlidir. Myanmadan Atlantik okeanına qədər İslam aləmində yaşanan zülmləri dayandırmanın yeganə yolu budur.

Hörmətli Adnan Oktarın məzlum Rohinca xalqının yaşadıqları çətinlikləri izah edən məqalələrinin nəşr olunduğu qəzet və xəbər saytlarından bəziləri:

“Harakah Daily”, 1845-ci ildən bəri nəşr olunan Malayziyanın ən köklü və ən böyük İngiliscə qəzetidir.

“Burma Times”, mərkəzi Almaniyada olan və Birma ilə əlaqədar hadisələrə yer verən xəbər saytıdır.

“MalaysiaKini”, Malayziyanın ən çox oxunan xəbər saytı olub ölkədəki mükafat almış və saylı müstəqil yayım orqanlarından biridir.

“Arab News”, Səudiyyə Ərəbistanının ən çox oxunan İngiliscə qəzeti olub Orta Şərqdə də paylanılır.

“Tehran Times”, 1979-cu ildən bəri yayım həyatında olan İranın ilk və ən böyük İngiliscə qəzeti və eyni zamanda ölkənin dövlət qəzetidir.

“The Hans India”, dünya gündəmində yer alan xəbərləri Hindistandakı oxucuları ilə paylaşan qəzet və xəbər saytıdır.

“The Bosnia Times”, İngiliscə və Bosniya dilində nəşr edən Bosniyanın çox izlənilən xəbər saytıdır.

“Iran Daily”, İranın ən çox oxunan İngiliscə gündəlik qəzetidir.

“IRNA”, İranın rəsmi dövlət xəbər agentliyidir.

“New Strait Times”, 1845-ci ildən bəri nəşr olunan Malayziyanın ən köklü İngiliscə qəzetlərinin başında gəlməkdədir.

“The Jakarta Post”, İndoneziyanın ən böyük İngiliscə gündəlik qəzetidir.

“Morocco World News”, Fas, Orta Şərq və Şimali Afrika zonası haqqında xəbərləri geniş bir kütləyə təqdim edən müstəqil xəbər saytıdır.

“The Gulf Today”, Birləşmiş Ərəb Əmirliklərində yayımlanan və ölkənin ən böyük qəzetlərindən biridir.

ƏLAVƏ BÖLMƏ

# Təkamül yalanı

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən “Növlərin mənşəyi” adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allahın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı “Nəzəriyyənin qarşısında duran çətinliklər” başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: Həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-

özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. (Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. (Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu

təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. (“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982, səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. (Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. (Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr

birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

> **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". (Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, cild 271, oktyabr 1994, səh. 78)

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: "Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz", - demək məcburiyyətində qalmışdı. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv

edər”. (Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: Ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq,

qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" (Charles Darwin, The Origin of Species, səh. 172, 280)

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən

bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, cild 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. (Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin

əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

## Australopithecus

## Homo habilis

## Homo erectus

## Homo sapiens

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. (Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cild 258, səh. 389)

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar australopithecuslardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli

canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “Homo sapiensə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. (J. Rennie, “Darwins Current Bulldog: Ernst Mayr”, Scientific American, dekabr 1992)

Təkamülçülər “ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri australopithecus, homo habilis və homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. (Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, səh 221; M. D. Leakey, Olduvai Gorge, cild 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)

Habelə, homo erectus sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, homo sapiens neandertalensis və homo sapiens sapiens (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. (Time, noyabr 1996)

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. (S. J. Gould, Natural History, cild 85, 1976, səh. 30)

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". (Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin düsturu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin düsturu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb

çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli

qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə sm3-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir

təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. (Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 yanvar 1997, səh. 28)

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz

daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allahın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allahdır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi

qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

> *Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!*
>
> **(Bəqərə surəsi, 6-7)**

> *... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!*
>
> **(Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

> *Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər.*
>
> **(Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

> *(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər.*
>
> **(Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

*Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər.*

**(Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". (Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

> *...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən bilənsən, müdriksən!*
>
> **(Bəqərə surəsi, 32)**

## KİTAB HAQQINDA

**Rohinca dünyadakı ən çox zülmə uğrayan xalqa verilən addır, ancaq bu məzlum insanların adından demək olar ki, heç danışılmamaqda və varlıqları tamamiylə yox sayılmaqdadır.**

Müsəlmanlar arasında həyata keçiriləcək bir həmrəylik və ağız birliyi heç şübhəsiz Myanma hökuməti üzərində və beynəlxalq arenada müdhiş bir siyasi təzyiq yaradacaqdır.

Bu kitab bütün dünyanın diqqətini zülmə uğrayan Arakan müsəlmanlarının üzərinə çəkmək və qalıcı çözümlər meydana gətirmək üçün qələmə alınmışdır.

— HARUN YƏHYA —

### MÜƏLLİF HAQQINDA

Harun Yəhya imzasından istifadə edən Adnan Oktar, 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur.